# 525-ci qəzet

28 dekabr 2012-ci il, cümə, №238 (3794). Qiymәti 20 qәpik

www.525.az

## *Bidzina İvanişvili:* "Azərbaycan və Gürcüstan sərhəd danışıqlarını yekunlaşdıra bilər"

### "AZƏRBAYCAN RƏHBƏRLİYİ İLƏ GÖRÜŞDƏ MÜƏYYƏNLƏŞDİ Kİ, GÜRCÜSTAN TƏRƏFİNİN BİR SIRA SUALLARINA DANIŞIQLAR MASASINDA AYDINLIQ GƏTİRMƏK OLAR"

Azərbaycan və Gürcüstan sərhədlərin delimitasiyası üzrə danışıqları yekunlaşdıra və demarkasiya xətlərini mübahisəsiz çəkə bilərlər. APA-nın Gürcüstan mətbuatına istinadən xəbərinə görə, bunu Gürcüstanın baş naziri Bidzina İvanişvili Bakıda gürcü jurnalistlərə açıqlamasında bildirib. Onun sözlərinə görə, Azərbaycan rəhbərliyi ilə görüşdə aydın olub ki, Gürcüstan tərəfinin bir sıra suallarına danışıqlar masasında aydınlıq gətirmək olar: "Biz bütün bu məsələləri danışıqlar masası arxasında mütləq həll edəcək, daha sonra demarkasiya prosesini qalmaqalsız başlayacağıq".

B.İvanişvili mübahisələrin təbii olduğunu diqqətə çatdırıb: "Hətta ailədə də mübahisələr olur. Lakin münasibətlərimizin hazırki səviyyəsi bütün mübahisələrin həll olunacağına ümid yaradır. Azərbaycan rəhbərliyi iki ölkə arasında demarkasiya aparılmasına hazır olduğunu nümayiş etdirir. İlham Əliyev qürurla qeyd edib ki, Rusiya ilə sərhədlərin demarkasiyası məsələsini həll edə biliblər və heç bir əlavə problem ortaya çıxmayıb. Azərbaycanın bu sahədə yaxşı təcrübəsi var".

O həmçinin Azərbaycan rəhbərliyinin onda müsbət təəssürat doğurduğunu açıqlayıb: "Mən gördüm ki, Azərbaycan öz ölkəsi, öz xalqı üçün çox böyük işlər görən əsl dövlətdir".



İvanişvili qeyd edib ki, Azərbaycan rəhbərliyi ölkəsini uzaqgörənliklə idarə edir: "Prezident və baş nazirlə görüşdən sonra əmin oldum ki, ölkələrimiz arasında gözəl münasibətlər mövcuddur. Əgər aramızda hansısa kiçik problemlər yaransa, biz o problemləri dostluq şəraitində həll edə bilərik".

## *Əli Həsənov:* "2012-ci il böyük uğurlar, sürətli inkişaf və tərəqqi ili kimi yadda qalacaq"

### "AZƏRBAYCAN TAM MÜSTƏQİL, HEÇ KİMDƏN ASILI OLMAYAN ÖLKƏDİR VƏ ONA QARŞI TƏZYİQ CƏHDLƏRİ HEÇ VAXT BAŞ TUTMAYACAQ"

***Başa çatmaqda olan 2012-ci ilin yekunları artıq mətbuatda geniş müzakirə olunmağa başlayıb. Dünyanın ayrı-ayrı regionlarında neçə illərdir ki, davam edən iqtisadi-maliyyə böhranlarının, Cənubi Qafqazda yaşanan müharibə və qarşıdurmaların, etnik separatçı hərəkatların yaratdığı acınacaqlı mənzərələrin fonunda və qlobal maraqların toqquşduğu mürəkkəb bir regionda Azərbaycanın dinamik inkişafı 2012-ci ildə də davam etmiş, ölkə qarşısında duran bütün sosial-iqtisadi məsələlər vahid proqram əsasında öz həllini tapıb. Ölkə bu il həm də siyasi, iqtisadi, sosial-mədəni, idman və digər sahələr üzrə çoxsaylı səviyyəli beynəlxalq tədbirlərə layiqli ev sahibliyi etmiş, regionun və Avropanın enerji təhlükəsizliyi sahəsində getdikcə öz mövqelərini gücləndirmiş, habelə BMT Təhlükəsizlik Şurasının üzvü kimi qlobal beynəlxalq məsələlərin həllində yaxından iştirak edib. Azərbaycanın 2003-cü ildən başlanan və fasiləsiz dinamika ilə müşahidə olunan bu inkişaf tempi bütün dünyanın diqqətini özünə cəlb edərək, hazırda beynəlxalq aləmdə maraqla izlənilir və şərh olunur. Ölkənin ümumi inkişaf strategiyasının cari ilin yekunlarında öz ifadəsini tapmış nəticələrini, həyata keçirilən daxili və xarici siyasətin əsas istiqamət və prioritetlərini, habelə növbəti illərdə qarşıda duran vəzifələri YAP.org.az Azərbaycan Respublikası Prezidenti Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdiri, YAP İdarə Heyətinin üzvü Əli Həsənovla müzakirə edir.***

***– Əli müəllim, ötən ilin yekunları ilə bağlı verdiyiniz müsahibədə qeyd etmişdiniz ki, 2011-ci ildə Azərbaycan tarixi nailiyyətlərə imza ataraq öz inkişafının yeni səhifəsini açdı. Azərbaycanın milli inkişafı baxımından ümumən keçən illəri və konkret olaraq 2012-ci ili necə dəyərləndirirsiniz?***

– Azərbaycanın müasir milli inkişaf siyasətinin əsası 1993-cü ildə ümummilli lider Heydər Əliyev tərəfindən qoyulub. 1993-2003-cü illərdə ulu öndərin aydın, iradəli, uzaqgörən və qətiyyəti siyasəti, dövlət idarəçilik istedadı sayəsində Azərbaycanın suverenliyi qorunub-saxlanıldı, dövlət quruculuğunun hüquqi əsasları, demokratik idarəçilik mexanizmləri və bazar iqtisadiyyatı prinsipləri bərqərar oldu, milli dövlətimiz bütün sahələr üzrə möhkəmləndirildi, ölkəmiz beynəlxalq münasibətlərin tamhüquqlu subyektinə çevrildi, cəmiyyət həyatının bütün sahələrində köklü islahatlar reallaşdırıldı. 1994-cü ildə "Əsrin müqaviləsi" ilə təməli qoyulan yeni neft strategiyasının həyata keçirilməsi nəticəsində Azərbaycanın müstəqilliyinin dönməzliyi təmin edildi, gələcək inkişafının beynəlxalq qarantiyası alındı və maddi resursları təmin olundu. Son onillik müddətdə Azərbaycanda Heydər Əliyevin müəllifi olduğu milli inkişaf strategiyasının əsas prinsiplərinin müntəzəm olaraq həyata keçirilməsi, milli dövlət quruculuğu siyasətinin uğurla reallaşdırılması müstəqil dövlətimizin formalaşması və inkişafında müstəsna əhəmiyyət kəsb edib.

Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra cənab İlham Əliyev 2003-cü ildə "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" xüsusi Fərman imzalayaraq ölkənin gələcək sosial-iqtisadi inkişafının təmin edilməsini dövlət siyasətinin prioritet vəzifəsi kimi müəyyənləşdirdi.

Ardı 4-cü səh.



# Uşaq-Gənclər İdman və Şahmat məktəbləri arasında müsabiqənin qalibləri mükafatlandırılıb

Dünən Təhsil Nazirliyində Uşaq-Gənclər İdman və Şahmat məktəbləri, məşqçi müəllim və idmançılar arasında 12 nominasiya üzrə keçirilmiş Respublika müsabiqəsi qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.

Tədbirdə çıxış edən təhsil naziri Misir Mərdanov deyib ki, hazırda Təhsil Nazirliyi sistemində 159 Uşaq-Gənclər İdman və Şahmat məktəbi fəaliyyət göstərir və onlardan 83-ü uşaq-gənclər idman məktəbi, 9-u ixtisaslaşdırılmış olimpiya ehtiyatları uşaq-gənclər idman məktəbi, 64-ü uşaq-gənclər şahmat məktəbi, 2-si ixtisaslaşdırılmış olimpiya ehtiyatları uşaq-gənclər şahmat məktəbi, 1-i uşaq-gənclər fiziki hazırlıq klubudur. Nazirin sözlərinə görə, il ərzində uşaq-gənclər idman və uşaq-gənclər şahmat məktəbləri arasında 39 çempionat, birincilik, zona və seçmə yarışları, 11 respublika turniri, eləcə də beynəlxalq və respublika yarışlarına hazırlıqla əlaqədar 70 təlim-məşq toplanışı keçirilib: "Cari il ərzində respublika birincilik, çempionat və kubok yarışlarında idman növləri üzrə 557 medal, o cümlədən 219 qızıl, 172 gümüş, 166 bürünc medal qazanılıb. Avropa, Dünya birinciliyi və çempionatlarında, eləcə də beynəlxalq turnirlərdə isə idmançılarımız ümumilikdə 97 medal, o cümlədən, 55 qızıl, 17 gümüş, 25 bürünc medal əldə ediblər. 2012-ci ildə idman növləri üzrə 2108 nəfər yüksək dərəcəli idmançı hazırlanıb. Onlardan 1831 nəfəri I dərəcəli idmançı, 266 nəfəri idman ustalığına namizəd, 6 nəfəri idman ustası, 2 nəfəri FİDE (Beynəlxalq Şahmat Federasiyası) ustası, 3 nəfəri beynəlxalq dərəcəli idman ustasıdır".

Tədbirin davamında gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov, Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, millət vəkili Adil Əliyev çıxış edərək öz fikirlərini bildiriblər.

Tədbirin sonunda Uşaq-Gənclər İdman və Şahmat məktəbləri, məşqçi müəllim və idmançılar arasında keçirilmiş Respublika müsabiqəsi qalibləri Təhsil Nazirliyinin diplomu və hədiyyələrlə mükafatlandırılıblar.

**S.QARAYEVA**

## Misir Mərdanov Təhsil Problemləri İnstitutunun təklifinə münasibət bildirib



Təhsil naziri Misir Mərdanov Təhsil Problemləri İnstitutunun uşaqların orta məktəblərin I sinfinə müsabiqə yolu ilə qəbulu barədə yeni təkliflərinə münasibətini açıqlayıb. Nazir jurnalistlərə açıqlamasında deyib ki, Azərbaycanda adi, lisey və internat məktəbləri var. Nazirin sözlərinə görə, lisey məktəblərinin digər məktəblərdən əsas fərqi odur ki, orada çalışan müəllimlərin əmək haqqı digər məktəblərdə işləyənlərin əmək haqqından 15 faiz yüksəkdir: "Təhsilin keyfiyyəti yüksək olan məktəblərə lisey statusu veririk. O liseylərdə şagirdlər seçmə yolla məktəbə qəbul edilir. Əgər keyfiyyət axtarırıqsa, onda seçimə getməliyik. Ancaq eyni zamanda bizim borcumuzdur ki, Azərbaycanda bütün uşaqların icbari orta təhsil almasına şərait yaradaq".

Qeyd edək ki, Təhsil Problemləri İnstitutunun təkliflərinə görə, lisey-məktəb olub-olmamasından asılı olmayaraq, bu müəssisələr onların ərazisinə çox yaxın yerdə yaşayan, müsabiqədən keçməyən uşaqları da I sinfə qəbul etməlidirlər.

**S.QARAYEVA**

## "Repetitorluğun yayılmasının səbəbini yalnız məktəbdə axtarmaq olmaz"

"Azərbaycanda repetitorluğun yayılmasının səbəbini yalnız məktəbdə deyil, başqa yerdə axtarmaq lazımdır".

Bunu təhsil naziri Misir Mərdanov jurnalistlərə açıqlamasında deyib. Nazir bildirib ki, bununla əlaqədar obyektiv tədqiqat aparmaq və bunun nəticələrini ölkə ictimaiyyətinə açıqlamaq lazımdır. M. Mərdanov bildirib ki, repetitorluq dünyada və Azərbaycanda həmişə olub: "Bu gün də var və yəqin ki, gələcəkdə də olacaq. Repetitorluğa iki cür yanaşıram. Bunun təhsil üçün müsbət və mənfi təsirləri var. Repetitorluq təhsilin inkişafına mənfi təsir göstərirsə, buna qarşı etiraz edərək mübarizə aparılmalıdır. Bu proseslər gələcək illərdə də aparılacaq". Ölkədə son 5 ildə tətbiq edilən kurrikulum sisteminin gələcəkdə repetitorluğun qarşısını alıb-almayacağına gəlincə, nazir qeyd edib ki, bunun qarşısını almağın yolları bəllidir. Onun fikrincə, vaxtilə müəyyən beynəlxalq təşkilatlar bu sahədə tədqiqat aparıb və bununla bağlı təkliflərini bildiriblər. Nazir ölkədə kurrikulumun tətbiqi ilə bağlı davamlı olaraq monitorinqlərin aparılacağını da deyib. O qeyd edib ki, bu proses gələcəkdə də davam etdiriləcək: "Kurikulum Azərbaycan təhsili üçün yeni bir məsələdir. Hər bir yeniliyin özünün çətinliyi olur. Ona görə də hər bir yenilik tətbiq edilərkən proses öyrənməli və bütün məsələlər nəzərə alınmalıdır. Bunları öyrəndikdən sonra işlərimizi davam etdirəcəyik". M. Mərdanov ali məktəb rektorlarına müraciət edib. Nazir bildirib ki, hökumətin qərarına əsasən, ali məktəb işçilərinin əmək haqlarını rektorlar, eyni zamanda elmi şuralar müəyyənləşdirməlidir: "Bu qərarı da ali məktəb rektorları mütləq yerinə yetirməlidir".

**S.QARAYEVA**

# Qafqaz Universitetində Dünya Azərbaycanlılarının Milli Həmrəylik Gününə həsr olunmuş bayram tədbiri keçirildi

Qafqaz Universitetində 31 dekabr – Dünya Azərbaycanlılarının Milli Həmrəylik Günü münasibətilə tədbir keçirildi.Tədbiri giriş sözü ilə Qafqaz Universitetinin rektoru, professor Ahmet Saniç açaraq bütün müəllim və tələbə heyətini bu bayram münasibətilə təbrik etdi. Rektor çıxışında qeyd etdi ki, milli birliyin ideoloji əsası olan azərbaycançılıq məfkurəsi ulu öndərimiz, dahi şəxsiyyət Heydər Əliyev tərəfindən formalaşdırılmışdır. Dünya azərbaycanlılarının birliyi, dövlət müstəqilliyimizin dönməzliyi, Vətənin bütövlüyü, mənəvi-əxlaqi dəyərlərə sadiqlik, vətəndaş azadlıqları bu məfkurənin əsaslarındandır.

Tədbirdə iştirak edən millət vəkili Qənirə Paşayeva çıxış edərək bildirdi ki, 31 dekabr Azərbaycan tarixinə Dünya Azərbaycanlılarının Milli Həmrəylik Günü kimi daxil olmuşdur. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1991-ci il dekabr ayının 16-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında Milli Həmrəylik və Birlik Gününün təsis olunması ilə bağlı qərar qəbul olundu.

Bu tarixi sessiyadan doqquz gün sonra— dekabrın 26-da Azərbaycan Respublikası Ali




Sovetinin Milli Şurası hər il dekabr ayının 31-nin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi elan olunması barədə sərəncam verdi. Dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın və həmvətənlərimizin müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, onlar arasında birliyin və həmrəyliyin təmin olunması istiqamətində Dünya Azərbaycanlılarının 2001-ci ilin noyabrında Bakıda keçirilən I Qurultayından sonra monolit birliyin təmin olunmasında xeyli iş görülmüş, qəlbi Vətən, Azərbaycan eşqi ilə döyünən soydaşlarımız vahid ideya ətrafında birləşmişlər. İndi dünyanın müxtəlif ölkələrində yaşayan həmvətənlərimiz həmrəylik gününü təntənə ilə qeyd edirlər.

Sonra Qafqaz Universitetinin tələbələri arasında keçirilmiş "İlin adamı" sorğusunun nəticələrinə görə "İlin vətənpərvər millət vəkili" mükafatı rektor Ahmet Saniç tərəfindən millət vəkili Qənirə Paşayevaya təqdim olundu.

Tədbir Qafqaz Universitetinin tələbələrinin rəqs kollektivinin və ayrı-ayrı tələbələrin ifasında Azərbaycana aid mahnılarla davam etdirildi.

Mərasimin sonunda Qafqaz Universiteti tərəfindən 9 noyabr –Dövlət Bayrağı gününə həsr olunmuş müsabiqənin nəticələri elan olundu və qalib olan tələbələr mükafatlandırıldılar.

**S.QARAYEVA**

# İlin sonunadək Dodge "DURANGO", Volkswagen "Passat" və Kia "Optima" avtomobilləri qalibləri gözləyir

Dekabr ayının 26-da "Azərlotereya" ASC-nin daha bir layihəsi başa çatdı. Yeni ilqabağı onlarla evə sevinc gətirən "Yeni il Sevincləri" lotereyası 146 984 saylı biletin sahibinə yeni Hyundai "SantaFe" kimi hədiyyə verdi. Cari ilin əvvəlindən bəri neçə-neçə həmvətənimiz "Azərlotereya" ASC-dən sevinc payı alıb, böyük pul uduşlarına, avtomobillərə sahib olublar.

Başa çatmaqda olan ilin yekunlarına ötəri nəzər saldıqda təəccüblənməmək olmur. İl ərzində "Ailə sevinci" lotereyasından 29 000 manat məbləğində "Cek Pot", "Binqo"dan 19 000 manat məbləğində "Cek Pot" və 75 000 manat məbləğində "Fortuna" udulub. Uğur" lotereyası ümumi məbləği 154 000 manat olan beş "Cek Pot"la 5 iştirakçıya uğur gətirib. "5/36" və "6/40" lotereyaları isə ümumi məbləği 347 935 manat təşkil edən səkkiz "Cek Pot"la səkkiz iştirakçıya sevinc bəxş edib. Başqa sözlə il ərzində yalnız iri pul uduşlarının ümumi məbləği 600 000 manatdan çox olub. Vacib bir amili qeyd etmək lazımdır ki, oyunların təşkili və keçirilməsində obyektivlik, aşkarlıq və şəffaflıq kimi prinsiplərə sadiq qalan "Azərlotereya" ASC iri uduşlar və bu uduşların sahibləri haqda oyun iştirakçılarını müntəzəm məlumatlandırıb. Yeri gəlmişkən, lotereyalar 2013-cü ilə sanballı uduşlarla qədəm qoyurlar. Belə ki, hazırda "Klassik loto" lotereyasında "Cek Pot" 31 000 manat, "Meqa Pot" 147 000 manat, "Binqo"lotereyasında "Cek Pot" 47 000 manat, "Meqa Pot" 55 000 manat, "Binqo" prizi 90 000 manat, "Fortuna" 14 000 manat, "Super Binqo" isə 148 000 manatdır. "6/40" və "5/36" lotereyalarında "Cek Pot"ların ümumi məbləği 200 000 manatı keçdi. Bu məbləğlər günbəgün artmaqda davam edir. Məsələn, son bir həftə ərzində Bakı sakini Əliyev Şahmar Məmmədqulu oğlu və Abşeron rayon sakini İbayev Nicat Oqtay oğlu "5/36" lotereyasında artıq 80 000 manatı üstələyən "Cek Pot"un bir addımlığına qədər çatmışdı. Razılaşarsınız ki, onların udduqları 2700 və 3756 manat yeni ilə yaxşı hədiyyələrdir. Hər halda 17 yaşlı universitet tələbəsi olan Nicat İbayev, öz etirafına görə, 3756 manat məbləğində uduşdan çox məmnundur.




Yeni il qabağı "Uğur" lotereyasının 71-ci tirajında 2003 manat udan Astara rayon sakini Dədəyev Əbülfət Məmədi oğlu, 2500 manat udan Tovuz rayon sakini Salahov Əli Məhərrəm oğlu, "Kia Rio" avtomobilinə sahib olan Bərdə rayon sakini Əliyev İsmayıl Salah oğlu da əsl bayram ovqatına kökləniblər. İsmayıl kişinin özü demişkən, ömrü boyu fəhləliklə halal çörəyini qazanan, 5 övlad atası, 10 nəvənin babası, 69 yaşlı insan üçün "Kia Rio" avtomobili nağılvari bir hədiyyə deyilmi? Yeri gəlmişkən, "Uğur" lotereyası məhz dekabrın 21-də keçirilən 71-ci tirajdan sonra öz yerini, 123 000 manat məbləğində "Cek Pot"la birgə, yeni unikal bir layihəyə – "Qızıl Onluq" lotereyasına verdi. 2013-cü il yanvar ayının 4-də "Qızıl Onluq" lotereyasının qalibini, ilk tirajda 123 000 manat məbləğində "Cek Pot" gözləyir.

Sadalanan iri uduşları cəmləsək möhtəşəm bir məbləği görə bilərik. Baxın, 2013-cü ilin ilk həftəsində lotereya həvəskarlarını beş lotereya üzrə 900 000 manatadək məbləğdə uduş gözləyir. Bəli! 900 000 manat və söhbət yalnız "Cek Pot" tipli uduşlardan gedir. Lotereyalardan danışarkən, xüsusi mövsümi oyunları qeyd etməmək olmur. Bu tipli oyunlar iştirakçıları möhtəşəm abtomobillərlə sevindirir. Cari ildə iştirakçılar ənənəvi həftəlik lotereyalarda udulan 150 ədəd Nissan "Sunny", Chevrolet "Aveo" və Kia "Rio" avtomobillərinə əlavə olaraq "Binqo+8", "Bahar sevincləri", "Binqo+10", "Qızıl Payız" və "Yeni il Sevincləri" kimi oyunlarda 2 ədəd "Toyota Prado", Hyundai "SantaFe", Hyundai "Sonata", Kia "Sportage", Nissan "Juke", Hyundai İ-20, 2 ədəd Hyundai "I10", Kia "RIO", Nissan "Sunny", 2 ədəd Chery "Cowin" və 14 ədəd Chevrolet "Aveo" avtomobillərinə sahib olublar. Bu tipli lotereyalar üzrə ilin uduş limiti hələ bitməyib və hazırda lotereya həvəskarlarını dekabrın 28-də "Qış Möcüzəsi", dekabrın 31-də isə "Super Binqo" lotereyaları gözləyir və yenidən qeyd etmək istərdik ki, ilin sonunadək Dodge "DURANGO", Volkswagen "Passat" və Kia "Optima" avtomobilləri sahiblərini gözləyir. Bəs siz nə gözləyirsiniz?|

# YAP Heydər Əliyevin 90 illiyi ilə bağlı konfrans keçirəcək

Yeni Azərbaycan Partiyası İdarə Heyətinin (YAP İH) dekabrın 27-də növbəti iclası keçirilib. 525.az xəbər verir ki, YAP-ın sədr müavini – icra katibi Əli Əhmədov Asiya Siyasi Partiyalarının Beynəlxalq Konfransının (İCAPP) VII Baş Assambleyası kimi mötəbər tədbirin Bakı şəhərində keçirililməsini hakim partiyanın beynəlxalq nüfuzunun göstəricisi kimi dəyərləndirib.

O, qeyd edib ki, bu cür yüksək etimad YAP-ın İCAPP Daimi Komitəsinin üzvü kimi səmərəli fəaliyyətinin nəticəsidir. İdarə Heyətində həmçinin, ümummilli lider Heydər Əliyevin anadan olmasının 90-cı ildönümü ilə əlaqədar görüləcək tədbirlər haqqında geniş fikir mübadiləsi aparılıb. Ulu öndərin anadan olmasının 90-cı ildönümü ilə əlaqədar keçiriləcək konfransın mövzusu təsdiq edilib.

İdarə Heyətində daha sonra cari məsələlər ətrafında fikir mübadiləsi aparılmış, təklif və tövsiyələr dinlənilib.

**VAHAB**

# Dünya Azərbaycanlılarının Həmrəylik Günü Polşada silsilə tədbirlərlə qeyd olunub

Azərbaycanın Polşadakı səfirliyi Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə silsilə tədbirlər keçirib.

Səfirlikdən "525"ə daxil olan məlumata görə, Varşava şəhərinin Saska Kempa Mədəniyyət Mərkəzində keçirilən tədbiri açan səfir Həsən Həsənov Azərbaycan diasporunun formalaşmasında və təşkilatlanmasında ümummilli lider Heydər Əliyevin əvəzsiz xidmətlərindən danışaraq Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə aparılan quruculuq işləri, respublikamızda iqtisadiyyatın inkişafı, həyata keçirilən islahatlar barədə məlumat verib. Azərbaycan Mədəniyyət Mərkəzi Cəmiyyətinin sədri Şəhla Kazımova çıxış edərək rəhbərlik etdiyi qurumun qısa müddət ərzində həyata keçirdiyi layihələr haqqında danışıb. Sonra səfirlik tərəfindən Azərbaycan haqqında nəşr olunmuş kitab və açıqcalar tədbir iştirakçılarına təqdim edilib. Tədbirdə Azərbaycanla bağlı sənədli film nümayiş etdirilib. Dünya Azərbaycanlılarının Həmrəylik Günü ilə bağlı tədbirlər çərçivəsində Qrudzyondz şəhərindən Polşa ordusunda xidmət etmiş azərbaycanlı zabit Vəli Bəy Yadigarın vaxtilə təhsil aldığı və işlədiyi Ali Süvari Məktəbində onun xatirəsinə həsr olunmuş mərasim keçirilib. Qrudzyondzun meri Robert Malinovski tədbirdə çıxış edərək Ali Süvar Məktəbinin muzeyində Vəli Bəy Yadigarla bağlı xatirə guşəsi açıldığını bildirib.

Sonda Azərbaycanın Polşadakı səfirliyi tərəfindən nəşr olunmuş 10 adda kitab muzeyin rəhbərliyinə təqdim edilib. Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə daha bir tədbir Qdansk şəhərinin "Osvviata-Linqvista" Baltikyanı Təhsil Mərkəzində təşkil olunub. Azərbaycanın Polşadakı səfirliyinin və Azərbaycan–Polşa Mədəniyyət Cəmiyyətinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə təhsil mərkəzinin rəhbəri Qjeqqoj Ostroski çıxış edərək ölkəmiz haqqında məlumat verib. Sonra məktəblilər tərəfindən hazırlanmış bədii hissədə Azərbaycanın mədəniyyəti, musiqisi və tarixi haqqında danışılıb. Səfir Həsən Həsənov tədbir iştirakçılarına Azərbaycan-Polşa əlaqələrinin tarixindən və ölkələrimiz arasında mövcud münasibətlərdən bəhs edib.Sonda səfirlik tərəfindən nəşr olunmuş 10 adda kitab mərkəzin kitabxanasına təqdim olunub. Dünya Azərbaycanlılarının Həmrəylik Günü ilə bağlı Leon Kriçinski adına Tatar Mərkəzində də tədbir olub. Mərkəzin sədri Y.Şahunyeviç Polşa tatarlarının tarixi haqqında ətraflı məlumat verib: "Mərkəz 1918-1920-ci illərdə Azərbaycan dövlət dəftərxanasının direktoru olmuş Leon Kriçinski adını daşıyır".

Səfir Həsən Həsənov tədbir iştirakçılarına Azərbaycan haqqında ətraflı məlumat verib. Azərbaycanın Polşadakı səfirliyi tərəfindən nəşr olunmuş 10 adda kitab mərkəzin kitabxanasına təqdim edilib.

Qdansk şəhərində səfir H.Həsənov Azərbaycan-Polşa əlaqələri ilə bağlı bir sıra məqalələrin müəllifi və 35 il bu istiqamətdə araşdırma aparmış professor Andjey Xodubski ilə görüşüb.

Azərbaycan-Polşa münasibətlərinin daha da yaxınlaşmasına töhfə verən professor A.Xodubski səfirlik tərəfindən ölkələrimiz arasında diplomatik əlaqələrin yaranmasının 540 və bərpasının 20 illiyi münasibətilə təsis edilən medalla təltif olunub.

**Sevinc HƏMİDLİ**

# ABŞ səfirliyi yeni viza prosedurlarına başılayıb

ABŞ-ın Azərbaycandakı səfirliyi dekabrın 27-dən etibarən yeni təkmilləşdirilmiş viza üçün müraciət və gün təyin etmə prosedurlarını həyata keçirməyə başlayıb. Bu barədə ABŞ-ın Azərbaycandakı səfirinin ikinci katibi, baş konsul Erik Morin mətbuat konfransında deyib. Erik Morin viza almaq üçün "online" müraciət etmək üçün yeni internet saytını (www.usvisa-info.com) təqdim edib. O qeyd edib ki, bu dəyişikliyin bir hissəsi olaraq, ərizəçilər viza müsahibəsinə yazılmaqdan əvvəl rüsumu ödəyəcəklər. Morin bildirib ki, dekabrın 27-dən etibarən viza ərizəçiləri internet vasitəsilə DS-160 viza ərizə formasını doldurub viza müsahibəsinə yazılmalıdırlar. Hətta ərizəçilər 6 ay əvvəlcədən də müsahibəyə yazıla bilərlər. Sonradan müsahibə vəxtını dəyişmək də mümkündür. Ərizəçilər viza üçün müraciət rüsumunun ödənişinə görüş təyin edilən zaman hazır olmalıdırlar. Ödənişlər kredit kartı ilə və ya Azərbaycanda təyin edilmiş bankda nağd şəkildə ödənilə bilər. Nəğd ödənildikdə ərizəçilər 128 AZN, kredit kartı vasitəsi ilə isə 160 ABŞ dolları ödəməlidir. Yeni qaydalara əsasən, ərizəçi telefonla təyin olunmuş nömrəyə zəng vurub kredit kartı haqqında məlumat verməklə də ödəniş edə bilər. Bu yeni görüş və ödəmə sistemi ABŞ səfirliyindəki bütün əvvəlki gün təyin etmə sistemlərini əvəz edəcək və bu, bütün ərizəçilərə – rezidentlərə və qeyri-rezidentlərə tətbiq ediləcək.

Dekabr 27-dən etibarən ərizəçilər gün təyin etmək üçün yeni sistemdən istifadə edə bilərlər və müsahibələr 3 yanvar 2013-cü ildən başlayacaq. ABŞ səfirliyinin konsulluq şöbəsi 27 dekabr 2012-ci ildən 3 yanvar 2013-cü ilədək viza xidmətlərini dayandıracaq. Fövqəladə hallarda səyahət üçün məhdud viza xidmətləri göstəriləcək. Müraciətlər ConsularBaku@state.gov elektron poçtuna göndərilməlidir. Hətta yeni viza müraciət və gün təyin etmə prosedurları həyata keçirildikdən sonra təcili viza üçün görüş müraciətləri ayrı-ayrılıqda nəzərdən keçiriləcək.

Morin qeyd edib ki, o, hər gün ABŞ-a viza almaq istəyən 30-40 azərbaycanlı ilə söhbət aparır. O, həmçinin ötən illə müqayisədə viza üçün müraciət edənlərin sayında 10 faiz artım olduğunu qeyd edib.

**PƏRVANƏ**

# *Hüseyn Türkelli:* "Urmiya gölünün qurudulması İran dövlətinin düşünülmüş planıdır"

"Kanadada 200 minə qədər azərbaycanlı yaşayır. Onların çoxu Güney Azərbaycanından, yəni İrandakı şahlıq sistemi devrildikdən sonra, 70-80-ci illərdə Kanadaya mühacirət etmiş azərbaycanlılardır. O dövrdə milli düşüncə yüksək səviyyədə olmadığına görə, onların böyük bir qismi farsların içərisində əriyib, assimilyasiya olunub. Onların içərisində özünü azərbaycanlı sayanlar da var. Çox təəssüf ki, bəziləri özünü azərbaycanlı saymır. Vətən həsrəti olan, azərbaycançılığı anlayan azərbaycanlılardan söz açmaq lazım gələrsə, deyə bilərəm ki, bunların sayı 30-40 minə yaxındır. Onlar Azərbaycan məsələləri, sevincləri, kədərləri ilə maraqlanırlar". Bu barədə mətbuata açıqlamasında Kanada Vəkilləri Kollegiyasının üzvü, "Güney Azərbaycanlıların Müdafiə Mərkəzi"-nin sədri Hüseyn Türkelli çıxış edib. O deyib ki, rəhbərlik etdiyi qurum bir hüquq müdafiə mərkəzidir: "Mərkəzin əsas məqsədi dünya miqyasında bizim beynəlxalq hüquq normalarına uyğun olaraq Güney Azərbaycan türklərinin öz müqəddəratını təyinetmə, hüququnun bərpası uğrunda fəaliyyət göstərir. Çalışırıq ki, beynəlxalq təşkilatlarla əməkdaşlıq edək, onlarla əlaqələr yaradaq. Onlara davamlı olaraq müraciətlər ünvanlanır, beynəlxalq təşkilatlardan istənilir ki, bizim beynəlxalq hüquqda, qanunda, insan haqları bəyannaməsində nəzərdə tutulmuş, həm də İran dövlətinin 1967-ci ildə qoşulduğu konvensiyaya əsasən Azərbaycan türklərinin öz müqəddəratını təyinetmə haqqı ilə bağlı, bu haqqın reallaşdırılması ilə bağlı addımlar atılsın. Beynəlxalq təşkilatlardan tələbimiz bundan ibarətdir ki, İran dövlətinə təzyiq göstərilsin və bu təzyiqlərin sonlarında Azərbaycan türklərinin öz müqəddəratını təyinetmə haqqını reallaşdırılması uğrunda referendum keçirilsin . Bu referendum hansı nəticəni ortaya qoyacaqsa, bu, artıq başqa məsələdir. Öz müqəddəratını təyinetmə haqqı referenduma çıxarılmalı və insanlar buna səs verməlidir".

O deyib ki, İranda hər hansı bir hüquqdan söhbət gedə bilməz: "Qərbdə belə, insanların faydalandığı adi hüquqdan bizim millət tamamilə uzaqdır. Siyasi cəhətdən də bilindiyi kimi İran rejimindən tamamilə asılıyıq. Bizim iqtisadiyyatımız İran rejimi tərəfində tamamilə dağılır, kəndlərimizdə "yanıq torpaq" siyasəti keçirilir. İran rejimi Xəzərdən və Fars körfəzindən İranın mərkəzi olan Yəzd əyalətinə su kanalları çəkir ki, oralar səhralıqdır, susuz, duzlu yerlərdir. Bu vasitə ilə çalışırlar ki, ora su çəkərək oraları əkib becərsinlər, bərpa etsinlər, buna isə "səhradan arındırma" strategiyası deyirlər. Eyni zamanda İranın şimal- qərbində yerləşən Güney Azərbaycanda yürütdükləri siyasət tamamilə onun əksinədir. Güney Azərbaycan İranın ən yaşıl, sulu, gözəl bölgələrindən biridir, lakin apardıqları siyasət azərbaycanlıları bu bölgələrdən köçməyə vadar edir. Urmiya gölü məsələsi yaradılıb. Mən tam əminliklə deyə bilərəm ki, Urmiya gölünün qurudulması dövlətin düşünülmüş planıdır. Bəzən onlar gözdən pərdə asmaq üçün deyirlər ki, biz hansısa addım atmaq, tədbir görmək istəyirik, parlamentdə büdcə ayırmışıq və s. Bunların hamısı gözdən pərdə asmaq, insanları aldatmaq üçündür. Strateji məqsəd Urmiya gölünün tamamilə qurudulmasıdır".

O deyib ki, Urmiya gölü qurudulduqdan sonra onun yerində duz qasırğaları olacaq: "Azərbaycan da bir çox bu kimim qasırğalar var. Bəzi şəhərlərdə və ya əyalətlərdə bu artıq hiss olunur. Hətta Urmiya gölünü ətrafında üzüm bağlarını məhv etməyə başlayıblar. Bir çox ekspertin rəyinə görə, Urmiya gölünün qurudulmasından sonrakı duz qasırğaları hətta irəliləyək şimal hissədə Naxçıvana və Türkiyənin bəzi bölgələrinə də təsir göstərəcək. Hətta ola bilsin ki, bu problem İranın özünü də narahat etməyə başlasın, çünki bu qasırğalar Tehrana da təsir göstərə bilər".

**PƏRVANƏ**

# Prezident yol-nəqliyyat hadisələri ilə əlaqədar sərəncam imzaladı

Azərbaycan Prezidenti İlham Əliyev "Yol-nəqliyyat hadisələri ilə əlaqədar təhlükəsizlik tədbirlərinin gücləndirilməsi və yol hərəkətinin tənzimlənməsi sahəsində idarəetmənin şəffaflığının artırılması ilə bağlı tədbirlər haqqında" sərəncam imzalayıb. APA-nın məlumatına görə, sərəncama əsasən, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına iki ay müddətində nəqliyyat vasitəsini idarə etmə hüququ verən sürücülük vəsiqəsi almaq istəyən şəxslərdən imtahanların qəbul edilməsi qaydalarının təkmilləşdirilməsi və bu sahədə şəffaflığın artırılması, həmçinin yol-nəqliyyat hadisələrinin sərxoş halda, nəqliyyat vasitəsini idarə etmə hüququ məhdudlaşdırılmış və ya belə hüququ olmayan şəxs tərəfindən törədilməsi ağır nəticələrə səbəb olduğu hallarda cinayət məsuliyyətinin sərtləşdirilməsi ilə bağlı təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etmək tapşırılıb.



Həmçinin sərəncamda Azərbaycan Respublikasının Nazirlər Kabinetinə bir ay müddətində "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun müddəalarının pozulmasına görə fiziki və hüquqi şəxslər tərəfindən ödənilən cərimələrdən daxil olan vəsaitin 25 faizinin Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin yol patrul xidmətini həyata keçirən və yol hərəkətinin tənzimlənməsinə cəlb olunan əməkdaşlarının aylıq vəzifə maaşlarına əlavənin verilməsi üçün istifadə qaydalarını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdıraraq təsdiq etmək və bu sərəncamdan irəli gələn digər məsələləri həll etmək tapşırığı verilib.

Sərəncamla Daxili İşlər Nazirliyinə Sərəncamda nəzərdə tutulan vəsaitin istifadəsi zamanı şəffaflığın təmin edilməsi məqsədi ilə ciddi tədbirlər görmək və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat vermək; bir ay müddətində nəqliyyat vasitələrinə və onların qoşqularına dövlət texniki baxışının keçirilməsi qaydalarının təkmilləşdirilməsi ilə bağlı təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etmək; yol-nəqliyyat hadisəsi yerlərinə baxışın nəticələrinin rəsmiləşdirilməsinin qanunun tələblərinə ciddi əməl edilməklə həyata keçirilməsini təmin etmək; yol-nəqliyyat hadisəsinin baş verdiyi ərazi videomüşahidə vasitələrinin nəzarəti altındadırsa, həmin hadisədən dərhal sonra müvafiq görüntülərin elektron daşıyıcıda təhqiqat və ya istintaq materiallarına əlavə edilməsini təmin etmək; yol-nəqliyyat hadisələrinin törədilməsinə səbəb olan və ya şərait yaradan halların aradan qaldırılması üçün qanunla müəyyən edilmiş tədbirlərin görülməsini təmin etmək tapşırılıb.

Sərəncama əsasən ədliyyə və səhiyyə nazirliklərinə müvafiq olaraq məhkəmə yol-nəqliyyat hadisələrinin ekspertizaları və məhkəmə-tibb ekspertizalarının qanunun tələblərinə əməl edilməklə vaxtında və obyektiv aparılmasına nəzarəti gücləndirmək, bu sahədə mövcud olan nöqsanları aradan qaldırmaq və qanunun tələblərini pozan ekspertlər barəsində ciddi intizam tənbeh tədbirləri görmək tapşırığı verilib.

Azərbaycan Respublikasının Baş Prokurorluğuna yol-nəqliyyat hadisələrinin təhqiqatında və istintaqında qanunların icrasına nəzarətin gücləndirilməsini və aşkar olunan pozuntuların aradan qaldırılmasını təmin etmək; sərəncamda nəzərdə tutulan hərəkətlərin təhqiqat və istintaq orqanları tərəfindən icra olunmasına nəzarət etmək; yol-nəqliyyat hadisəsinin törədilməsi nəticəsində zərər çəkmiş şəxslərin sağlamlığına yetirilmiş xəsarətlərin ağırlıq dərəcəsi ilə bağlı məhkəmə-tibb ekspertizası rəylərinin cinayət işinin digər materialları ilə yanaşı, həmin şəxslərlə bağlı təcili tibbi yardım, tibb müəssisələrində müalicə və müayinə sənədləri ilə müqayisəli şəkildə qiymətləndirilməsini, ekspert rəylərinin əsaslılığına şübhələr olduqda təkrar ekspertizaların təyin edilməsini və qanun pozuntusuna yol verən şəxslərin məsuliyyətə cəlb edilməsini təmin etmək; açılması təmin edilməmiş ölümlə nəticələnən yol-nəqliyyat hadisələri ilə bağlı əməliyyat-axtarış və istintaq hərəkətlərinin vaxtında, tam və hərtərəfli həyata keçirilməsinə nəzarəti gücləndirmək; yol-nəqliyyat hadisələri ilə bağlı aparılan təhqiqat, istintaq və ekspertizalar zamanı korrupsiya və digər sui-istifadə hallarına yol verən şəxslərin məsuliyyətə cəlb edilməsini təmin etmək tövsiyə olunub.

Azərbaycan Respublikasının Ali Məhkəməsinə sərəncamda məhkəmə orqanları tərəfindən yol-nəqliyyat hadisələrinə dair işlərə baxılması ilə əlaqədar mövcud məhkəmə təcrübəsini ümumiləşdirmək və bu kateqoriyadan olan işlərə baxarkən öz qərarları ilə ədalətli məhkəmə təcrübəsini formalaşdırmaq tövsiyə olunub.

# MTN daha bir əməliyyat keçirdi



Azərbaycan Milli Təhlükəsizlik Nazirliyi (MTN) tərəfindən həyata keçirilmiş əməliyyat tədbirləri nəticəsində narkotik vasitələrin qaçaqmalçılığı və qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslər ifşa edilib, onlardan ümumilikdə 20 kiloqramdan artıq narkotik vasitə aşkar edilərək götürülüb. İctimai Əlaqələr Mərkəzindən APA-ya verilən məlumata görə, həyata keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində Azərbaycan vətəndaşları – Şahverdiyev Baba Zakir oğlu, Əliyev Ceyhun Firudin oğlu, Şıxəliyev Nurəli Əliabbas oğlu, Həsənov İlham Sumbat oğlu, Bayramov Elşən Güloğlan oğlu və Heydərova Günel Rəhim qızı saxlanılıblar. Məlum olub ki, adları çəkilən şəxslər və qeyriləri qabaqcadan əlbir olan bir qrup şəxs halında, satış məqsədilə külli miqdarda narkotik vasitəni qaçaqmalçılıq yolu ilə Rusiya Federasiyası istiqamətindən gömrük sərhədindən gömrük nəzarətindən gizli keçirib Azərbaycana gətiriblər. Müəyyən edilib ki, Baba Şahverdiyev, Ceyhun Əliyev, Nurəli Şıxəliyev, İlham Həsənov, Elşən Bayramov, Günel Heydərova və qeyriləri cinayət əlaqəsinə girərək Rusiyanın Moskva şəhərində külli miqdarda narkotik vasitə olan 125,46 qram kokain və sintetik narkotik vasitə olan 72,83 qram metadon əldə ediblər. Qrupun üzvləri həmin narkotik vasitələri "DVD player"in içərisində gizlədib "Moskva-Bakı-Moskva" reysi üzrə hərəkət edən "İkarus" markalı avtobusla "Samur" gömrük məntəqəsindən gizli keçirərək Bakı şəhərinə gətirərkən cinayət başında yaxalanıblar.

MTN-in həyata keçirdiyi digər əməliyyat tədbiri nəticəsində Azərbaycan vətəndaşı Məhərrəmov Dövlət Hüseyn oğlu saxlanılıb. Müəyyən edilib ki, Dövlət Məhərrəmov, habelə hazırda şəxsiyyəti istintaqla araşdırılan İran İslam Respublikasının Şəhram adlı vətəndaşı və qeyriləri tamah niyyəti ilə cinayət əlaqəsinə girərək qabaqcadan əlbir olan bir qrup şəxs halında külli miqdarda narkotik vasitəni İran istiqamətindən qaçaq yolla gömrük sərhədindən gömrük nəzarətindən kənar keçirərək Azərbaycana gətiriblər. Dekabr ayının ortalarında Dövlət Məhərrəmov İranın Astara şəhərinə gedib və orada tanışı Şəhram adlı iranlı ilə külli miqdarda narkotik vasitənin qaçaq yolla Azərbaycana gətirilməsi barədə razılaşıblar. Şəhram adlı iranlı həmin narkotik vasitəni qaçaq yolla Azərbaycanın Astara rayonunun Telmən kəndinin ərazisinə keçirib və əvvəlcədən müəyyən edilmiş yerdə gizlədib. Dövlət Məhərrəmov həmin gizli yerdən içərisində külli miqdarda narkotik vasitənin olduğu bağlamanı götürərkən MTN-in əməkdaşları tərəfindən cinayət başında yaxalanıb. Keçirilmiş baxış zamanı həmin bağlamanın içərisindən 19 kiloqram 278,71 qram həşiş qətranı aşkar edilərək götürülüb.

Hər iki faktla bağlı MTN İstintaq Baş İdarəsi tərəfindən Azərbaycan Cinayət Məcəlləsinin 206.3.2-ci (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən narkotik vasitələrin qaçaqmalçılığı), 234.4.1-ci və 234.4.3-cü (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən külli miqdarda narkotik vasitələri əldə etmə, daşıma, saxlama və ya satma) maddələri ilə cinayət işləri başlanıb. Adları çəkilən şəxslər təqsirləndirilən şəxs qismində cəlb olunaraq barələrində məhkəmənin qərarları ilə həbs-qətimkan tədbiri seçilib. İstintaq-əməliyyat tədbirləri davam edir.

## "Dünya azərbaycanlılarının həmrəyliyi: ideyadan gerçəkliyə" Naxçıvanda müzakirə olunub

Milli Elmlər Akademiyası (AMEA) Naxçıvan bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunda Yeni Azərbaycan Partiyası müəssisədənkənar ərazi ilk partiya təşkilatının "Dünya azərbaycanlılarının həmrəyliyi: ideyadan gerçəkliyə" mövzusunda konfrans keçirilib. İnstitutdan verilən məlumata görə, konfransı giriş sözü ilə açan AMEA Naxçıvan bölməsinin sədri, akademik İsmayıl Hacıyev 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün tarixindən və Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dünya azərbaycanlılarının vahid milli ideologiya ətrafında birləşdirilməsi istiqamətində xidmətlərindən danışıb: "Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün əsas məzmununu xalqımızın milli-mənəvi dəyərlərinə hörmət, Azərbaycan xalqına mənsubluq, Vətənə bağlılıq, azərbaycançılıq duyğuları və ideyaları təşkil edir".

Konfransda AMEA Naxçıvan bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Zeynəb Quliyeva "Heydər Əliyev və dünya azərbaycanlılarının həmrəyliyi ideyası", həmin institutun əməkdaşı Elnur Kəlbizadə "Azərbaycançılıq milli məfkurə kimi" mövzularında məruzələrlə çıxış ediblər. Çıxışlarda qeyd olunub ki, Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün təsis edilməsi və dünya azərbaycanlılarının vahid ümummilli ideologiya – azərbaycançılıq ideologiyası ətrafında sıx birləşdirilməsi Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır: "1993-cü ildə Azərbaycanın parçalanmaq təhlükəsi ilə üz-üzə qaldığı ağır bir dövrdə xalqımızın təkidli tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə gələn böyük dövlət xadimi Heydər Əliyev ölkəni parçalanmaq, məhv olmaq təhlükəsindən qurtarıb, azərbaycançılığı nəinki dövlətçilik konsepsiyasına, hətta bütün dünyada yaşayan azərbaycanlıların ümummilli ideologiyası səviyyəsinə yüksəldə bilib. Elə məhz bu amil də onun adının bütün dövrlərin ən böyük azərbaycanlısı kimi tarixə yazılmasına səbəb olub".

Konfransda çıxış edən AMEA-nın müxbir üzvü, AMEA Naxçıvan bölməsinin Bioresurslar İnstitutunun direktoru Tariyel Talıbov bu gün də xalqımızın – dünya azərbaycanlılarının ümummilli ideallar ətrafında, Azərbaycan dövləti ətrafında sıx birləşməsinin vacibliyini vurğulayıb. Konfransa AMEA Naxçıvan bölməsinin sədri, akademik İsmayıl Hacıyev yekun vurub.

**S.HƏMİDLİ**

## Ermənilər bir neçə istiqamətdə atəşkəsi pozub



Cəbhə xəttində atəşkəs yenidən pozulub. Azərbaycan Müdafiə Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, erməni silahlı bölmələri dünən və bu gecə Ermənistanın Noyemberyan rayonunun Berdavan kəndində, Cəbrayıl rayonunun işğal olunmuş Mehdili, Füzuli rayonunun Aşağı Seyidəhmədli, Horadiz və Qorqan, Ağdam rayonunun Şıxlar və Şuraabad kəndləri yaxınlığında yerləşən mövqelərindən atəşkəs rejimini pozublar.

Düşmən cavab atəşi ilə susdurulub.

## İran Ermənistana qadağanı götürdü

İran Ermənistana bəzi məhsulların ixracına qoyulmuş qadağanı götürüb. APA-nın "Fars" xəbər agentliyinə istinadən verdiyi məlumata görə, bunu Ermənistan Xarici İşlər Nazirliyinin sözçüsü Tiqran Balyan deyib. O bildirib ki, bu qərar Ermənistanla İran rəsmiləri arasında aparılan müzakirələrdən sonra alınıb.

Qeyd edək ki, İran 2012-ci ilin noyabr ayında yerli istehsalçıları dəstəkləmək məqsədilə Ermənistana 52 adda məhsulun ixracını dayandırmışdı. İxracına qadağa qoyulmuş məhsulların arasında buğda, canlı mal-qara və ət məhsulları da var idi.

## Rusiyaya gedən Azərbaycan vətəndaşlarından tibbi sığorta şəhadətnaməsi tələb olunacaq

Moskva ölkəyə vizasız gələn xarici ölkə vətəndaşları üçün yeni qaydalar tətbiq edib.

Rusiyaya vizasız gələn xarici ölkə vətəndaşlarından tibbi sığorta tələb olunacaq. APA-nın Moskva müxbirinin verdiyi məlumata görə, tibbi sığortanın tələb olunmasına 2015-ci ildən başlanılacaq. Dövlət Sərhəd Komitəsi Rusiyaya vizasız rejimdə gələcək vətəndaşların tibbi sığortalanmasının vacib olduğunu açıqlayıb.Qeyd edək ki, Rusiyanın Azərbaycan daxil olmaqla 37 ölkə ilə vizasız rejimi mövcuddur.

## Azərbaycanda qədim fauna və flora muzeyi yaradılacaq

Azərbaycanda qədim fauna və flora muzeyi yaradılacaq. APA-nın xəbərinə görə, bu barədə Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) vitse-prezidenti, Geologiya İnstitutunun direktoru Akif Əlizadə institutun illik hesabat iclasında deyib. Onun sözlərinə görə, hazırda muzeyin yaradılması istiqamətində işlər aparılır. "Muzey "Binəqədi dördüncü dövr fauna və flora qəbirstanlığı" təbiət abidəsinin ərazisində yaradılacaq. Artıq muzey üçün ayrılmış ərazidə tədqiq olunan qatların radioaktivlik dərəcəsi müəyyən edilib və qatların kimyəvi analizi, suxurların mütləq yaşı (45 min il və 55 min il ) təyin olunub".

Qeyd edək ki, Azərbaycanın dünya şöhrətli təbiət abidəsi olan "Binəqədi dördüncü dövr fauna və flora qəbirstanlığı" ərazisinin müasir vəziyyətinin öyrənilməsi Geologiya İnstitutu, Arxeologiya və Etnoqrafiya İnstitutu, Binəqədi rayon İcra Hakimiyyətinin birgə iştirakı ilə aparılıb.

## *Əli Əkbər Salehi:* "İran viza rejiminin ləğvi üçün Azərbaycanla danışıqlar aparır"

İran viza rejiminin ləğv olunması üçün bəzi ölkələrlə, o cümlədən Azərbaycan və İraqla danışıqlar aparır. APA-nın məlumatına görə, bu barədə jurnalistlərə açıqlamasında İranın xarici işlər naziri Əli Əkbər Salehi bildirib. Nazir həmçinin Suriyadakı böhrana da toxunub: "İran Suriyadakı böhranın xarici müdaxilə yolu ilə həll edilməsinə icazə verməyəcək. Bu problemin həlli asan deyil. Amma İran böhranın Suriya daxilindəki qüvvələrin uzlaşması nəticəsində həll olunması və kənar variantlara əl atılmaması üçün tədbirli davranır. Yəni Suriyadakı böhran yalnız suriyalılar tərəfindən həll olunacaq. İranın təklif etdiyi 6 maddəlik plan isə problemin nizamlanması üçün ən yaxşı həll yoludur. Suriya üçün İran təklifindən başqa heç bir həll təklif keçərli omayacaq. Artıq təklifimiz böyük bir dəstək görüb. Planla bağlı hər səviyyədə görüşməyə hazırıq və hər cür konstruktiv tənqid və ya təklifə də açığıq".

Ə. Salehi İranın nüvə alimlərinin terrora məruz qalması məsələsinin hüquqi müstəvidə araşdırılması üçün beynəlxalq konvensiyanın yaradılmasının məqsədəuyğun saydıqlarını deyib: "İran təklif edir ki, diplomatlar kimi, alimlər üçün də beynəlxalq konvensiya yaradılsın və terrorçular bu cür təxribatlara yol verdikləri zaman həmin sənədə uyğun davranılsın".

Qeyd edək ki, Ə. Salehi İranın Suriyadakı böhranın həlli üçün irəli sürdüyü 6 maddəlik planı srağagün axşam xarici ölkələrin Tehranda akkreditə olunmuş səfirləri və ölkə nümayəndələri ilə müzakirə edib.

## Ermənistanda şagirdlərin 15 faizi evdə ac qalırlar

Ermənistanda keçirilən sorğunun nəticələrinə görə, şagirdlərin 15 faizi evdə ərzaq qıtlığı səbəbindən ac qalırlar. APA-nın "news.am" saytına istinadən verdiyi məlumata görə, bu göstəricilər Ermənistan Təhsil Nazirliyi tərəfindən ölkə hökumətinə təqdim etdiyi məlumatlarında öz əksini tapıb. Şagirdlər bildirirlər ki, aclıqdan onlarda baş və qarın ağrıları, ürək bulanma, yuxusuzluq müşahidə olunur. Bu da erməni məktəblilərin psixoloji vəziyyətinə neqativ təsir göstərir.

Araşdırma UNİCEF-in dəstəyi ilə keçirilib. Təhsil Nazirliyi isə öz növbəsində bu gün Ermənistan hökumətinin iclasında müzakirəyə çıxarılacaq "Stabil məktəb qidalanma" proqramın konsepsiyasını tərtib edib. Hal-hazırda bu proqram 6 vilayətdə icra olunur.

## "Azərbaycanda qadın məhkumlarının sayı ilbəil azalır"

Azərbaycanda qadın məhkumlarının sayı ilbəil azalır. APA-nın xəbərinə görə, bunu Penitensiar xidmətin rəis müavini Hüseyn Əlixanov qadın məhkumların saxlandığı 4 saylı cəzaçəkmə müəssisəsində Azərbaycan prezidentinin srağagün imzaladığı əfv sərəncamının icrası zamanı deyib. H. Əlixanovun sözlərinə görə, ötən il ölkədə 450 qadın məhkum olubsa, bu il onların sayı 300-ə yaxındır. Rəis müavini deyib ki, qadınlar əsasən dələduzluq, narkotik, insan alveri, qəsdən adam öldürmə halları ilə bağlı həbs olunublar.Onun sözlərinə görə, yetkinlik yaşına çatmayan məhkumlar da getdikcə azalır.

H. Əlixanov Penitensiar xidmətdə son zamanlar mütərəqqi tədbirlər həyata keçirildiyini, qanunvericiliyin təkmilləşdirildiyini, məhkumların şəraitinin yaxşılaşdırıldığını vurğulayıb: "Məhkumların asudə vaxtını səmərəli keçirmələri üçün bütün şərait yaradılır. Yeni qanunvericiliyə görə məhkumların telefon danışıqlarının müddəti artırılıb".

Qeyd edək ki, Azərbaycan Prezidenti İlham Əliyevin dünən imzaladığı əfv sərəncamı 87 nəfərə şamil olunub. Onlardan 79 nəfəri cəzasının çəkilməmiş hissəsindən, 4 nəfər islah işləri cəzasının çəkilməmiş hissəsindən, daha 4 nəfər isə cərimə cəzasından azad edilib.

## "Armavirdəki RLS bu gün üçün tapşırıqları yerinə yetirməyə hazırdır"

Rusiya 2013-cü ildə Krasnoyarsk və Altay vilayətlərində yeni RLS-lər tikəcək. APA-nın Moskva müxbirinin verdiyi məlumata görə, bu barədə jurnalistlərə açıqlamasında Rusiya müdafiə nazirinin müavini general-polkovnik Oleq Ostapenko bildirib. Onun sözlərinə görə, Armavirdəki RLS-in dövlət sınağından keçmə mərhələsində olduğunu söyləyib: "Stansiya artıq bu gün üçün tapşırıqları yerinə yetirməyə hazırdır. Stansiyanın döyüş növbəsinə gətirilməsini isə yaxın vaxtlarda biləcəksiniz".



Qeyd edək ki, "Azərbaycan hökuməti və Rusiya hökuməti arasında Qəbələ RLS-in statusu, istifadə prinsipləri və şərtləri haqqında Saziş" 2002-ci ildə imzalanıb. Rusiya bu il dekabrın 10-dan stansiyanın istismarını dayandırıb. 1984-cü ildə SSRİ-nin raket əleyhinə müdafiə sistemi kimi inşa edilmiş Qəbələ RLS Hind okeanı regionunda – 6 min kilometr radiusda ballistik raketlərin buraxılışını izləməyə imkan verir.

2002-ci ildə imzalanmış sazişə müvafiq olaraq, Rusiya RLS-in icarəsinə görə Azərbaycana ildə 7 milyon dollar ödəyib. Azərbaycan növbəti illərdə RLS-in icarəsi üçün Rusiyadan illik 300 milyon dollar istəyib.

## UNİCEF Azərbaycanda fəaliyyətini məhdudlaşdırır

"UNİCEF artıq regionda missiyasını dəyişmək üzrədir, bu səbəbdən Azərbaycan və bu kimi ölkələrdə fəaliyyətini məhdudlaşdırır". APA-nın xəbərinə görə, bu açıqlamanı jurnalistlərə UNİCEF-in Azərbaycan nümayəndəliyinin rəsmisi Munir Məmmədzadə deyib. O bildirib ki, beynəlxalq təşkilat hansısa ölkəyə yardım edərkən iqtisadi və inkişaf göstəriciləri əsas amil kimi götürürlər. UNİCEF rəsmisinin sözlərinə görə, Azərbaycan iqtisadi cəhətdən inkişaf etməkdə olan, yüksək gəlirli ölkələr sırasında olduğundan bu cür ölkələrdə yardım və kiçik həcmli layihələr dəstəklənmir: "Bizim məqsədimiz elə bir dövlət daxili mexanizm yaratmaqdır ki, dövlət özü və vətəndaş cəmiyyəti uşaq hüquqlarının müdafiəsinin qarantı olsun".

UNİCEF-in ümumiyyətlə proqramlarını dayandıra biləcəyinə dair sualı cavablandıran M.Məmmədzadə qeyd edib ki, Azərbaycanda fəaliyyətə hələ də ehtiyac var: "Sadəcə olaraq layihələri yenidən nəzərdə keçirərək düşünürük ki, öz fəaliyyətimizdə prioritetləşmə aparaq və fəaliyyətimizi daha problemli sahələrə yönəldək".

## Bu gün hava necə olacaq?



Bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu, əsasən yağmursuz keçəcəyi, bəzi yerlərdə duman olacağı gözlənilir. Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Departamentindən APA-ya verilən məlumata görə, mülayim cənub-qərb küləyi arabir güclənəcək, havanın temperaturu gecə 2-4, gündüz 7-11 dərəcə isti təşkil edəcək. Azərbaycanın rayonlarında hava şəraitinin əsasən yağmursuz keçəcəyi, bəzi yerlərdə duman olacağı gözlənilir. Cənub-qərb küləyi əsasən dağlıq ərazilərdə arabir güclənəcək. Havanın temperaturu gecə 1 dərəcə şaxtadan 4 dərəcəyədək isti, gündüz 7-12 dərəcə isti, dağlarda gecə 3-8, bəzi yerlərdə 12 dərəcəyədək şaxta, gündüz 2-7, bəzi yerlərdə 10 dərəcəyədək isti olacaq.

Dekabrın 28-29-da Bakıda və Abşeron yarımadasında nisbətən sabit hava şəraiti, biometeoroloji amillərin normal sutkalıq gedişi meteohəssas insanlar üçün əsasən əlverişlidir.

# Əli Həsənov: "2012-ci il böyük uğurlar, sürətli inkişaf və tərəqqi ili kimi yadda qalacaq"

## "AZƏRBAYCAN TAM MÜSTƏQİL, HEÇ KİMDƏN ASILI OLMAYAN ÖLKƏDİR VƏ ONA QARŞI TƏZYİQ CƏHDLƏRİ HEÇ VAXT BAŞ TUTMAYACAQ"

*(Əvvəli 1-ci səh.)*

Bu məqsədlə enerji resurslarının ixracından əldə olunan gəlirlərin xüsusi bir qismi iqtisadiyyatın şaxələndirilməsinə, qeyri-neft sektorunun inkişafına və bu sahələrin tələbatından doğan digər istiqamətlərə yönəldildi. Ardıcıl şəkildə qəbul olunmuş və həyata keçirilmiş çoxsaylı dövlət proqramlarının, reallaşdırılmış xüsusi layihələrin əsas məqsədi güclü iqtisadi potensialın yaradılması, insan kapitalının səfərbər edilməsi və səmərəli istifadəsi, ölkənin bütün sahələr üzrə müasir infrastrukturlarının yenilənməsi, əhalinin rifahının yüksəldilməsi və digər sosial problemlərin həlli olmuşdur. 2003-2011-ci illərdə ÜDM-in orta illik artım tempi dünyada rekord vuraraq 14,2 faiz təşkil edib. Ölkənin strateji valyuta ehtiyatları 25 dəfə artaraq 40 milyard dolları keçmiş, dövlət büdcəsi 17 dəfə artaraq 25 milyard dollara çatmış, əmək haqları və orta aylıq pensiya 6 dəfə yüksəlmiş, yoxsulluğun səviyyəsi 49 faizdən 7,6 faizə, işsizlik 5,4 faizə enib. Azərbaycanın tarixində ilk dəfə neft hasilatı ildə 50 milyon ton, qaz hasilatı isə 30 milyard kubmetr təşkil edib. Beləliklə, göründüyü kimi, tarix baxımından çox qısa zaman kəsiyində, 10 ildən az müddətdə Azərbaycan iqtisadiyyatın həcmini 3 dəfə artırmağa nail olaraq sosial-iqtisadi sahədə keçid dövrünü başa vurub və yeni inkişaf mərhələsinə qədəm qoyub. Odur ki, bu ilin yekunlarının təhlilinə keçməzdən əvvəl bir daha vurğulamaq yerinə düşərdi ki, başa çatmaqda olan 2012-ci il həm də Azərbaycanın yeni inkişaf mərhələsinin başlanğıcı kimi tarixə düşdü.

Bilirsiniz ki, Prezident İlham Əliyev 2011-ci il noyabrın 29-da "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının hazırlanması barədə Fərman imzaladı. Sənədin hazırlanmasına müvafiq dövlət orqanlarının, elmi təşkilatların yüksək ixtisaslı mütəxəssisləri cəlb olundu, bu sahədə qabaqcıl dünya təcrübəsindən yararlanmaq məqsədi ilə BMT-nin İnkişaf Proqramı və digər beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq həyata keçirildi, vətəndaş cəmiyyəti təsisatları layihənin açıq müzakirəsinə qoşuldu. Hazırda Konsepsiyanın üzərində aparılan iş tamamlanmaq üzrədir. Qarşıdan gələn dövrdə Azərbaycanın əsas hədəfləri bu Konsepsiya ilə müəyyən ediləcək və Prezident İlham Əliyevin "Rossiya-24" telekanalına verdiyi müsahibəsində qeyd etdiyi kimi, çoxşaxəli, səmərəli, rəqabətədavamlı milli iqtisadiyyatın formalaşdırılması, sosial-iqtisadi və mənəvi sahədə davamlı inkişafın təmin olunması, işsizliyin, yoxsulluğun tam ləğv edilməsi, əhalinin rifahının layiqli təminatı və s. məsələlər ölkə siyasətinin prioritet istiqamətləri olacaq.

***– Əli müəllim, dünya iqtisadiyyatını ağır sınaqlarla üzləşdirən, bir sıra ölkələrdə ciddi sosial gərginliyə səbəb olan iqtisadi böhran şəraitində Azərbaycanın dinamik sosial-iqtisadi inkişafı olduqca maraqlı fenomendir. Bu mənada 2012-ci ilin əsas sosial-iqtisadi yekunlarını necə qiymətləndirərdiniz?***

– Prezident İlham Əliyevin bununla bağlı fikrinə toxunduq. Cənab Prezident vurğulayır ki, Azərbaycanda yüksək texnologiyalara əsaslanan rəqabətədavamlı iqtisadi sistemin formalaşdırılması, qeyri-neft sektorunun inkişaf etdirilməsi, əhalinin rifahının yüksəldilməsi, yoxsulluğun və işsizliyin tam aradan qaldırılması ölkənin sosial-iqtisadi inkişaf strategiyasının başlıca hədəflərindəndir. Bu gün Azərbaycanın günbəgün müasirləşən siması, cəmiyyət həyatının bütün sahələrində müşahidə olunan yeniləşmə Prezident İlham Əliyevin rəhbərliyi ilə konkret dövlət proqramları əsasında həyata keçirilən sosial-iqtisadi siyasətin böyük uğurlarından xəbər verir.

Qeyd edilməlidir ki, iqtisadi böhran bir sıra inkişaf etmiş ölkələrin iqtisadiyyatını olduqca ağır duruma salıb. Bir neçə ildir ki, Avropa İttifaqı Yunanıstanı uçurumun kənarından uzaqlaşdıra bilmir. İtaliyanın dövlət borcu artıq 2 trilyon avronu ötür, Portuqaliya və İspaniya ciddi sınaqlarla üz-üzədirlər. Ekspertlərin, araşdırma mərkəzlərinin pessimizmi o həddə çatıb ki, artıq Avropa İttifaqının dağılması haqqında real proqnozlar səsləndirilir. Dünyanın aparıcı reytinq agentlikləri inkişaf etmiş Qərb ölkələrinin kredit reytinqlərini aşağı salırlar. Mütəxəssislərin fikrincə, böhran şəraitində qlobal güc mərkəzləri arasında yenidən tarazlaşma prosesi çox ağrılı gedir. Aparıcı ölkələrin irimiqyaslı iqtisadi stimul paketləri yalnız vəziyyətin kəskin pisləşməsinin qarşısını almağa yarayır. Bəzi ölkələrdə büdcə kəsiri ÜDM-in 10 faizi həddindədir, dövlət borcu isə onun 100 faizindən yuxarıdır. Hakimiyyət uğrunda siyasi mübarizəyə qoşulan qüvvələr ağlasığmaz vədlər verir, hakimiyyətə gəldikdən sonra o vədlərin heç olmasa bir qismini həyata keçirmək üçün böyük borclar götürür və nəticədə ölkə iqtisadiyyatını daha ağır duruma salaraq onu növbəti siyasi qüvvəyə ötürürlər. Yığılmış belə borcları azaltmaq üçün ən yaxşı halda 10 illərlə vaxt tələb olunur. Məcburi "kəmərsıxma" tədbirləri, maaşların, sosial müavinətlərin azaldılması, iş yerlərinin bağlanması kəskin sosial etirazlara gətirib çıxarır. Biz hər gün Avropa ölkələrində çoxsaylı etirazların, toqquşmaların şahidi oluruq.

Azərbaycanda isə hökm sürən sabitlik ölkədə uzun müddət həyata keçirilən düşünülmüş makroiqtisadi strategiya və siyasətə əsaslanır. Digər tərəfdən, böyük maliyyə ehtiyatlarına malik Azərbaycan qlobal riskləri qarşılamaq üçün kifayət qədər manevr imkanlarından yararlana bilir. Bu gün Azərbaycanın dövlət borcu ÜDM-in cəmi 8 faizini təşkil edir, valyuta ehtiyatlarımız isə xarici dövlət borcunu 10 dəfədən çox üstələyir.

2012-ci ilin statistikası göstərir ki, əvvəlki illərdə olduğu kimi, 2012-ci ildə də sosial-iqtisadi inkişaf dinamikası təmin edilib. Bu ilin hələ tam dəqiqləşdirilməmiş yekunlarına görə, ÜDM 1,2 faiz, qeyri-neft sektoru isə orta hesabla 10 faiz artıb. Ölkəmiz orta gəlirli dövlətlər qrupunda öz mövqeyini daha da möhkəmləndirib. Qeyri-neft sektorunda sənaye istehsalı 8 faizə yaxın, kənd təsərrüfatı isə 6,5 faiz yüksəlib.

2012-ci ildə ölkənin valyuta ehtiyatları 50 milyard dollara yaxınlaşıb. Strateji ehtiyatlar ÜDM-in 70 faizinə çatır ki, bu göstərici üzrə ölkə dünyada ən qabaqcıl yerlərdədir.

Bu ilin ortalarında dünyanın ən mötəbər iqtisadi qurumlarından biri olan Davos İqtisadi Forumu ölkələrin rəqabət qabiliyyətliliyi ilə bağlı yeni cədvəl dərc etdi və Azərbaycan o siyahıda MDB məkanında 1-ci, dünyada isə 46-cı yeri tutdu. Makroiqtisadi sabitliyə görə Azərbaycan dünya miqyasında 18-ci yerdədir.

"Fitch", "Standard & Poor's", "Moody's" kimi aparıcı beynəlxalq reytinq agentlikləri davamlı şəkildə Azərbaycanın kredit reytinqini artırırlar. Sevindirici haldır ki, Azərbaycan artıq ən yüksək A zonasına çox yaxınlaşıb.

Sabit makroiqtisadi göstəricilər və böyük maliyyə imkanları Azərbaycanda uğurlu sosial-mənəvi siyasət həyata keçirmək üçün geniş imkanlar yaradır. 2012-ci ilin 11 ayında əhalinin pul gəlirlərinin 12.2 faiz artması müqabilində inflyasiya cəmi 1,2 faiz təşkil edib ki, bu da inflyasiya ilə əhalinin pul gəlirləri arasında 10 faiz fərq olduğunu göstərir. Azərbaycan bu göstəricilərə görə də dünya miqyasında ən qabaqcıl yerlərdədir. Hazırda Azərbaycanda orta maaş 500 dollara, orta pensiya 200 dollara bərabərdir. Ölkədə pensiyalar əmək haqlarının 40 faizini təşkil edir. Bu, Avropanın inkişaf etmiş ölkələrinin meyarları səviyyəsindədir.

Cari ildə SSRİ dövründən qalmış əmanətlərin qaytarılmasına başlanılıb. Qeyd edilməlidir ki, bütün MDB məkanında ən qısa müddət ərzində və ən yüksək əmsalla bu vəsait məhz Azərbaycanda verilir.

Dünya Bankının məlumatında bildirilir ki, milli gəlirin ədalətli bölgüsünə görə Azərbaycan 110 inkişaf edən ölkəni geridə qoyur. Yəni, ölkədə geniş əhali kütləsi davamlı inkişafdan yararlanır. Eyni zamanda, Azərbaycan dünyanın 153 ölkəsi arasında ən aşağı yoxsulluq səviyyəsinə malik 20 ölkədən biridir. Son statistik məlumatlara görə, ölkədə yoxsulluğun səviyyəsi 6 faizə eniib.

Cari ildə təkcə regionlarda 300-ə yaxın yeni müəssisə yaradılıb, daha 500-ə yaxın müəssisə isə yaradılmaqdadır. Bu ilin 9 ayı ərzində 94 min yeni iş yeri açılıb və onun 73 mini daimidir. Ölkədə işsizliyin səviyyəsi daha da aşağı enərək 5.2 faizə düşüb və nəticə etibarilə, əhalinin məşğulluğu artıq 95 faiz təşkil edir.

Ölkəmizdə icra olunan ünvanlı sosial yardım proqramı hazırda 127 minə yaxın ailəni əhatə edir. Hər ailəyə ayda orta hesabla 112 manat vəsait ödənilir.

İl ərzində 200-ə yaxın məktəb və əlavə korpuslar tikilib, 100-dən çox məktəb əsaslı təmir edilib. Azərbaycan Prezidentinin tapşırığına əsasən, uşaq bağçaları əsaslı təmir olunur, əlavə korpuslar tikilir. Bütün ölkə üzrə müasir tibb müəssisələrinin tikintisi, mövcud texniki bazanın yenilənməsi prosesi davam edir.

Azərbaycan dünyada nadir ölkələrdəndir ki, son illər baş verən təbii fəlakətlərin fəsadlarını öz qüvvəsi ilə yüksək səviyyədə aradan qaldırmağa nail olur. Bu il ölkənin qərb bölgəsində baş



vermiş zəlzələ nəticəsində minlərlə ev, kommunal təsərrüfat, sosial obyekt dağıldı və ya qəzalı vəziyyətə düşdü. Prezident İlham Əliyev fəlakət zonasına səfər etdi, onun nəticələri ilə yerində tanış oldu, problemlərin aradan qaldırılması ilə bağlı müvafiq tapşırıqlar verdi. Bu məqsədlər üçün həm Prezidentin Ehtiyat Fondundan, həm də dövlət büdcəsindən 300 milyon manatdan çox vəsait ayrıldı və qısa müddətdə vacib məsələlərin həllinə yönəldildi.

"2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı" uğurla icra edilir. Bakı qəsəbələrinin bütün problemləri həll olunur, kommunal layihələr icra edilir, nəqliyyat infrastrukturu yenilənir, sosial obyektlərin tikintisi, iş yerlərinin yaradılması prosesi gedir. Gələn ilin sonuna qədər Bakı və onun qəsəbələrinin inkişafı proqramının tam yekunlaşdırılması nəzərdə tutulur.

Ölkədə sosial-iqtisadi sahədə həyata keçirilən tədbirlərin miqyası həqiqətən də nəhəngdir. "Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası nəticəsində bölgələrin siması dəyişir, sənaye mərkəzləri, texnoparklar yaradılır, müasir standartlara uyğun yüzlərlə emal, istehsal, sosial obyekt tikilib istifadəyə verilir, insanların yaşayış səviyyəsi yüksəlir. Bütün ölkəni əhatə edən yol-nəqliyyat, içməli su, suvarma-meliorasiya layihələri başa çatdırıldıqdan sonra Azərbaycan həqiqətən də müasir Avropa standartlarına uyğun infrastruktura malik ölkəyə çevriləcək.

Son illər Azərbaycanın müdafiə potensialının gücləndirilməsi, Milli Ordunun müasir texnika və sursatla təchizatı sahəsində həyata keçirilən tədbirlər bu il də davam etdirilib. Son 5 ildə Müdafiə Sənayesi Nazirliyinin birlik və müəssisələrində 40-dan çox yeni istehsalat sahəsi yaradılıb, müdafiə təyinatlı məmulatların çeşidi 700-ə çatdırılıb. Cari ildə 437 adda müdafiə təyinatlı məmulatın istehsalı üzrə müqavilələr bağlanıb.

Bir məsələni də xüsusi vurğulamaq lazımdır ki, bu gün həyata keçirilən nəhəng layihələr yaxın gələcəkdə ölkəmizin tranzit imkanlarını artıracaq və yeni gəlir mənbələri yaradacaq. Bakı-Tbilisi-Qars dəmir yolu, yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Heydər Əliyev Beynəlxalq Aeroportunda yeni aerovağzal kompleksi tikilib istifadəyə verildikdən, habelə bir çox istiqamətlərdə ölkə və yerli əhəmiyyətli avtomobil yollarının yenidən qurulması və əsaslı təmiri başa çatdırıldıqdan sonra ölkəmiz Şərq-Qərb tranzit mərkəzi statusunu daha da möhkəmləndirəcək.

***– Bu il neft hasilatı sahəsində müəyyən problemlər müşahidə olundu. Görülən tədbirlər bu sahədə sabitləşmənin təmin edilməsindən xəbər verirmi?***

– Qeyri-neft sektorunun dinamik inkişafına baxmayaraq, enerji sektoru Azərbaycan iqtisadiyyatının aparıcı seqmenti olaraq qalır. Bu gün əldə etdiyimiz uğurların əsasında Heydər Əliyevin neft strategiyasının uğurla reallaşdırılması amili durur. Buna görə də son bir neçə ildə "Azəri"-"Çıraq"-"Günəşli" (AÇG) yataqlarında hasilatın gözlənilmədən aşağı düşməsi cənab Prezidenti narahat etməyə bilməzdi.

Hasilatın aşağı düşməsinə dair bir neçə versiya irəli sürüldü. Qeyd edildi ki, Meksika körfəzində ağır qəzadan sonra külli miqdarda ziyana düşən bp şirkəti digər layihələrində, o cümlədən Xəzər dənizinin Azərbaycan sektorunda hasilatda risklərin idarə olunmasından imtina edib. Digər səbəb kimi bildirildi ki, AÇG layihəsi üzrə pay bölgüsünün nisbəti nəzərdə tutulan qrafikdən xeyli əvvəl Azərbaycanın xeyrinə dəyişəndən sonra əsaslı səbəb olmadan AÇG-də hasilatın səviyyəsi aşağı düşməyə başladı. Nəticədə dünya bazarında olan qiymətlərlə Azərbaycan 8,1 milyard dollar itirdi.

Başqa versiyalar da səslənirdi. Lakin istənilən halda mövcud vəziyyət Azərbaycanı qane edə bilməzdi və buna görə də Prezident İlham Əliyev sərt şəkildə BP-dən öz öhdəliklərini yerinə yetirməyi, hasilatın aşağı düşməsində günahkar olan şəxslərin əvəz edilməsini və hasilatın stabilliyini təmin etmək üçün müvafiq tədbirlər görməyi tələb etdi. Nəticədə "BP-Azərbaycan" şirkətinin rəhbərliyi dəyişdirildi. Bu günlərdə Bakıya səfər edən bp-nin icraçı direktoru Robert Dadli ilə görüşdən sonra Prezident İlham Əliyev BP-nin öz öhdəliklərini dərk etdiyini və gələn ildən sabitləşmənin təmin olunacağını bəyan etdi.

Hazırda ölkənin enerji strategiyasının başlıca məqsədi neft hasilatını sabit saxlamaqla Azərbaycanın böyük qazını dünya bazarına çıxarmaqdır. Bu yaxınlarda hər biri 300 milyard kubmetr qaz ehtiyatına malik olan "Ümid" və "Abşeron" yataqlarının aşkar edilməsi nəticəsində Azərbaycanın təsdiq olunmuş qaz ehtiyatlarının həcmi 2.6 trilyon kubmetrə yüksəldi. Mütəxəssislərin fikrincə, Azərbaycanın ümumi qaz potensialı 6 trilyon kubmetr həcmində qiymətləndirilir. Neft ehtiyatları ilə birlikdə (təsdiqlənən və güman edilən) Azərbaycanın ümumi ehtiyatlarının həcmi 10 milyard ton şərti yanacaqla qiymətləndirilir. Hesab edilir ki, 2025-ci ilə Azərbaycanın qaz ixracı 40-50 milyard kubmetrə çatacaq və onun böyük hissəsi Avropaya və Türkiyəyə nəql ediləcəkdir. Dünyada 2012-ci ilin ən əsas enerji ixracı layihələrindən biri kimi dəyərləndirilən transmilli TANAP qaz ixracı kəmərinin işə salınması nəticəsində Azərbaycan gələcəkdə öz təbii qazı ilə Avropanın enerji bazarında birbaşa iştirakını əsaslı şəkildə təmin edəcək.

***– 2012-ci ilin yekunları barədə danışarkən, ilk növbədə, "Eurovision-2012" musiqi yarışması başda olmaqla, Azərbaycanın çoxsaylı dünya və beynəlxalq səviyyəli tədbirlərə ev sahibliyi etməsi yada düşür. Amma o da faktdır ki, bir sıra daxili və xarici qüvvələr bu tədbirləri Azərbaycana qarşı kampaniya təşkil etmək üçün əlverişli fürsət kimi qiymətləndirdilər. Bu tədbirlərin Azərbaycan üçün əhəmiyyəti və ölkəmizə qarşı həyata keçirilən kampaniyaların səbəbləri barədə nə deyə bilərsiniz?***

– 2012-ci il həqiqətən də Azərbaycanın müstəqillik tarixində böyük uğurlar, möhtəşəm qələbələr, sürətli inkişaf və tərəqqi ili kimi yadda qalacaqdır. Azərbaycan tarix boyu heç vaxt siyasi, iqtisadi, mədəni, idman və digər sahələrdə bu qədər nüfuzlu beynəlxalq tədbirlərə ev sahibliyi etməmişdi. Əlbəttə, Avropanın bir nömrəli musiqi yarışması olan "Eurovision" müsabiqəsini qazanmaq musiqi sahəsində böyük nailiyyət olduğu kimi, onu uğurla keçirmək də böyük təşkilatçılıq bacarığı və beynəlxalq məsuliyyət tələb edirdi. Buna görə də Azərbaycan Prezidentinin Sərəncamı ilə Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı hörmətli Mehriban xanım Əliyevanın sədrliyi ilə müvafiq komissiya yaradıldı. Komissiya qısa zamanda müsabiqənin keçirilməsi ilə bağlı bütün texniki və təşkilati məsələləri həll etdi, müsabiqənin keçirildiyi məkan – "Cristall Hall" tikilib istifadəyə verildi. Bununla Azərbaycan dövləti sübut etdi ki, həm onun gücü və imkanları yetərincədir, həm də qətiyyət, istək, imkan olan yerdə hər şeyə nail olmaq mümkündür.

"Eurovision" bizim üçün Azərbaycan xalqının mədəniyyətini, adət-ənənələrini, insan potensialını, müstəqillik illərində qazandığı uğurları və s. dünyaya təqdim etmək üçün böyük fürsət idi. Yerli və xarici KİV-lərdə gedən materiallar, çoxsaylı təhlillər və rəylər təsdiq etdi ki, Azərbaycana gələn xaricilər xalqımızın qonaqpərvərliyini, Bakının gözəlliyini, zəngin tarixini və müasir inkişafını xüsusi razılıqla qarşılayaraq, qısa dövr ərzində ölkəmizin əldə etdiyi uğurlara heyran olublar. Bütün dünya mediası tədbirin yüksək səviyyədə təşkil olunduğunu xüsusi vurğuladı.

Ancaq çox təəssüf ki, bəzi xarici dairələr, dağıdıcı müxalifət və bir sıra yerli antimilli QHT-lər sinxron şəkildə "Eurovision-2012" və digər tədbirləri hədəf götürərək, heç bir əsası olmayan böhtanlarla, adi məsələlər ətrafında süni ajiotaj yaratmaqla bu tədbiri siyasiləşdirməyə, beynəlxalq ictimaiyyətin diqqətini başqa istiqamətlərə yönəltməyə çalışdılar. Vətəndaşların mülkiyyət hüququnun, ifadə azadlığının guya pozulması ilə bağlı təşkil olunmuş bədnam kampaniyaların əsas məqsədi də Azərbaycanı bir ölkə kimi gözdən salmaq, beynəlxalq ictimaiyyətdə ölkəmizə qarşı mənfi rəy formalaşdırmaqdan ibarət idi. Bilirsiniz ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə Bakı şəhərinin baş planına uyğun olaraq daxili infrastrukturların yenidən qurulması, şəhərin əvvəlki illərdə pozulmuş ahənginin bərpası, vətəndaşların və sakinlərin rahat nəqliyyat hərəkətinin və istirahətinin təşkili üçün tədbirlər görülür. Əlbəttə, bu işdə bəzi ailələrin başqa yerə köçürülməsindən qaçmaq qeyri-mümkündür. Lakin köçürülməyə məruz qalan insanların hüquqları tam təmin olunur, onlara daha münasib alternativlər, yaxud müvafiq ödəmələr təklif edilir və həmin insanlar da bunu razılıqla qarşılayırlar. Təbii ki, köçürülənlərdən bəziləri ənənəvi yaşayış yerini tərk etmək istəmədiyi üçün narazı qalır. Ancaq necə olur ki, minlərlə köçürülən insanın içərisindən bir neçə narazını təkrar-təkrar Qərb mətbuatının səhifələrinə çıxarırlar, onların qərəzli müsahibələrini dərc edirlər, lakin on minlərlə razı sakindən bir nəfərin də fikrini vermirlər? Məgər Londonda keçirilmiş Olimpiada zamanı köçürülənlər, onların arasında narazılar olmadı? Ancaq bu barədə bir kəlmə də yazmadılar.

Yaxud xarici jurnalistləri xüsusi qaydada şəhərin kənarına apararaq hansısa "çatışmazlıqları" göstərmək hansı "azərbaycansevərlik" əlaməti idi?! Bəzi dağıdıcı müxalifət partiyalarının funksionerləri həmin günlər xarici jurnalistlər qarşısında qəsdən özlərini yerə yıxaraq, üst-başlarını cırır, xarici kameralara pozalar nümayiş etdirirdilər. Bütün bunlar hansı əxlaqi normaya sığırdı? Təəssüf ki, bütün bunlar da bir sıra dağıdıcı müxalifət dəstələrinin, bəzi QHT rəhbərlərinin qrant naminə 2012-ci ildə nümayiş etdirdiyi real antimilli fəaliyyət nümunələri idi.

***– Əli müəllim, bəzi xarici təşkilatlar, yerli QHT-lər Azərbaycanda insan haqlarının, sərbəst toplaşmaq, söz və məlumat azadlığının vəziyyətini tənqid edirlər. Onların iddiaları nə dərəcədə əsaslıdır?***

– Bilirsiniz, demokratiya fundamental dəyərlər sistemi kimi müasir Azərbaycanda dövlət idarəçiliyinin, ictimai həyat normalarının və vətəndaş cəmiyyətinin əsas prinsiplərinə çevrilib. Müstəqillik əldə etdikdən sonra Azərbaycanın Konstitusiyası və digər qanunvericilik aktları demokratik dəyərlərə və Avropa standartlarına uyğunlaşdırılıb. Ölkədə insan hüquq və azadlıqları, söz və məlumat, ifadə azadlığı, təmin olunub, mətbuatın və vətəndaş cəmiyyəti institutlarının inkişafına dövlət səviyyəsində dəstək göstərilir, onlar cəmiyyətin aktual məsələlərinin həllinə cəlb olunurlar. Bu məqsədlə Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılmış Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası və Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu vasitəsilə hər il QHT və KİV-lərin müxtəlif layihələrinin maliyyələşdirilməsinə on milyonlarla manat vəsait xərclənir. Gələn ildən siyasi partiyaların dövlət büdcəsindən maliyyələşdirilməsinə başlanacaq. Bu gün Azərbaycanda 55 siyasi partiya, 2700-dən çox QHT qeydiyyatdadır, 4800-ə yaxın KİV uçota götürülüb və ya qeydə alınıb. Yüzlərlə qəzet, jurnal, internet media, elektron KİV, mətbuat yayımı firması fəaliyyət göstərir. Azərbaycanda internet, media və informasiya fəaliyyəti tam azaddır, jurnalistlər sərbəst şəkildə məlumat əldə etmək və yaymaq imkanına malikdirlər. Bu məqsədlə dövlət orqanlarının informasiyanın verilməsinə məsul struktur bölmələrinin fəaliyyəti daim təkmilləşdirilir, media ilə dövlət orqanları arasında əlaqələr genişləndirilir. Prezident İlham Əliyevin bu ilin sentyabrında təsdiqlədiyi "Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı" cəmiyyətin dövlət orqanlarının fəaliyyəti haqqında informasiya əldə etmək imkanlarının maksimum asanlaşdırılması, dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılması, hesabatlılığın təmin edilməsi, ictimaiyyətin iştirakının genişləndirilməsini təmin etmək məqsədi daşıyır.

Eyni zamanda, bu məqsədlə müvafiq seminarlar, treninqlər təşkil olunur, qabaqcıl xarici təcrübələrin öyrənilməsi və ölkəmizdə tətbiqi siyasəti həyata keçirilir. Məsələn, bu ilin noyabrında ATƏT-in Media ofisi və Azərbaycan Mətbuat Şurasının təşkilatçılığı ilə "Kütləvi tədbirlərdə jurnalist təhlükəsizliyi" və "Dövlət orqanlarının malik olduğu informasiyaya medianın çıxışı" mövzularında iki seminar keçirildi. Bundan əvvəl, iyunun 30-da KİV və mətbuat yayımı firmalarının rəhbərləri, iyulun 2-də də QHT rəhbərləri ilə hakimiyyətin iki böyük görüşü təşkil olundu, bu sahələrdə mövcud çatışmazlıqlar, problemlər müzakirə edildi, irəli sürülən təkliflər öyrənildi, təhlil olundu və sistemləşdirilərək həlli məqsədilə aidiyyəti orqanlara göndərildi. Qeyd etmək istərdim ki, belə görüşlər bundan sonra da sistemli xarakter daşıyacaq və gələn il də QHT və KİV rəhbərləri ilə görüşlərin keçirilməsi nəzərdə tutulur. Bundan əlavə, Azərbaycan dünyada nadir ölkələrdəndir ki, dövlət vəsaiti hesabına jurnalistlərin sosial müdafiəsini gücləndirmək, onların mənzil-məişət şəraitini yaxşılaşdırmaq üçün tədbirlər görülür.

Dövlətin vətəndaş cəmiyyəti institutlarının, medianın inkişafına bu qədər diqqət və qayğısı olan bir ölkədə mətbuatın, demokratik azadlıqların, insan haqlarının məhdudlaşdırıldığını iddia etmək heç kimə baş ucalığı gətirməz və gətirmir də. Hesab edirəm ki, insan hüquq və azadlıqları mövzusu müəyyən xarici antiazərbaycan dairələrin ölkə daxilindəki bəzi antimilli qruplarla birgə Azərbaycana qarşı təzyiq məqsədilə reallaşdırdığı kampaniyadır. Bu kampaniyanın sifarişçiləri, icraçıları və əsas aktorları artıq cəmiyyətə məlumdur. Azərbaycan cəmiyyəti belə yalançı və subyektiv hüquq müdafiəçilərinə inanmır və onları dəstəkləmir. Bildiyiniz kimi, bu il noyabrın 6-9-u Bakıda BMT-nin təşkilatçılığı ilə 7-ci Dünya İnternet İdarəçilik Forumu (İCF) keçirildi. Bu mühüm tədbirin Azərbaycanda təşkil olunması heç də təsadüfi xarakter daşımırdı. Çünki son illər bizim ölkədə informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı internetin imkanlarının genişlənməsinə şərait yaradıb və ölkədə müasir internet şəbəkəsi formalaşıb. Hazırda ölkə üzrə internet istifadəçilərinin sayı əhalinin 70 faizini təşkil edir. Azərbaycanda hər yüz nəfərə 20-dən artıq müasir kompyuter düşür. İnternet xidmətlərindən istifadə haqları son 3 ildə 10 dəfədən çox azalıb və region ölkələrindəki tariflərdən aşağı salınıb. Bu gün 9 milyon əhalisi olan ölkədə bir milyona yaxın Facebook istifadəçisi, minlərlə bloqqer fəaliyyət göstərir. Gələn ilin əvvəlində Azərbaycan özünün süni peykini kosmosa çıxarmağa hazırlaşır.

Hazırda ölkə səviyyəsində provayder xidmətləri və internet vasitələri, informasiya və media strukturları çox sürətlə inkişaf edir. Respublikada artıq aktiv, online rejimdə fəaliyyət göstərən, yüksək oxucu auditoriyası olan xəbər saytlarının, internet portallarının sayı yüzlərlə ölçülür. Məhz bu reallıqlar da 2012-ci ildə İCF-in Azərbaycanda keçirilməsini şərtləndirdi. Lakin bu ilin ortalarında bəlli dairələr fəallaşaraq dərhal ortaya "Online ifadə təşəbbüsü" adlı yeni bir bədnam kampaniya atdı. Onlar həm İCF ərəfəsində, həm də tədbir dövründə bütün gücləri ilə çalışdılar ki, Azərbaycanda internetin azad olmadığını göstərsinlər. Əlbəttə, "Eurovision" ərəfəsindəki kampaniya kimi, bu da Azərbaycanı qaralamaq üçün uğursuz bir cəhd idi və təbii ki, məqsədinə nail olmadı. Çünki hamıya məlumdur ki, Azərbaycanda internet tam azaddır, bu reallıq beynəlxalq səviyyədə qəbul olunur və təqdir edilir. Hesab edirəm ki, bu reallıqla yanaşı, BMT Baş katibinin müavini Vu Hongbonun Prezident İlham Əliyevə minnətdarlıq məktubunda Bakıda İCF-in uğurla keçirilməsi, Azərbaycanda İKT-nin və internetin inkişafı sahəsində əldə edilmiş nailiyyətlər, hökumətin internetdə ifadə azadlığını prioritetlərindən birinə çevirməsi və s. çoxsaylı müsbət fikirlərin əks olunması Azərbaycana qarşı müxtəlif əsassız iddialarla çıxış edənlərə layiqli cavabdır.

**(Ardı sabahkı sayımızda)**

# “Əfv fərmanı humanizm nümunəsidir”

QHT Əməkdaşlıq Alyansı Prezident İlham Əliyevin dekabrın 26-da imzaladığı əfv sərəncamı ilə bağlı açıqlama yayıb.

Alyansdan “525”ə verilən məlumata görə, ölkə prezidentinin imzaladağı əfv sərəncamı təqdir olunaraq, bunun cəmiyyətdə müsbət qarşılandığı qeyd edilib: “Sərəncama uyğun olaraq, bu gün səhər saatlarından əfvə düşən 87 nəfər məhkumun cəzaçəkmə müəssisələrindən buraxılması cəmiyyətdə çox müsbət qarşılanır. Prezident İlham Əliyevin imzaladığı əfv sərəncamı ilə bir sıra tanınmış şəxslərin, o cümlədən jurnalistlərin, hüquq müdafiəçilərinin, siyasətlə məşğul olanların azadlığa buraxılması humanizm nümunəsidir və vətəndaş həmrəyliyinə doğru atılmış addımdır”.

Bütöv Azərbaycan Xalq Cəhbəsi Partiyasının sədr müavini Elçin Mirzəbəyli Azərbaycan prezidentinin imzaladığı sərəncam humanist addım olduğunu bildirib. O, hesab edir ki, İ.Əliyevin belə sərəncamlar imzalaması Azərbaycan dövlətinin humanizm prinsiplərinə sayqı ilə yanaşdığının göstəricisidir. E.Mirzəbəyli daha sonra bunları söyləyib: “Azərbaycan hakimiyyəti siyasətini hər hansı bir qüvvəyə görə müəyyənləşdirmir. Əfv fərmanı ilə bağlı Azərbaycan Respublikasının Prezidenti yanında Əfv Məsələləri Komissiyası yaradılıb. Komissiya müəyyən dövr ərzində sənədləri hazırlayır. Bu sənədlər də Prezidentə təqdim olunur və bunun əsasında müvafiq sərəncam imzalanır. İnsan hüquqları təşkilatlarının, xüsusən də Azərbaycan Ombudsmanının, ölkəmizdəki hüquq müdafiəçilərinin rəyləri də əfv sərəncamlarında nəzərə alınır. Ümumiyyətlə, Prezident İlham Əliyev ilk dəfə deyil belə humanist addımlar atır”.

Yeni Azərbaycan Partiyasının Nizami rayon təşkilatının sədri, millət vəkili Sədaqət Vəliyeva əfv sərəncamının böyük sosial mahiyyət kəsb etdiyini deyib. Əfv sərəncamının böyük sevinclə qarşılandığını qeyd edən S.Vəliyeva bu humanist addımıın bir çox ailələrə xoşbəxtlik bəxş etdiyini söyləyib: “Prezident İlham Əliyevin əfv sərəncamı böyük sosial mahiyyət kəsb edir. Bu sərəncamı məhkumluq həyatı yaşamış insanların cəmiyyətə qaytarılması və onların yenidən qəbulu üçün bir şansdır. Sosial mahiyyəti etibarilə böyük önəm kəsb edən bu əfv Sərəncamı insanların cinayətdən uzaqlaşması və sosiumun inkişafı naminə enerjisini yenidən səfərbər etməsinə təkan verəcək. Əminik ki, Prezident İlham Əliyevin bu humanist addımı layiqincə qiymətləndiriləcək və bu əfv sərəncamı əsasında azadlığına qovuşmuş insanlar cəmiyyətin etimadını doğruldacaqlar”.

YAP Qaradağ rayon təşkilatının sədri, partiyanın Siyasi Şurasının üzvü Aydın Hüseynovun sözlərinə görə, İ.Əliyevin humanist addımı bir daha onun hər bir azərbaycanlının prezidenti olmasını isbatlayır. Azərbaycanda humanist addımlar ulu öndər Heydər Əliyevin hakimiyyətə gələn dövrdən atılır. 1993-cü ildən başlayaraq, ölkədə kriminogen vəziyyətin stabilləşməsi, cinayət hadisələrinin azalması birbaşa olaraq, ümummilli lider Heydər Əliyevin fəaliyyətinin nəticəsi idi. Ulu öndər Heydər Əliyev cəmiyyət daxilində konsolidasiya yaratmaqla, reinteqrasiya proseslərinə ciddi təkan verirdi. Bunun nəticəsi idi ki, ümummilli lider sosiumda etimadı formalaşdırmaq üçün ölüm hökmünü də ləğv etdirdi”.

**AQİL**

# Millət vəkili “Müsavat”ın qərarını İctimai Palatanın iflası kimi dəyərləndirdi

***KAMİLƏ ƏLİYEVA:*** “RADİKAL CİNAHI TƏMSİL EDƏNLƏR ÖZ AMBİSİYALARINI HƏR ŞEYDƏN ÜSTÜN TUTUBLAR”



“Müsavat Partiyası Divanı tərəfindən İsa Qəmbərin qarşıdan gələn 2013-cü il prezident seçkiləri ilə bağlı namizədliyinin irəli sürülməsi bir daha onu göstərdi ki, radikal müxalifətin vahid namizəd axtarışı, birlik çağırışları nağıldan, gerçəkləşməsi mümkün olmayan xəyallardan başqa bir şey deyilmiş.Bu, həm də onun sübutu və təsdiqidi ki, radikal cinahı təmsil edənlər hər zaman öz fəaliyyətlərində və addımlarında qeyri-səmimi olublar, öz şəxsi maraqlarını, iddialarını və ambisiyalarını hər şeydən üstün tutublar, onlar üçün heç bir yüksək dəyərlər yoxdur”. Bunu 52-5.az-a açıqlamasında hakim Yeni Azərbaycan Partiyasından (YAP) olan millət vəkili, BDU-nun professoru Kamilə Əliyeva dilə gətirib. Millət vəkilinin qeyd etdiyinə görə, “Müsavat”ın İ.Qəmbərin namizədliyi ilə bağlı tələm-tələsik qərarı həmin partiyanın özünün təmsil olunduğu və cəmiyyətdə daha çox ictimaiyyətsiz İctimai Palata olaraq qəbul edilən bir qurumun da digər əvvəlki birliklər kimi iflasla nəticələnməsinin göstəricisidir.

K.Əliyeva xatırladıb ki, vaxtilə də ciddi dayaqlara və geniş sosial bazaya malik olmayan müxalifətin birləşdiyi bir sıra qurumlar-SİDSUH, Demkonqres, Birləşmiş Müxalifət Hərəkatı, “Azadlıq” bloku və sair təşkilatlar məhz burada cəmləşən və iddiaları yerə-göyə sığmayan ambisiyalı siyasi liderlərin, partiya sədrlərinin hikkəsi ucbatından uğursuzluqla, nəticəsizliklə sonuclanmışdı:

“Biz əvvəldən də belə bir qurumun perspektivsiz olduğunu, onun da tezliklə tarixin arxivinə yuvarlanacağını bildirmişdik. İndi “Müsavat”ın öz “müttəfiq”lərinin mövqeyini nəzərə almadan belə bir qəbul etməsi də bizim dediklərimizin təsdiqidir, bu qurumun da artıq iflasa uğradığı göz qabağındadır. Eyni zamanda, biz deyəndə ki, müxalifətin vahid namizəd axtarışları qeyri-ciddi məsələdir, bu məsələ alınmayacaq, əks-cinahdan buna arqumentli cavablar vermək əvəzinə, bizə qarşı aşağılayıcı tərzdə ittihamlar yağdırılırdı. Sanki bu məsələnin alınmamasında iqtidar günahlandırılmağa çalışılırdı. Ancaq həyat bizim nə qədər düzgün və əsaslı olduğumuzu təsdiqlədi, müxalifətin növbəti dəfə ambisiyaları onun vahid namizədlə çıxış etməsini mümkünsüz etdi”. Bununla yanaşı, millət vəkilinin bildirdiyinə görə, müxalifətin hətta, vahid namizəd müəyyənləşdirməsi belə, siyasi həyatda və siyasi proseslərdə heç nəyi dəyişə bilməz, dəyişməyəcək:

“Onlar istəyirlər yenidən birləşsinlər, istəyirlər birləşməsinlər və ya istəyirlər kimisə öz aralarından vahid namizəd seçsinlər, yaxud seçməsinlər, bunun bizim üçün önəmi və əhəmiyyəti yoxdur. Müxalifət onsuz da həddindən artıq zəifdir və onun proseslərə təsir imkanları sıfır dərəcəsindədir.

Azərbaycan xalqı dəfələrlə yağlı vədlər verib sonda onu aldadan, yarı yolda qoyan müxalifətdən birdəfəlik əlini üzüb. Azərbaycan xalqı müxalifəti dəstəkləmir və müdafiə etmir. Azərbaycan xalqının, seçicilərin mütləq əksəriyyətinin dəstəklədiyi yeganə siyasi lider və prezidentliyə namizəd var ki, o da ölkə Prezidenti cənab İlham Əliyevdir...”

**KAMİL**

# Mübariz Qurbanlı müxalifət liderlərini istefaya çağırdı



“Bizim-hakim partiya üçün siyasi müstəvidə istənilən namizəd siyasi rəqibdir.Biz istənilən namizədi özümüz üçün siyasi rəqib sayırıq”. Bu fikirləri 525.az-a açıqlamasında hakim Yeni Azərbaycan Partiyasından (YAP) olan millət vəkili, sözügedən partiyanın icra katibinin müavini Mübariz Qurbanlı İsa Qəmbərin Müsavat Partiyası tərəfindən prezidentliyə namizədliyinin irəli sürülməsindən sonra bu təşkilatla AXCP arasında qarşılıqlı ittihamların yenidən alovlanmasına, Əli Kərimli tərəfdarlarının İsa Qəmbər və Hacılı qardaşlarını hakimiyyətə satqınçılıqda, Arif Hacılının isə AXCP sədrini qəvi düşmənçilikdə suçlamasına münasibətini bildirərkən dilə gətirib. YAP rəsmisinin dediyinə görə, bununla belə, hakim partiya qarşıdan gələn 2013-cü il prezident seçkiləri ilə bağlı namizədinin geniş əhali təbəqəsi tərəfindən dəstəklənməsi və qələbə əldə etməsi üçün öz təbliğat – təşviqat işlərini aparacaq: “Eyni zamanda, biz namizədimizin qələbəsi üçün bütün digər lazımi işləri aparacağıq və yenidən onun qələbə əldə etməsinə nail olacağıq”.

Müxalifətdən İ. Qəmbərin, yoxsa Ə. Kərimlinin vahid namizəd olacağına gəlincə, M.Qurbanlı bildirib ki, gələcəkdə namizəd “Müsavat” başqanıdır, yaxud AXCP sədridir, fərq etməz və etməyəcək, onların elektoratı eynidir, dəyişməyəcək:

“İkisi seçkiyə ayrılıqda getsə, onsuz da dar olan elektoratları bir daha parçalanmış olacaq, biri getsə, yenə də ciddi uğur qazana bilməyəcək. Onların cəmiyyət arasında ciddi sosial bazası, dayaqları, nüfuzları yoxdur, həmin şəxslər seçkilərdə cəmi 1-2 i faizə səsə iddia edə bilər, yəni həmin şəxslərin bir yerdə bundan artıq səs qazanmaları mümkün deyil”.

YAP rəsmisi cəmiyyətin, seçicilərin həmin qüvvələrdən üz döndərməsinin səbəbi kimi isə onların radikalizm mövqeyində dayanmasını göstərib:

“Cəmiyyət artıq radikalizmi qəbul etmir, ona birmənalı “yox” deyir. Eyni zamanda, cəmiyyət çoxdan radikalizmi tarixin arxivinə göndərib. Cəmiyyət radikalları yox, konstruktiv, Azərbaycan dövlətçiliyini öz fəaliyyətlərində önə çəkən müxalifəti qəbul edir. Fikir versəniz görərsiniz ki, seçkilərdə də konstruktivlər radikallardan daha çox səs toplayırlar”.

Millət vəkili həmçinin deyib ki, radikallar, xüsusilə, AXCP və “Müsavat” üzvləri arasında qarşılıqlı ittihamlar məsələsi də yeni məsələ deyil:

“Bunlar arasında qarşılıqlı ittihamlar, təhqirlər zaman-zaman olub, indi də var və bu gedişlə bundan sonra da olacaq. Ancaq ən yaxşı yol bu olardı ki, bu düşərgənin liderləri, o cümlədən, İsa Qəmbərlə Əli Kərimli siyasətdən çəkilib, öz uğursuzluqlarını etiraf edəydilər...Bununla belə, onların bir-birinə qarşı hansı ittihamlarla çıxış etməsi də bizi maraqlandırmır. Bu, bizə aid məsələ deyil və bayaq dediyim ki, siyasi müstəvidə istənilən namizəd bizim üçün rəqibdir...”

**VAHAB**

# "Qarabağ düyünü"

Bu günlərdə millət vəkili Aydın Mirzəzadənin “Qarabağ düyünü” kitabı nəşr edilib. Nəfis şəkildə tərtib edilən kitabda Qarabağ probleminin başlama səbəblərindən tutmuş bu günə kimi baş verən bütün olaylara incəliyinə qədər nüfuz edilərək, cərəyan edən hər bir proses barəsində tutarlı məlumatlar öz əksini tapıb.

Həqiqətən də XI fəsildən ibarət olan kitabda müəllif Ermənistanın Azərbaycan torpaqlarının işğalı nəticəsində yaranan Qarabağ problemi ilə bağlı heç bir detalı kənarda qoymayıb və hər bir məsələni incəliyinə kimi araşdırıb.

Kitabda ilk olaraq Dağlıq Qarabağ bölgəsinin tarixinə nəzər yetirilib. Müəllif bu ərazilərin tarixinə dair xırda bir məqamı da diqqətdən kənar qoymadan araşdırıb, Dağlıq Qarabağın Azərbaycanın tarixi vilayətlərindən, onun ayrılmaz hissələrindən, habelə ölkəmizin mühüm siyasi və mədəni-mənəvi mərkəzi olduğunu qeyd edir. Müəllif ermənilərin Qarabağa köçürülməsi ilə bağlı da maraqlı məqamlara toxunub.

Dağlıq Qarabağ probleminin başlama səbəblərinin ermənilərin Azərbaycan xalqına, Azərbaycan dövlətinə qarşı ərazi iddialarının olduğunu qeyd edən müəllif məsələ ilə bağlı bir-birndən maraqlı faktlara diqqət çəkib. Məhz Azərbaycana torpaq iddiasının və onun bir hissəsinin işğal edilməsinin Ermənistanın özünə çox ciddi problemlər yaratdığı bildirilir. Bu məqamın Ermənistanı regional iqtisadi layihələrdən kənar qoyaraq çoxmilyardlı gəlirlərdən və iqtisadiyyatın modernləşdirilməsi imkanlarından məhrum etdiyi qeyd edilir. Azərbaycan torpaqlarının işğalı nəticəsində Ermənistan əhalisinin miqrasiyasının kütləvi hal aldığı, eləcə də sosial-iqtisadi vəziyyətin pisləşdiyi, bununla yanaşı özünütəcrid və militarist siyasətin bu ölkənin gələcəyini sual altında qoyduğu yer alıb.

Kitabda bütün bunlarla yanaşı Azərbaycanın sürətlə inkişafının səbəblərinə də toxunulub. Müəllifə görə Ermənistan torpaqlarımızı işğal etməsəydi, hazırda bu dövlət Azərbaycanın köməyi ilə sürətlə inkişaf edə bilərdi.

Kitabda problemin hazırki vəziyyətinə nəzər yetirilərək Dağlıq Qarabağ problemində bəzi anlayışlara da diqqət yetirilib. Müəllif bu problemin adının səsləndirilənlər kimi deyil, “Ermənistanın Azərbaycan ərazisinin bir hissəsini işğalından sonra doğan problem” olduğunu bildirir. Nəşrdə işğal altında olan ərazilərdəki vəziyyət də öz əksini tapıb. Problemlə bağlı beynəlxalq güclərin Azərbaycanı dəstəklədiyini qeyd edən müəllif münaqişənin digər problemlərlə eyniləşdirilməsinin yolverilməzliyinə diqqət çəkərək, bunlarla bağlı mühüm məqamlara yer verib. Kitabda erməni vəhşiliyinin bu gün də durmadığı qeyd edilərək onların təkcə sadə vətəndaşları deyil, tarixi abidələri də məhv etdiyi əks olunub. Həmçinin işğal nəticəsində Azərbaycana dəyən ziyan barədə məlumat verilərək, işğal olunmuş ərazilərdə dağıdılmış tarixi abidələrin siyahısı da kitabda yer alıb.

Nəşrdə Ermənistann Azərbaycana təcavüzünün ağır nəticələri barədə məlumat verilərək, problemlə bağlı Azərbaycanın mövqeyi, problemlə bağlı Ermənistan məşhurlarının etirafları, ermənilərin özləri haqqında dedikləri ilə əlaqədar diqqətçəkici məqamlar var.

Müəllif tarixi sənədlərlə də məharətlə işləyərək, beynəlxalq təşkilatların Dağlıq Qarabağ münaqişəsinə dair sənədlərinə də nəzər yetirib.

Kitabda Xocalı soyqırımına toxunularaq bu genosidin beynəlxalq aləmdə tanınması ilə bağlı dövlət başçısının, Heydər Əliyev Fondunun və digər qurumların gördükləri işlər barədə də ətraflı məlumat verilib.

Nəşrdə tükürpədici faktlar da yetərincədir. Onlardan birini olduğu kimi diqqətinizə çatdırırıq: “7 nəfərlik dəstədən sağ qalan Azərbaycan əsgəri Natiq Qasımov yaxınlıqdakı kilsənin yuxarısına Azərbaycan bayrağı sancaraq beş gün ac-susuz şəraitdə düşmən əhatəsində vuruşmuş, xeyli düşməni məhv etmişdir. Hiylə ilə əsir götürülərək bayraqla küçələrdən keçirilmişdir. 21 yaşlı Natiq Qasımovun sonrakı taleyindən xəbər yoxdur”.

Bütün bunlarla yanaşı kitabda toxunmadığımız digər maraqlı məqamlar da kifayət qədərdir. Həqiqətən də, həm dil, həm üslub, həm də faktlar baxımından son dərəcə zəngin olan kitab sözügedən mövzu ilə bağlı dəyərli vəsait hesab edilə bilər. Məhz belə faktlarla zəngin kitablarla dünya ictimaiyyətini erməni vəhşiliyi ilə tanış edə, onların iç üzünü, əsl məqsədlərini beynəlxalq aləmə çatdıra bilərik.

**Aqil LƏTİFOV**

*Kəşfiyyatçının xatirələri*

# “Taqətdən düşən əsgərlər iti kəsib, şişə çəkdilər...”

11-ci yazı



**Qarabağ müharibəsinin gerçək hekayətlərini Lent.az-a kəşfiyyatçı Rey Kərimoğlu yazır**
**reykerim@gmail.com**

Ötən xatirələrimizdə Ağdərənin Umudlu kəndi haqqında məlumat vermişdik. Umudlu üç tərəfdən uca dağlarla, bir tərəfdən isə Sərsəng su anbarı ilə yanaşı çoxsaylı erməni kəndlərinin mühasirəsində yerləşən qədim bir Azərbaycan kəndi idi. Buranın Azərbaycanla əlaqəsi yalnız vertolyotla olduğundan kənddə işıq, ərzaq, dərman və digər problemlər mövcud idi. Kəndi Şirin Mirzəyevin komandiri olduğu hərbi hissənin adi silahlarla silahlanmış 55 nəfərlik dəstəsi qoruyurdu.

Kənddə vəziyyət ağırlaşdıqca, Şirin Mirzəyev bir peşəkar hərbçi kimi Azərbaycan Respublikasının rəhbərliyinə, Müdafiə Nazirliyinə və digər aidiyyatı orqanlara dəfələrlə telefonoqrama göndərib. Həmin telefonoqramların surəti bu gün də Şirin Mirzəyevin əsgərlərində qorunub saxlanılır. (Onların böyük bir hissəsi hərbi jurnalist İbrahim İbadoğlunun (Rüstəmovun) 1995-ci ildə işıq üzü görən “Sərkərdə” kitabında da verilib. Biz Şirin Mirzəyevin və onun komandiri olduğu hərbi hissə ilə bağlı saxlanılan bütün sənədləri ilk dəfə olaraq yaxın vaxtlarda Lent.az da yayacağıq). Onların içərisində Umudlunun xilas olunması ilə bağlı Şirin Mirzəyevin narahatçılığına və ciddi-cəhdlərinə cavab olaraq 1992-ci ildə, fevralın 18-də Qarabağ Müdafiə Komandanı Tahir Əliyevlə Müdafiə Nazirliyinin qərargah rəisinin müavini Fəhmin Hacıyev tərəfindən verilmiş bir sərəncam da var:- “Ağdərə rayonunun azərbaycanlılar yaşayan Umudlu kəndində yerli sakinlərin və kəndi qoruyan Milli Ordu əsgərlərinin təhlükəsizliyini təmin etmək üçün 1992-ci il fevral ayının 18-dən etibarən onların kənddən çıxarılmasına sərəncam verirəm”.

### Əsgərlərimiz Umudlunu tərk edir...

Bu sərəncamdan sonra fevralın 22-də Umudlu kənd sakinlərinin ümumi yığıncağının bir qərarı var. Umudlu kənd sovetinin sədri Rafael Niftalıyevin imzaladığı sənəddə kəndin real vəziyyəti əks etdirilib. “İndiyənə qədər olmazın əzabına məruz qalmışıq, artıq 5-ci ilə keçib ki, qorxu və dəhşət içində yaşayırıq. Məktəbimiz yandırılıb, evlərimiz top atəşi ilə dağıdılıb, dekabrın 23-dən (1991-ci il) daimi məskənimiz soyuq səngərlərdir. Bu ölüm-dirim mübarizəsində bizə silah da verən olmadı. Dünənə qədər başımızın üstündə yüzlərlə ağa var idisə, bu ağır gündə bir rəhbər tapılmır ki, ətəyindən yapışaq. Yaxşı ki, Ağdam taborunun (Ş.Mirəzyevin Umudludakı dəstəsi nəzərdə tutulur) könüllüləri – yurdumuzun qeyrətli oğulları varmış. Onlar olmasaydı, indi yəqin ki, Umudlu da respublikanın xəritəsindən silinmişdir...” Ürək ağrısı ilə oxuduğumuz bu sətirlər yazılanda hələ Umudlu işğal olunmamışdı. Amma vəziyyət son dərəcə ağır duruma gəlib çatmışdı...

Mən yanvarın sonlarında digər əsgərlərlə birgə əvəz edilərək Umudludan çıxmışdım deyə kəndin son günlərində orada olmamışam. Biz qayıdandan sonra baş verən hadisələri Umudludakı qrupa rəhbərlik edən baş leytenant Fəxrəddin Rəcəbovdan, kəşfiyyatçı Eldar Səmədovdan, gənc əsgər Rafiq Qarayevdən və kənd sakini Məhəmməd Nağıyevdən eşitdiklərimi danışıram sizlərə...

Fəxrəddin Rəcəbov deyir ki, fevralın 28-də Şirin Mirzəyev vertolyotla özü Umudluya uçub. Şirin Mirzəyevin igidliyi sayəsində həmin gün yerli əhalini çıxarmaq üçün hərbi vertolyotların müşayiəti ilə kəndə iki vertolyot enib. Birinci reyslə yerli əhalini və əsgərlərin (Həmin ərəfədə əsgərlərin sayı 55 deyil, 35 olub) bir qismini yola salıblar. İkinci reysə isə yanacaq olmadığını bəhanə edərək bir vertolyotlardan biri qayıtmayıb. Əvvəlcədən razılaşdırılmış plana uyğun olaraq postlarda qalan və ən sonda vertolyota minməli olan 18 əsgər və 7 nəfər yerli sakin də qaçaqaça vertolyot meydançasına gəliblər. Lakin cəmi bir vertolyot olur o da bunlar çatana qədər dolur.

### Vətən uğrunda iti kəsib yedilər

Həmin günləri F.Rəcəbov belə xatırlayır: “Səhəri günə də vertolyotun gələcəyinə ümid yox idi. Ermənilər ətrafdan hər şeyi görürdülər və onlar bizim gücümüzün azaldığını bilməmiş deyildilər. Çıxılmaz vəziyyət yaranmışdı. Ermənilərin tam əhatəsində, hərbi sursatımız az, özümüz də cəmi 25 nəfər. Qərar aldıq ki, ehtiyat variantı işə salaq. Heç bir tədarük görə bilməsək də, əlacsız qalıb meşəyə çəkildik. Buna məcbur idik. Uşaqlar rabitə cihazını (“Ratsiya”) elektrik mənbəyi ilə birləşdirən naqili yaddan çıxarmışdılar deyə batalyonla əlaqə saxlamaq mümkün olmadı. Həmişə qarlı olan Murovdağın bəlkə də insan ayağı dəyməyən sıldırımları ilə irəliləmək çox çətin idi. Bir az keçmiş kənd sakinləri getməkdən imtina etdilər. (Digər əsgərlər mənə dedilər ki, sakinlər bu dəstənin sağ-salamat Kəlbəcərə gedib çıxacağına inanmırmışlar – R.K.) Onları nə qədər dilə tutsaq da xeyri olmadı. Hətta bir sakinlərindən biri qabardan bərkiyib sanki daşlaşmış əlini bizə göstərək dedi ki, “neçə illərlə bu əllərimlə tikdiyim ikimərtəbəli evimdə heç bir gecə də yatmamışam, qoy erməni məni öldürsün, amma buradan gedən deyiləm!”

Bütün təkidlərimizin əhəmiyyətsiz olduğunu görüb inadımızdan əl çəkdik. Kənd sakinlərindən yalnız biri – Məhəmməd Nağıyev bizimlə gedəcəyini dedi. Digər kənd sakinləri geri qayıtdı. Biz isə irəliyə doğru getməyə başladıq. Kəndi tərk edərkən bizə qoşulmuş ov tulası da yanımızda idi. Xeyli getmişdik, artıq uşaqlar yorğunluqdan yeriyə bilmirdilər... Əvvəllər arandan yaylağa köç edərkən camaatın saldığı yurd yerlərindən birinə çatdıq. Orada dayandıq. Ocaq qalayıb, bir az qızındıq. Uşaqlardan kiminsə götürdüyü və yeganə ərzağımız olan suxarını yedik. Saşa adlı gənc bir əsgər islanmış çəkmələrini qurutmaq üçün onları ocağın kənarına qoymuşdu. Birdən onun çəkmələrindən biri istinin təsirindən əriməyə başladı və tamam yarasız hala düşdü. Eldarın əsgər papağının qulağından və kiminsə ködəkcəsinin qolundan ona ayaqqabı “tikdik”. Bir az dincələndən sonra yenidən yola düzəldik. Aclıq, soyuq, qarlı və aşırımlı yol bizi tamam əldən salmışdı. Bir neçə nəfərin ayağını artıq don vurmuşdu... Saşanın vəziyyəti isə lap ağır idi... Qarın üstündə çox getməkdən Şahinin gözü qara düşmüşdü. Yayda da qarlı olan Murov dağında hara baxırdınsa, hər tərəf göz işlədikcə ağappaq sahə idi. İki gün keçmişdi, artıq uşaqlarda yeriməyə taqət qalmamışdı. Eldar mənə yaxınlaşıb dedi ki, bir az qabağa gedəcək. Düşündüm ki, yəqin kəşfiyyata gedir. Bir az keçmiş güllə səsi gəldi. Amma avtomat yox, “TİR” deyilən kiçik çaplı tüfəngin səsi idi. Çox narahat oldum, elə zənn elədim ki, kimsə özün vurdu. Onlara yaxınlaşanda qar üzərində qan izi gördüm. Bu məni daha da qorxutdu. Bir az da irəli getdim, yerimdə quruyub qaldım-qarın üstündə it cəsədi var idi... Eldar bizimlə kənddən gələn ov tulasını vurmuşdu. Bu iki gündə ona yamanca öyrənmişdik... Saşa iti səliqə ilə, qoyun kimi soydu. Çox pis olmuşdum, amma heç nə demədim. Uşaqlar ocaq qalayıb, itin ətindən yaxşı bir “kabab” çəkdilər... Bəzi əsgərlərimiz əvvəlcə yemək istəmədilər, lakin müəyyən “profilaktik” söhbətdən sonra hamı yedi (sonralar Məhəmməd Nağıyevlə Rafiq Qarayev mənə dedilər ki, it ətindən, guya, onlar yeməyib – R.K.) Amma “kababın” qoxusu pis deyildi... (Gülür) “Kababdan” sonra təxminən 7-8 saat hamının yerimək imkanı bərpa olundu”.

### Ancaq sonradan onlar yenə yorulub əldən düşüblər...

Vəziyyətin ağırlaşdığını görüb, nisbətən gümrah qalan altı nəfəri Kəlbəcərin Ağdaban kəndi istiqamətinə göndəriblər. Əslində bunu ona görə ediblər ki, heç olmasa, hamı məhv olmasın. Kimsə bizimkilərə dəstə barəsində məlumat verə bilsin. Həmin altı nəfər Ağdaban kəndi istiqamətində yola düşüb. Göndərilən altı nəfər martın 2-də...

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASIYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU



"Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi" istiqaməti üzrə

# "Beynəlxalq jurnalistikadakı proseslər, tendensiyalar özünü Azərbaycan mediasında da göstərir"

## DOSENT VÜQAR ZİFƏROĞLU: "ÖZ QƏRƏZLİ AMBİSİYALARI NAMİNƏ JURNALİSTİKAYA GƏLMİŞ TƏSADÜFİ İNSANLAR MƏTBUATDAN UZAQLAŞDIRILMALIDIR"

**Müsahibimiz – istedadlı gənc alim, Bakı Dövlət Universitetinin beynəlxalq jurnalistika kafedrasının dosenti Vüqar Ziferoğlu ilə söhbətimiz mətbuatımızın bugünkü vəziyyəti, beynəlxalq jurnalistika ilə müqayisəli təhlili, problemləri və perspektivləri, jurnalist hazırlığının müasir durumu kimi vacib mövzulara həsr edilib.**



*(Əvvəli ötən sayımızda)*

– İndi jurnalistika çox populyarlaşıb. Elə buna görə də mətbuata axın var. Qeyri-peşəkarlığın yayılmasının qarşısının alınmasında peşəkar jurnalistlərin üzərinə böyük bir iş düşür. Bununla bağlı bir sıra tədbirlər həyata keçirilməlidir. Öz şəxsi mənafeyi, qərəzli ambisiyaları naminə jurnalistikaya gələn təsadüfi insanlar mətbuatdan uzaqlaşdırılmalıdır.

***– Belə bir uzaqlaşdırılma hansı yolla aparılmalıdır?***

– Bu daha çox jurnalist təşkilatlarının üzərinə düşən bir işdir. Jurnalist etikası özünütənzimləmə mexanizmidir. Burada hüquqi tənzimləmədən söhbət getmir. Jurnalistlər problemi özləri öz aralarında həll eləməlidirlər. Həm də ciddi şəkildə. Bu həm də mənəvi məsələdir. Burada mənəvi təsir məsələsi də qabardılmalıdır. Bu gün bəzi qəzetlərdə işləyən jurnalistlər, xüsusilə də müxalifət mətbuatının jurnalistləri, haradansa bir informasiya alan kimi heç dəqiqləşdirməyə ehtiyac duymadan birbaşa təqdim edirlər. Əgər jurnalist təqdim olunan məlumatı heç olmasa özü üçün araşdırıb dəqiqləşdirmirsə, o necə özünə jurnalist deyə bilər? Bəziləri heç düşünmürlər ki, bəlkə elə bu informasiyanı mənim vasitəmlə cəmiyyətə ötürülməsində məndən istifadə edirlər? Bəli, çox zaman da bəzi jurnalistlərimizdən istifadə edirlər. Peşəkarlıq həm də informasiya mənbəyi ilə işləmək qabiliyyətidir. Mənbə ilə işləmək prinsiplərinə riayət eləmək hər bir jurnalist üçün vacibdir. Burada jurnalist qurumları tərəfindən monitorinqlər təşkil edilməlidir, araşdırmalar aparılmalıdır. Mətbuat Şurasının ildən-ilə uzanan "qara siyahısı" reketçiliyin artıq nə qədər inkişaf etdiyini göstərir. Jurnalistikadan şantaj vasitəsilə pul qazanmağa səy göstərmək tamamilə medianın fəlsəfəsinə ziddir. Bu, həm də təmiz işləyən, peşəkar jurnalistlərimizin adına da ləkədir. Hər nə qədər problemlər olsa da, jurnalistin qələmi pula satıla bilməz, jurnalist şantajçı, reket deyil ki? Jurnalist cəmiyyətdə baş verən hadisələri işıqlandıran, problemləri ictimailəşdirən bir institutdur. Burada yalnız şəxsi mənafeyini düşünüb hansısa əyri yollarla pul qazanmaq jurnalistikanın mahiyyətinə ziddir. Bəzən deyirlər ki, reketçiliylə məmurun düzgün işləməməsi zəmin yaradır. Razıyam, amma şəratmanı, böhtanı, qarayaxmanı da qeyd etmək lazımdır axı? Bu gün belə "jurnalist"lər yoxdurmu? Təəssüf ki, var. Halbuki beynəlxalq jurnalistikada şəxsi həyatın toxunulmazlığı, şərəf və ləyaqətin alçaldılmasının yolverilməzliyi əsas prinsiplərdən hesab olunur. Bu prinsiplərə ciddi şəkildə əməl olunmalıdır. Bütün beynəlxalq jurnalist qurumlarının hamısının peşə davranış kodekslərində birmənalı şəkildə adını çəkdiyim prinsiplərə əməl olunmasının vacibliyi vurğulanır. Bunlara sayğısızlıq ilk növbədə insanın yaşamaq hüququnun pozulmasıdır. Bundan önəmli nə ola bilər? Bütün bunlara görə təəssüf ki, bəzən bu gün jurnalis adı cəmiyyətdə şantajçı məfhumu ilə birgə assosiasiya olunur. Nəticədə bizim peşəmiz, təmiz işləyən, öz qələminə sadiq olan peşəkar həmkarlarımız gözdən düşür. Ona görə də bir daha vurğulamaq istəyirəm ki, burada daha çox mənəvi təsir gücündən istifadə edilməlidir. Əlbəttə, müəyyən qanunların qəbulu da vacibdir. Bu gün "Diffamasiya haqqında qanun"la bağlı söhbətlər aparılır. Amma qeyd edək ki, günahsızlıq prezumpsiyası da ən azı bu qanun qədər vacibdir. Peşə etikasında ən vacib detallardan biri də günahsızlıq prezumpsiyasıdır. Bir insan haqqında məhkəmə hökmü olmadan, rəsmi hökm çıxarılmadan onu günahkar elan eləmək olmaz. Bu beynəlxalq jurnalistikanın bir nömrəli standart qanunlarından biridir. Diffamasiya ilə bağlı qanun qəbul edilməmişdən qabaq düşünürəm ki, jurnalistlərin hüquqi maarifləndirilməsi məsələsinə də diqqət yetirilməlidir. Peşə davranışının istiqamətləndirilməsi iki formada gedir: özünütənzimləmə və hüquqi tənzimləmə prosesi əsasında. Bəzən bizdə jurnalistin fəaliyyətinin hüquqi tənzimlənməsini onun hansısa qəlibə salınması, yaxud söz və fikir azadlığının məhdudlaşdırılması kimi qəbul edirlər. Amma qətiyyən belə deyil. Bir misal deyim: Böyük Britaniyada tirajın müəyyən həddini keçdikdən sonra dövlətdən icazə almaq tələb olunur. İndi bunu belə qəbul edək ki, orada jurnalistikada məhdudlaşdırma aparılır? Bu gün çoxumuz Böyük Britaniyanı, onun jurnalistika məktəbini kanon kimi qəbul edirik. Bütün sivil ölkələrdə hüquqi tənzimləmələr mövcuddur. Hüquqi tənzimləmələrdən kənara çıxmaq olmaz, çıxılsa, böyük xaos, anarxiya yaranar. "Diffamasiya haqqında qanun"a gəlincə, bu barədə fikrim belədir ki, bu qanun istənilən halda qəbul edilməlidir. Amma bir məsələ var ki, zənnimcə, cəmiyyətdən daha çox jurnalistlərimiz bu qanunun qəbuluna hazır deyillər. Qanunun qəbulundan əvvəl həm cəmiyyətdə, həm də jurnalistlər arasında geniş maarifləndirmə işi aparılmalıdır. Problemə hərtərəfli yanaşmaq zəruridir. Qanunu qəbul eləmək asandır, lakin sonrasını da fikirləşmək lazımdır.

***– Mətbuatımzda hazırki fikir, söz azadlığı, plüralizmin təmini sizi qane edirmi?***

– Mətbuatımızdakı fikir, ifadə, söz azadlığının hazırki durumu məni qane edir. Bu gün mətbuatımızın istənilən istiqamətinə nəzər saldıqda rəngarəngliyi görmək mümkündür. Siyasi yönümdən asılı olmayaraq mətbuat orqanları çap edilir. Hər kəs istədiyi fikri, arzuladığı formada ifadə etmək imkanına malikdir. Mətbuat azadlığının bəzən iddia edildiyi kimi hər hansı bir basqıya uğramasının şahidi olmuruq. Bu gün Azərbaycan qanunvericiliyinə görə 18 yaşına çatan istənilən şəxs qəzet təsisi edə bilər, ən azından bloq açıb fəaliyyət göstərmək, orada istədiyini yazmaq imkanı var. Sosial media, bloq jurnalistikası bu gün çox inkişaf edib. Belə olan bir şəraitdə söz və ifadə azadlığının basqı altında olmasından şikayətlənənləri başa düşmürəm. Faktiki olaraq hər şey göz qabağındadır, belə bir basqıdan söhbət belə gedə bilməz.

***– Sosial medianın inkişafından, bloq jurnalistikasından söz açdınız. Bu gün cəmiyyətimizin bu istiqamətlərə ehtiyacı hansı səviyyədədir?***

– Bunlar artıq jurnalistikada janrların transformasiyasıdır. Texnologiyaların inkişafı, cəmiyyətin yeniləşməsi ilə bağlı jurnalistika da yavaş-yavaş simasını dəyişir. Jurnalistika həddindən artıq dinamik bir sahə olduğu üçün cəmiyyətdə gedən bütün dəyişmələrə çevik reaksiya verir. Mətbuat hər gün inkişaf edir. Bu dəyişikliklər gedəcək və onları normal qəbul etmək lazımdır. Lakin əlbəttə ki, maarifləndirmə işi aparılmalı, ümumilikdə onların doğru istiqamətləndirilməsi təşkil olunmalıdır. Qloballaşan dünyanın tərkib hissəsi kimi bu dəyişikliklərə adaptasiya olmalıyıq. Bu gün beynəlxalq jurnalistikanın daha ciddi problemləri var. Qlobal informasiya məkanında informasiyanın tək əldə, monopoliyada cəmləşməsi bu gün beynəlxalq jurnalistikanı narahat edən əsas məsələdir. Beynəlxalq Jurnalistlər Federasiyası hələ 2001-ci ildə Seulda bir konfrans keçirmişdi. Onlar həmin vaxt SOS bəyanat yaydılar ki, hazırda qlobal informasiya məkanı ABŞ və Qərbi Avropaya aid olan bir ovuc media holdinqin nəzarəti altındadır. Bununla onlar beynəlxalq jurnalist təşkilatlarının diqqətini bu istiqamətə yönəltməyə çalışdılar. Bu gün faktdır ki, nəhəng media holdinqlər informasiyadan öz maraqları, öz dövlətlərinin mənafeləri üçün istifadə edirlər. Suriyada baş verən hadisələri bu gün Rusiya, Türkiyə, İran, Qərbi Avropa və ABŞ mətbuatı tam fərqli istiqamətlərdən şərh edir. Fərqli mövqelər ortaya qoyulur, adi informasiya fərqli tonlarla, müxtəlif üslublarda təqdim olunur. Burada sözün seçilməsi və təqdim olunması da böyük təsir gücünə malikdir. Ümumiyyətlə, hansısa ölkənin mətbuatını meyar olaraq seçmək doğru deyil. Nəzərə alaq ki, azadlıq özü belə nisbi anlayışdır. Mütləq azadlıq yoxdur. Mətbuat azadlığı anlayışı da həmçinin. Mütləq azadlıq dağıdıcıdır, sivil cəmiyyət də bunu qəbul edə bilməz. Bütün bunlar göstərir ki, informasiya çox qiymətli əmtəədir, getdikcə qiyməti daha da qalxacaq. Bu da mətbuatın cəlbedicilyini artırır, buraya kütləvi axını şərtləndirir.

***– Bu gün media kuluarlarında daha çox print mətbuatının sıradan çıxacağı ilə bağlı fikirlər dolaşır...***

– Ümumiyyətlə, hazırda dünyada çap məhsullarının iqtisadi problemi mövcuddur. Bu, dünyada baş verən bir prosesdir. Bunu qəbul etmək lazımdır. Bu gün bütün dünyada internet media çap məhsullarını sıxışdırıb. İngiltərə kimi ənənəvi, klassik mətbuata marağın böyük olduğu bir ölkədə ( demək olar, elə bir ingilis yoxdur ki, səhər yeməyində qəzetləri vərəqləməsin) mətbuat orqanlarının tirajı xeyli aşağı düşüb. Bununla bağlı bu gün nəzəriyyəçilər tərəfindən müzakirələr aparılır. Onlayn media hazırda mətbuatda üstünlüyü ələ alıb. Lakin bu, o demək deyil ki, internet jurnalistikası çap mətbuatını tamamilə sıradan çıxaracaq. Çünki internet mediada rəqabət, operativlik var. Yeni dövrün insanı informasiyanı tez və zamanında almaq istəyir. Həyatımız, yaşam tərzimiz sürətlənib, ümumiyyətlə, ətrafımızda nə varsa, sürətlənib. XXI əsr sürət əsridir. Çap mətbuatı isə klassik formadır. Amma buna rəğmən qəzetlərin tamamilə sıradan çıxağına inanmıram. Ola bilər ki, forma və məzmunda dəyişikliklər olsun, məncə, daha çox analitik formaya keçid baş versin. Reklam bazarının məhdud olması ilə bağlı deyilənlərə gəlincə, bir sahibkar, yaxud biznesmen, 2 minlik tirajı olan bir qəzetdənsə, 15 minlik İP girişi olan hansısa internet portalında məhsulunun reklam olunmasını istəyəcək. Biznesmen öz maraqlarını qorumaq məcburiyyətindədir, bu, reallıqdır. Burada qeyri-adi heç nə yoxdur.

***– Pedaqoq kimi jurnalist hazırlığından, tələbələrin səviyyəsindən razısınızmı?***

– Tələbələrimdən razıyam. Əgər bir müəllim öz tələbələrindən narazılıq edirsə, yəqin burada artıq problem müəllimin özündədir. Tələbədən narazılıq etmək düz deyil. Düzdür, auditoriyada jurnalistikaya marağı olmayanlar da var. Elələri var ki, başqa ixtisasları yazıblar, balları çatmayıb jurnalistikaya qəbul olunublar. Ona görə də burada bir nüansı xüsusilə qeyd etməliyəm. Fikrimcə, jurnalistikaya qəbul zamanı test imtahanından əvvəl abituriyentlər mütləq qabiliyyət, yazı imtahanından keçməlidirlər. Bu zaman məhz jurnalistikaya lazım olan abituriyentlər seçiləcək. Amma müəllim olaraq maksimum çalışırıq ki, təhsil aldıqları dörd il ərzində tələbələrin jurnalistikaya marağını artıraq. Bəzən bu, alınır. Elə tələbə tanıyıram ki, gələndə heç həvəsi yox idi, peşmançılıq hissi keçirirdi. Amma müəllimlərin bəziləri ilə ünsiyyətdən sonra, bəzi dərslərdən sonra jurnalistikaya marağı artır, yazmağa başlayır, özünü sınayır və uturlu nəticələr əldə edir. Ancaq təbii, elələri də var ki, yazmır, yazmaq istəmir, həvəsi yoxdur. Beləsində nə qədər həvəs yaratmağa çalışsaq da, iş aparsaq da alınmır ki, alınmır. İnsanın daxilində yazmağa, mətbuata maraq, həvəs, fəhm yoxdursa, nə isə eləmək əbəsdir. Aşağı kurslarda oxuyan elə istedadlı, aktiv gənclərimiz var ki, özləri informasiya portalları yaradırlar, bloqları var, bir yerə toplaşıb qəzet çıxarmaq fikrinə düşürlər. Belə tələbələrimizlə fəxr edirik. Ancaq başqa bir ümidverici faktı qeyd edim. İldən-ilə jurnalistika fakültəsinə qəbul olunanların arasında sırf mətbuata olan marağına, jurnalistikaya sevgisinə görə bu ixtisası seçənlərin sayı sürətlə artır. Bu tendensiya son 2-3 ildə aydın hiss olunur. Bu da mətbuatımızın işıqlı gələcəyinə, inkişafina böyük ümid yaradır.

**Sevinc MÜRVƏTQIZI**

Səhifədəki material Azərbaycan Respublikasının Prezidenti yanında KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun layihəsi üzrə çap olunub

# Qorxmaz Hüseynov: "2012-ci ildə 400 min nəfərin su təchizatı əsaslı şəkildə yaxşılaşıb"

"Azərsu" ASC-də qurumun sədri Qorxmaz Hüseynovun rəhbərliyi ilə 2012-ci ildə su təchizatı və kanalizasiya sektorunda görülmüş işlər və qarşıda duran vəzifələrə həsr olunmuş müşavirə keçirilib. ASC-nin mətbuat xidməti və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, "Azərsu" sədri Q.Hüseynov bildirib ki, ötən müddətdə iqtisadiyyat dinamik inkişaf edib, yeni infrastruktur layihələri həyata keçirilib, əhalinin sosial rifahı daha da yaxşılaşıb. Şirvan-Muğan Qrup su kəmərinin təməlinin qoyulmasını, Külüllü-Zərdab magistral su xəttinin açılışını ilin mühüm hadisələrindən olduğunu diqqətə çatdıran sədr qeyd edib ki, bu layihələr Aran bölgəsinin böyük bir hissəsində su təchizatının yaxşılaşmasına töhfəsini verəcək.



Su təchizatı və kanalizasiya sektorunda görülmüş işlərə toxunan "Azərsu" rəhbəri bildirib ki, Prezident İlham Əliyevin bu sahəyə diqqət və qayğısı sayəsində su təchizatı və kanalizasiya sektoru son 2 ildə yeni inkişaf dövrünə qədəm qoyub: "Dövlət proqramlarına uyğun olaraq bütün şəhər və rayon mərkəzləri, eləcə də Bakıətrafı kənd və qəsəbələrin su təchizatı və kanalizasiya sistemləri yenidən qurulur. Bu sahədə işlərin bir hissəsi layihə mərhələsindədir. 23 şəhər və rayon mərkəzi, eləcə də 277 kənd və qəsəbə üzrə işlərə isə artıq başlanılıb. Hətta, bəzi layihələr üzrə işlərin ilkin mərhələsi uğurla başa çatıb".

Q.Hüseynov qeyd edib ki, Bakı şəhərinin və Abşeron yarımadasının içməli su təchizatının və kanalizasiya sistemlərinin yenidən qurulması üzrə görülən işlərə toxunaraq qeyd edib ki, həyata keçirilən tədbirlər nəticəsində paytaxtın su təchizatında ciddi dönüş yaranıb: "Son 1 ildə Bakı şəhərində 300 min nəfər fasiləsiz içməli su ilə təmin olunub, gələn ilin əvvəllərində isə Xətai, Nizami, Sabunçu və Suraxanı rayonlarının 200 mindən çox sakini 24 saat su alacaq. 2012-ci ildə 400 min nəfərin su təchizatı əsaslı şəkildə yaxşılaşıb ki, onların da 30 mindən çoxu bölgələrdə yaşayan kənd sakinləridir. Bu tədbirlər nəticəsində 95 məhəllədaxili nasos stansiyasının fəaliyyəti dayandırılıb və bu da ayda təxminən 1 milyon kilovatt/saat elektrik enerjisinə qənaət deməkdir. Bizim əsas məqsədimiz bütün istehlakçıları fasiləsiz içməli su ilə təmin etməkdir. Bakı şəhərində yeni su anbarlarının tikilməsi, magistral və paylayıcı su xətlərinin yenidən qurulması ilə fasiləsiz su alanların xüsusi çəkisi 95 faizə çatdırılacaq".

Dünyanın ən böyük ultrasüzgəcli qurğusunun Azərbaycanda tikildiyini söyləyən Q.Hüseynov rekord müddətə istismara veriləcək qurğunun Abşeron yarımadasının içməli su təchizatında müsbət dəyişikliklər yaradacağını deyib. Onun sözlərinə görə, Abşeron yarımadasını əhatə edən Master Planı üzrə işlər başa çatmaq üzrədir və layihə yekunlaşdıqdan sonra içməli su, kanalizasiya və yağış sularının axıdılması layihələri üzrə tikinti və istismar prosesləri asanlaşacaq.

İstehlakçılara verilən içməli suyun keyfiyyətinin yaxşılaşdırılması məqsədi ilə Bakı şəhərində tikilən Mərkəzi Laboratoriyanın yeni inzibati binasında son tamamlama işləri gedir və bina 2013-cü ilin birinci rübündə istismara veriləcək: "Ötən müddətdə suyun tədqiq olunan parametrlərinin sayı 25-dən 40-a çatdırılsa da, mövcud cihazlar tələblərə cavab vermir. Yeni laboratoriya ən müasir avadanlıqlarla təmin olunacaq. Bundan sonra əsas hədəf laboratoriya üçün beynəlxalq İSO standartlarının alınması olacaq".

Cəmiyyətin rəhbəri AzersuCİS layihəsinin Bentley Beynəlxalq Layihə Müsabiqəsində birinci yerə və ASC-nin Böyük Britaniyanın Sertifikatlaşdırılmış Maliyyə Menecerləri İnstitutunun Beynəlxalq Maliyyə Hesabatları Standartlarına keçid istiqamətində ən yüksək mükafata layiq görülmələrini ilin mühüm uğurları adlandırıb.

2012-ci ildə "Azərsu" ASC-nin fəaliyyətini qənaətbəxş qiymətləndirən Q.Hüseynov qarşıda duran vəzifələr barədə tapşırıq və göstərişlərini verib: "Biz 2013-cü ildə daha çox işləməli olacağıq. Ölkənin bütün rayon mərkəzlərində su və kanalizasiya layihələri icra olunacaq, bəzi ərazilərdə işlər yekunlaşacaq".

**BƏXTİYAR**

# "PAŞA Həyat Sığorta" 50 min manata yaxın sığorta ödənişi edib

Azərbaycanın "PAŞA Həyat Sığorta" ASC istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta növü üzrə növbəti iri sığorta ödənişini həyata keçirib. Şirkətin Marketinq və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, sığorta hadisəsi Azərbaycanda istehsalat sahəsində fəaliyyət göstərən müəssisələrin birində baş verib. Belə ki, "PAŞA Həyat"da sığortalanan həmin müəssisənin işçisi istehsalat prosesi zamanı bədbəxt hadisə nəticəsində həyatını itirib.

Sığorta müqaviləsində qeyd olunan şərtlərə uyğun olaraq, 49,636 min manat həcmində birdəfəlik sığorta ödənişi sığortalının faydalanan şəxsinin (vəfat etmiş şəxsin həyat yoldaşı və oğluna) bank hesabına köçürülüb.

Qeyd edək ki, "PAŞA Həyat Sığorta" şirkəti tərəfindən cari ilin əvvəlindən indiyədək sözügedən sığorta növü üzrə 259 min manatdan artıq sığorta ödənişi verilib.

Xatırladaq ki, "PAŞA Həyat Sığorta" ASC 2010-cu il noyabrın 24-də dövlət qeydiyyatına alınıb, sığorta fəaliyyətinə lisenziya (5 illik) isə 2011-ci il fevralın 14-də verilib. Cari ilin yanvar-noyabr aylarında şirkətin topladığı sığorta haqlarının həcmi 13,383 mln. manat, ödənişləri isə 0,295 mln. manat olub. Cari ilin dekabr ayının 1-nə şirkətin nizamnamə kapitalı 15,050 mln. manat təşkil edib.

**Rasim ASLANOV**

# Türkiyənin Azərbaycandakı səfiri Bakı Ali Neft Məktəbində olub

Dünən Türkiyənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri İsmail Alper Coşkun Bakı Ali Neft Məktəbində (BANM) olub. Ali məktəbdən verilən məlumata görə, qonağı qəbul edən Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin son illər keçdiyi inkişaf yolundan danışıb, şirkətin Azərbaycanda və ölkədən kənarda həyata keçirdiyi layihələr barədə ətraflı söz açıb. O, BANM-ın Azərbaycan Prezidenti İlham Əliyevin 29 noyabr 2011-ci il tarixli Fərmanı ilə ARDNŞ-in strukturunda dövlət müəssisəsi statusunda yaradıldığını qeyd edib. Ali təhsil ocağı barədə qonağa məlumat verən E.Qasımov bildirib ki, ən müasir standartlara uyğun tədris prosesinin qurulacağı ali məktəb ilə Böyük Britaniyanın Heriot Vatt Universiteti arasında sıx tərəfdaşlıq münasibətləri qurulub. Bunun nəticəsi olaraq BANM məzunlarına iki diplomun verilməsi nəzərdə tutulub. Bakı Ali Neft Məktəbinə ən yüksək göstəricilərə malik tələbələrin qəbul olunduğunu deyən rektor hazırda yüksək səviyyədə təchiz olunmuş binada fəaliyyət göstərən BANM üçün yaxın gələcəkdə ən müasir tələblərə cavab verən kampusun salınacağını söyləyib.



Səfir İsmail Alper Coşkun bildirib ki, Azərbaycanla Türkiyə qardaş və dost dövlətlər olmaqla yanaşı, eyni zamanda bütün sahələrdə ən yaxın müttəfiq dövlətlərdir. O, vurğulayıb ki, hər iki dövlət ölkələrimizlə bağlı məsələlərin həllində bərabər addım atır və hər hansı bir yaranmış maneənin aradan qaldırılması üçün bir-birimizə dəstək oluruq. Bütün sahələrdə günü-gündən inkişaf edən Azərbaycanda beynəlxalq standartlara cavab verən belə bir ali məktəbin yaradılmasının sevindirici hal olduğunu qeyd edən səfir, Bakı Ali Neft Məktəbi ilə müxtəlif təhsil layihələri çərçivəsində əməkdaşlıq etməyə və Türkiyənin müxtəlif texniki ali məktəbləri ilə əlaqələr qurulması üçün lazımi dəstəyi verməyə hazır olduğunu bildirib.

Görüşün sonunda Səfir İsmail Alper Coşkuna Bakı Ali Neft Məktəbinin "Fəxri qonaq" diplomu verilib.

**BƏXTİYAR**

# Dövlət Proqramının icrası üzrə Əlaqələndirmə Qrupunun iclası keçirilib

Qiymətli Kağızlar üzrə Dövlət Komitəsində (QKDK) "2011-2020-ci illərdə Azərbaycan Respublikasında qiymətli kağızlar bazarının inkişafı" Dövlət Proqramının icra statusuna dair aidiyyəti dövlət orqanlarının iştirakı ilə Əlaqələndirmə Qrupunun növbəti iclası keçirilib. Komitədən verilən məlumata görə, iclasda Maliyyə, Vergilər, İqtisadi İnkişaf, Təhsil nazirlikləri, Mərkəzi Bank və Əmlak Məsələləri Dövlət Komitəsinin nümayəndələri iştirak edib.




İclası giriş sözü ilə açan QKDK-nın sədr müavini, Əlaqələndirmə Qrupunun rəhbəri İlqar Muradov Dövlət Proqramının qiymətli kağızlar bazarının keyfiyyətcə yeni səviyyəyə qaldırılması və effektiv kapital bazarının formalaşacağına hədəflədiyini bildirib. O, QKDK tərəfindən Dövlət Proqramının təsdiq olunduğu müddətdən bugünə kimi görülmüş işlərə nəzər salaraq, infrastrukturun müasirləşdirilməsi, qanunvericiliyin təkmilləşdirilməsi, əlverişli işgüzar mühitin formalaşdırılması ilə yanaşı, bütövlükdə qiymətli kağızlar bazarında peşəkar hazırlığın və məlumatlılığın artırılması istiqamətlərində uğurlu layihələrin həyata keçirildiyini tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Daha sonra, aidiyyatı dövlət qurumları tərəfindən 2012-ci ildə Dövlət Proqramına uyğun həyata keçirilmiş tədbirlər barədə, habelə 2013-cü il ərzində nəzərdə tutulmuş tədbirlərin icra mexanizmləri müzakirə edilib və bu istiqamətdə görüləcək işlər barəsində fikir mübadiləsi aparılıb.

**BƏXTİYAR**

# Mədəniyyət və Turizm Nazirliyində ilin yekunları müzakirə olunub

Dünən “Nizami” Kino Mərkəzində Mədəniyyət və Turizm Nazirliyinin 2012-ci ilin yekunlarına həsr olunmuş kollegiya iclası keçirilib.





APA-nın məlumatına görə, kollegiya iclasında ilk əvvəl mədəniyyət və turizm naziri Əbülfəs Qarayev cari il ərzində görülən işlərlə bağlı məruzə edib. O qeyd edib ki, kollegiya iclasının gündəliyinə iki məsələ – Mədəniyyət və Turizm Nazirliyinin 2012-ci il ərzində həyata keçirdiyi işlər, eyni zamanda 2013-cü ilin ilk yarısı üçün planın təsdiqi müəyyənləşməsi daxildir.

Nazir 2012-ci ilin Azərbaycan üçün olduqca uğurlu il olduğunu bildirərək, 2013-cü ildə Azərbaycana daha böyük uğurlar arzulayıb. O vurğulayıb ki, növbəti il üçün Gənc Tamaşaçılar, Kukla Teatrı festivalların keçirilməsi nəzərdə tutulur: “Mənim əsas marağım odur ki, Azərbaycan mədəniyyəti bütünlüklə internet şəbəkəsinə daxil olsun. Biz bu gün ciddi hücuma keçməliyik. Bütün məlumatlar internet şəbəkəsində olmalı və bu istiqamətdə iş getməlidir. Sözsüz, biz istənilən sahədə uğur qazanmaq üçün var-gücümüzlə çalışmalıyıq. Bu gün bir çox mədəniyyət ocaqları əsaslı təmir olunur, hər bir məkan gözəlləşir, amma o məkanların təqdimatı zəif olduğundan bu iş görünmür”. Nazir bildirib ki, Azərbaycan mədəniyyətinin beynəlxalq sahədə qazandığı uğurlar göz önündədir və bu gün Azərbaycan mədəniyyət ölkəsi kimi tanınır.

Ə.Qarayev həm mədəniyyət, həm də turizm sahəsində çatışmazlıqlar olduğunu vurğulayıb. Azərbaycanın kino sahəsindən də danışan nazir bu sahədə böyük uğurların əldə olunacağına ümid etdiyini əlavə edib və bildirib ki, bunun üçün bir neçə xarici ölkə ilə əməkdaşlıq ediləcək. O, kitabxana sahəsində Baltikyanı ölkələrin təcrübəsindən yararlanacağını bildirib: “Bu ölkədə bütün kitabxanalar açıq və rahat fəaliyyət göstərir. Azərbaycanda kitab işinin təkmilləşdirilməsinə ehtiyac var və biz bunun üçün müəyyən addımlar atmağa qərar vermişik”.

Ə.Qarayev onu da vurğulayıb ki, bu yaxınlarda Azərbaycanda “Mədəniyyət haqqında” qanunun qəbulu hər kəs tərəfindən bəyənilib və hazırda qanun dövlət başçısına təqdim olunub. Eyni zamanda “Kinematoqrafiya haqqında” qanunun da yenilənəcəyini diqqətə çatdıran nazir həm mədəniyyət, həm də turizm sahəsində çalışanları növbəti il üçün daha məsuliyyətli işləməyə səsləyib.

# İstanbulda Hüseyn Cavidin 130 illik yubileyi keçirilib

Türkiyənin 600 illik tarixi olan İstanbul Universitetində TÜRKSOY-un, İstanbulun Eyyüp bələdiyyəsinin, Azərbaycan Türkləri Kültür və Təhsil Vəqfinin təşkilatçılığı ilə görkəmli Azərbaycan şairi və dramaturqu Hüseyn Cavidin 130 illik yubileyinə həsr olunmuş tədbir keçirilib. Tədbirdə ölkəmizin İstanbuldakı baş konsulu Həsən Zeynalov, Azərbaycanın Mədəniyyət və Turizm Nazirliyinin TÜRKSOY-dakı təmsilçisi Elçin Qafarlı, İstanbul Universitetinin ədəbiyyat fakültəsinin dekanı Mustafa Özkan və Naxçıvan Muxtar Respublikası mədəniyyət və turizm nazirinin müavini Məhəmməd Həsənov çıxış edərək İstanbul Universitetində təhsil almış görkəmli ədibin həyat və yaradıcılığından ətraflı bəhs ediblər. Mədəniyyət və Turizm Nazirliyindən verilən məlumata görə, çıxış edənlər Stalin dövrünün repressiyasına məruz qalmış Hüseyn Cavidin nəşinin türk dünyasının dahi şəxsiyyəti, xalqımızın ümummilli lideri Heydər Əliyevin misilsiz xidmətləri sayəsində Sibirdən gətirilərək doğma yurdu olan Naxçıvanda dəfn edilməsi, onun möhtəşəm məqbərəsinin və ev- muzeyinin yaradılmasını gələcək nəsillərə örnək olan addım kimi dəyərləndirib.

TÜRKSOY-un adından İstanbul Universitetinə üzərində Hüseyn Cavidin rəsmi olan xatirə hədiyyəsi təqdim olunub. Sonra İstanbul Universiteti ədəbiyyat fakültəsinin dekanı, professor Mustafa Özkanın sədrliyi ilə Hüseyn Cavidin yaradıcılığına həsr olunmuş konfrans keçirilib. Konfransda Kazım Qarabəkir Fondunun sədri Timsal Qarabəkir, yazıçı Azər Turan, Turan Cavid Qadın Mərkəzinin sədri Sevda Cəfərova, Ege Universitetinin professor Əli Erol, yazıçı-araşdırmaçı Yusuf Gedikli görkəmli şair və dramaturqun zəngin ədəbi irsi haqqında məruzələrlə çıxış ediblər: “ Hüseyn Cavid 1906-1910-cu illərdə İstanbul Universitetinin ədəbiyyat fakültəsində görkəmli türk ədiblərindən dərs alıb, öz əsərlərində türkçülük və turançılıq məfkurəsini təbliğ edib”.

Konfrans iştirakçıları görkəmli ədibin həyat və yaradıcılığından bəhs edən sənədli filmə tamaşa edib, Azərbaycandan gəlmiş müğənnilərin ifasında onun şeirlərinə bəstələnmiş mahnıları dinləyiblər. Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının təqdimatında Hüseyn Cavidin “İblis” tamaşası böyük rəğbətlə qarşılanıb.

**S.MÜRVƏTQIZI**

# “Bakı vaxtı” hər birimizin vaxtıdır...

İCTİMAİ TELEVİZİYANIN BİR LAYİHƏSİ HAQQINDA TAMAŞAÇI SÖZÜ

Əksər meqapolislərin diqqətçəkən cəhətlərindən biri konkret bir məkan daxilində müxtəlif zamanları yaşatmasıdır. Bu mənada bizim Bakı da istisna təşkil etmir. Odlar yurdunun paytaxtı zamanların kəsişib çarpazlaşdığı bir məkan kimi müasirliklə tarixiliyi özündə birləşdirir. Burada həm keçmiş, həm də gələcək bir-birilə qol-qola yaşayıb nəfəs alır. Amma keçmiş getdikcə arxada qalır. Bakını tanımaqda bizə canlı bələdçilik, “gidlik” edə biləcək adamların sayı da ilbəil azalır. Nə yaxşı ki, Bakının tarixi, maraqlı və ibrətamiz keçmişi hələ yaddaşlarda yaşamaqdadır. Bu yaddaşın bərpasında medianın, telekanalların rolu müstəsnadır. Görünür, bu missiyanın vacibliyini anlayan telekanallar Bakı haqqında, bu şəhərin tarixi barədə verilişlər, filmlər hazırlamağa üstünlük verirlər. Fikrimcə, bu sırada İctimai Televiziya digərlərindən bir qədər fərqlənir və hətta, mən deyərdim, öndədir. Söhbət İctimai Televiziyada vaxtaşırı yayımlanan “Bakı vaxtı” silsiləsindən gedir.

Bu silsilənin özəlliyi arxiv sənədlərinə əsaslanması və tarixi xronikaya üstünlük verməsidir. İndiyədək bu silsilədən İsmayiliyyə binası, Filarmoniya bağı, Opera və Balet Teatrı və s. haqqında çox maraqlı sənədli filmlər təqdim edilib.

“Bakı vaxtı” silsiləsinin müəllifi və aparıcısı, istedadlı publisist, telejurnalist Müsəllim Həsənov sanki bakısevərlərin əlindən tutub onları keçmişə aparır. Tarixə doğru, Bakının dünəninə doğru “geri addımlayan” tamaşaçı maraqlı görüntülərin fonunda maraqlı faktlarla tanış olur, sanki şəhərin bu və ya digər tarixi yerini qarış-qarış, dalan-dalan, döngə-döngə, küçə-küçə, meydan-meydan gəzir, ona yenidən vurulur, onu özü üçün yenidən kəşf edir.

“Bakı vaxtı” silsiləsindən ötən həftə təqdim olunan köhnə bakılıların “Parapet” kimi tanıdığı Fəvvarələr bağı haqqında film ciddi jurnalist axtarışının, maraqlı rejissor işinin məhsulu idi. “Parapet” sözünün izahından tutmuş, 70-ci illərin gəncliyinin romantik duyğularla xatırladığı “Nərgiz” kafesinə qədər hər şey tamaşaçını ekran önündə saxlamaq iqtidarında idi. Filmdə Bakı haqqında danışan ekspertlərin, xüsusən tarixçinin (səhv etmirəmsə, adı Faiq Əliyev idi) təmiz Bakı ləhcəsi ilə bu bağdan danışdıqları olduqca maraqlı və inandırıcı idi. Əminəm ki, bu söhbət çoxlarını öz gənclik xatirələrinə kökləyə bildi. Çünki Bakı bir növ daşlaşmış, yaxud daşlara hörülmüş xatirələr şəhəridir. Burada tarix öz rəngləri, öz musiqisi, öz dəstxətti ilə yaşayır. Bu mənada “Bakı vaxtı” təkcə bir şəhərin yox, həm də bütöv bir epoxanın vaxtı, əksidir ki, həmin o vaxtın “içində” də bizim hər birimizin öz vaxtı “yaşayır”.

Mən belə hesab edirəm ki, “Bakı vaxtı” İctimai Televiziyanın uğurlu layihələrindən biri olmaqla yanaşı, həm də vətənpərvərlik nöqteyi-nəzərindən gərəkli bir proqramdır. Hər bir ölkənin tarixi həm də o ölkədə yaşayan hər bir insanın tarixidir. Hər bir daşın taleyi həm də hər bir vətəndaşın taleyidir.

Bu baxımdan “Bakı vaxtı” təkcə binaların, daşların, bağların və küçələrin tarixi və taleyi demək deyil, həm də həmin küçə və bağlardan keçən insanların, o tarixi binalarda yaşayan adamların tarixi və taleyidir. “Bakı vaxtı” silsiləsini tamaşaçılara sevdirən bu həqiqətdir...

**Firuz MUSTAFA,**
**yazıçı, Bakı Avrasiya**
**Universitetinin professoru**

# Şairin Vətən harayı

Vaxtı ilə bütöv Azərbaycan torpaqları olan Dərbənd, Cənubi Azərbaycan, Qərbi Azərbaycan parçalanaraq Rusiya, Ermənistan, İran və Gürcüstan ərazilərinə qatılıb. Buna baxmayaraq harada yaşamasından asılı olmayaraq, hər bir Azərbaycan övladı öz milli qürurunu qoruyub, tariximizi, adət-ənələrimizi yaşadıb.

“Dəryada gəmim qaldı” kitabının müəllifi Arif Nüvədili də belə insanlardandır. O, Qərbi Azərbaycanda Zəngəzur mahalının Nüvədi kəndində dünyaya göz açıb, Vətənini, millətini, el-obasını sevə-sevə böyüyüb boya-başa çatıb. Azərbaycan Neft və Kimya İnstitutunu bitirsə də, ədəbiyyatı seçib, şairlik mərtəbəsinə yüksəlib. O, “Nüvədi harayı” və “Nüvədinin göz yaşları” kitablarının müəllifidir. “Dəryada gəmim qaldı” şairin oxucularına təqdim etdiyi 3-cü kitabıdır.

Arif Nüvədilinin yaradıcılığında mövzu məhdudiyyəti yoxdur. O, müasir ədəbiyyatımızla bərabər, klassik ədəbiyyatımızın janrlarında da şeirlər yazıb. Yeri gəlmişkən onu da qeyd edək ki, indiki dövrdə qəzəl, qəsidə, təcnis, cinas, bayatı, gəraylı, məsnəvi, müxəmməs yazarlarımız tərəfindən unudulub. Arif Nüvədilinin bu sahədə xidməti danılmazdır. Klassik şeir janrlarını o, sanki yenidən ədəbiyyata qaytarır.

“Hikmət dünyası” adlandırdığı şeir aləmi vasitəsi ilə özünün Vətənə, xalqa, türkçülüyə, insana, el-obasına, valideynlərə ülvi məhəbbətini, nadanlara, nakəslərə, onu həsrətə, ayrılığa vadar edən düşmənlərə isə dərin nifrətini bildirir. Bu mövzular şairin yaradıcılığında əsas yer tutur. Deyilən fikirlərin təsdiqi kimi aşağıdakı şeirləri göstərmək olar:

“Mən necə doyum?”, “Lal məhəbbət”, “Ata eynəyi”, “Min qeyrət atına atıl meydana” və sair. “Lal məhəbbət” şeirində o, yazır:

**Xəlvətdə dolanıb, gizlin dayandım**
**Aşkarda odlanıb, pünhanda yandım.**
**Qəddin dəyən yeri gibləgah sandım,**
**Xudaya, bu zövqü insan duyarmı?**

Burada nə qədər də axıcılıq, ritmilik, obrazlılıq, poetiklik var.

Arif Nüvədili doğma yurdu Nüvədi kəndinin həsrəti ilə yazıb-yaradır. O, “Nüvədi harayı”, “Nüvədinin göz yaşları” kitablarını doğulduğu doğma məskəni Nüvədiyə həsr etdiyi halda, bu kitabda da o, öz sevgisini, yanğısını gizlətmir. O, bu həsrəti yenidən yaşayır.

Müəllif doğma el-obasının təbiətinə, gözəlliklərə, dağlara, çaylara, fəsillərə də öz sevgi həsrətini bildirir. Onları da ürək yanğısı, çırpıntısı ilə qələmə alır. Onun təbii gələn poetik deyimləri şeirin göynərtisini daha da artırır, oxucuya təsiri gücləndirir.

**Buludlar donunu sıxdıqca hərdən**
**Göy otlar göyərib, boylanır yerdən;**
**Günəş ki, nur saçır, ziyası-zərdən,**
**Bahar xoşbəxt ilin, xoş qədəmidir.**

**Yaxud:**

**Dolanıb boynuna,dönüb başına,**
**Olaydım dərdindən halı dağların**
**Fələyin gözündən düşəndən bəri,**
**Tükənmir başının qarı dağların.**

“Ata eynəyi” şeirində valideynə olan səmimi münasibəti hiss edirik:

**Yaxşını yamanı, əyrini pisi**
**Sənin arşınınla ölçürəm indi.**
**Mərdə quyu qazan mənfur nakəsi**
**Uzaqdan-uzağa seçirəm indi.**

Şair “Məni” şeirində də nadanlara, insani hisslərdən uzaq olanlara münasibətini belə təsvir edir:

**Mən, qədirnaşünas doğulmamışdım,**
**Etdi soyuqqanlı bu həyat məni.**
**Kimə ki bir kərə dərdimi açdım,**
**Saldı yüz azara, nəhayət məni.**

“Min qeyrət atına atıl meydana” şeiri Vətən uğrunda, itirilmiş torpaqlarımız uğrunda mübarizəyə çağırışdır, haraydır.

Qarabağ, Şuşa, Laçın, Qərbi Azərbaycan, Təbriz həsrətli şairin arzusu, diləyi itirilən torpaqlarımızı geri almaqdır. O, bu arzu, bu xəyalla yaşayır, ümidini itirmir.

**Bir yaram Göyçədir bir yaram Təbriz**
**Biri Qarabağdı biri qan verir səssiz;**
**Dərbənd yarasısa qalıb təbibsiz,**
**Üzü qaysaqlayıb, yeri göynəyir.**

Şairin şeirləri həddən artıq məntiqlidir. Mənaca, məzmunca, poetiklik baxımdan o qədər sanballıdır ki, elə bil şairin səsini eşidirsən. Bu, Arif Nüvədilinin ilhamının bəhrəsidir. O, şeirlərində sözlərin hamısını bədahətən gələn ilhamı ilə cilalayıb oxucuların ixtiyarına verir.

Arif Nüvədilinin “Dəryada gəmim qaldı” kitabındakı şeirlərin bir məziyyəti də ondadır ki, o, vaxtı ilə xalq arasında çox işlənən, son vaxtlar az qala unudulan sözləri yenidən həyata qaytarır, canlandırır, gələcək nəsillərə təqdim edir. Mən bunu şairin müasir ədəbiyyatımıza böyük töhfəsi kimi qiymətləndirirəm.

Şair haqqında diqqəti çəkən ən başlıca məziyyətlərdən biri də hörmətli qələm dostumuzun ixtisasca mühəndis-elektrik olmasıdı. Tamam başqa sahənin mütəxəssisi olasan, ədəbiyyatı belə dərindən duyasan.

**Arif Nüvədiliyə yeni yaradıcılıq**
**uğurları arzusu ilə Saşa ƏLİYEV**

# Amerikalı skripkaçı Hillari Han Firəngiz Əlizadənin “İmpuls”unu səsləndirəcək



Yeni ilin ilk günlərindən etibarən Avropa ölkələrinə yaradıcılıq turnesinə çıxacaq Amerikanın ulduz skripkaçısı Hillari Han yanvarın 3-də İstanbulun məşhur Camal Reşit Rey konsert salonunda xalq artisti, professor Firəngiz Əlizadənin skripka və fortepiano üçün bəstələdiyi “İmpuls” əsərinin premyerasını təqdim edəcək. Bəstəkarlar İttifaqının mətbuat xidmətindən APA-ya verilən məlumata görə, Hillari Han gənc olmasına baxmayaraq çox tanınan və sevilən virtuoz skripka ifaçısıdır. O, həm də Paqaninin (Nikola Paqanini- virtuoz italyan skripkaçı, bəstəkar, “24 Kapriz” əsərinin müəllifi) əsərlərinin ən yaxşı ifaçısı kimi də tanınır. “İmpuls” əsərinin Braziliyada və Ekvadordakı uğurlu premyerasından təsirlənən Hillari Han əsərin müəllifliyi ilə bağlı müqaviləni müddətini daha iki il artırıb. Bu əsəri o, 2013-2014-cü illərdə dünyanın müxtəlif ölkələrində keçirilməsini planlaşdırdığı konsertlərdə ifa etmək niyyətindədir.

Mətbuata müsahibələrində Hillari Han qeyd edib ki, Firəngiz Əlizadəyə yeni, həmçinin iri həcmli əsər sifariş etmək arzusundadır.

# Fərhad Bədəlbəylinin 65 illiyilə bağlı konsert təşkil edilib

Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, professor Fərhad Bədəlbəylinin 65 illiyinə həsr edilmiş konsert keçirilib. Dövlət rəsmilərinin, tanınmış mədəniyyət və incəsənət xadimlərinin dinlədikləri konsertdə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri və Azərbaycan Dövlət Xor Kapellası çıxış edib.

Yubiley gecəsində Azərbaycan bəstəkarlarından Tofiq Quliyev, Fikrət Əmirov, Niyazi, Vasif Adıgözəlovun, Fərhad Bədəlbəylinin özünün, eləcə də dünya klassiklərindən Françesko Çilea, Cakomo Puççini və Sergey Raxmaninovun əsərləri səsləndirilib.

Gecədə Fərhad Bədəlbəyli royal arxasında əyləşərək özünün və xarici bəstəkarların əsərlərini ifa edib.

**GÜNEL**

# Uşaq yaradıcılıq mərkəzləri müsabiqəsinin qalibləri mükafatlandırılıb

Dünən Bakıda Təhsil Nazirliyinin təşəbbüsü ilə elan olunmuş uşaq yaradıcılıq mərkəzləri arasında keçirilən müsabiqənin qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.

Mərasimdə çıxış edən təhsil nazirinin müavini Qulu Novruzov bildirib ki, müsabiqənin keçirilməsində əsas məqsəd istedadlı uşaq və gəncləri üzə çıxarmaq, onların yaradıcılıq potensialını inkişaf etdirməkdir: “Həmçinin müsabiqə nəticəsində məktəbliləri yaradıcılıq dərnəklərinə daha geniş cəlb etmək, uşaq yaradıcılıq mərkəzləri arasında təcrübə mübadiləsini təşkil etmək olur”. Q.Novruzov vurğulayıb ki, hazırda respublikada uşaq və yeniyetmlərin yaradıcılıq potensiallarının üzə çıxarılması istiqamətində xeyli iş görülür: “Fikrimcə belə müsabiqələr şagirdlərin böyük istedad və qabiliyyətlərə malik olduqlarını üzə çıxarır”.

Nazir müavini qeyd edib ki, təhsil naziri uşaq yaradıcılıq mərkəzləri dərnək üzvlərinin əl işlərindən ibarət respublika müsabiqəsinin keçirilməsi barədə əmr imzalayıb. Əmrdə bildirilib ki, müsabiqənin məqsədi uşaq və yeniyetmələrin yaradıcılıq potensialının üzə çıxarılması, inkişaf etdirilməsi üçün stimulların yaradılması və onlar arasında təcrübə mübadiləsinin təşkil olunmasıdır.

Nazir müavini qeyd edib ki, müsabiqədə 3 nominasiya – dekorativ tətbiqi sənət, dizayn və floristika – nəbatat aləmi üzrə 20 növdə, rayon-şəhər və Respublika mərhələləri olmaqla 2 mərhələdə keçirilib. Rayon və şəhər mərhələsində 3 mindən yuxarı məktəbli iştirak edib. Elan olunmuş müsabiqəyə 500-ə yaxın əl işləri tədim edilib. Nəticədə 60 qalib müəyyənləşdirilib ki, bunlardan da Respublika mərhələsində I, II və III yerləri tutan dərnək üzvləri Təhsil Nazirliyinin diplomu və hədiyyələrilə mükafatlandırılıb.

**S.QARAYEVA**

# İlin ən fəal mədəni-maarif müəssisələri və işçilərinə mükafatlar təqdim olunub

Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında Bakı Şəhər Mədəniyyət və Turizm İdarəsinin tabeliyində olan mədəniyyət müəssisələrində “2012-ci ilin ən fəal mədəni-maarif müəssisəsi və mədəni-maarif işçisi” müsabiqəsinin qaliblərinin mükafatlandırılma mərasimi keçirilib.

Mərasim Azərbaycan Mədəniyyət İşçiləri Müstəqil Həmkarlar İttifaqının Respublika Komitəsi (AMİMHİRK) və Bakı Şəhər Mədəniyyət və Turizm İdarəsinin (BŞMTİ) birgə təşkilatçılığı ilə təşkil olunub.

Təqdimat mərasimində BŞMTİ-nin rəisi Əlikram Əliyev çıxış edərək müsabiqənin keçirilməsinə dəstək olan bütün təşkilatlara təşəkkürünü bildirib. Qeyd edib ki, Azərbaycan dövlətinin başçısı İlham Əliyevin və Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın bu sahəyə göstərdikləri yüksək diqqət və qayğı nəticəsində mədəniyyətimiz getdikcə inkişaf edir və dünyada tanınır.

Rəis son illər ölkədə çoxlu sayda mədəniyyət müəssisələrinin təmir və inşa edilməsindən, onların fəaliyyətindən, mədəniyyət xadimlərinə fəxri adların verilməsindən söhbət açaraq bildirmişdir ki, bütün bunlar Azərbaycan mədəniyyətinin inkişafına ən böyük töhfədir.

Bildirib ki, cari ildə Bakı Şəhər Mədəniyyət və Turizm İdarəsinin tabeliyində olan mədəniyyət müəssisələrinin kollektivləri ölkənin mədəni həyatında baş verən hadisələrdə fəal iştirak etmiş, Azərbaycan Prezidentinin müvafiq sərəncamları ilə keçirilən bütün yubiley tədbirləri də daxil olmaqla ümumilikdə 2500-ə yaxın tədbir yüksək səviyyədə təşkil olunub.

Təqdimat mərasimində ümumilikdə 23 nominasiya üzrə qaliblərin adları elan edildi və onlar mükafatlandırıldılar.

Mərasimdə, həmçinin il ərzində təşkil edilmiş tədbirlərdə fəal iştirakına görə BŞMTİ-nin bir sıra işçilərinə təşəkkürnamə təqdim olunub.

Daha sonra tədbir konsert proqramı ilə davam etdirilib.

**GÜNEL**

***İstedadlı şair, dəyərli söz adamı Şaiq Vəlinin səhhətində ciddi problem var. Artıq yatağa məhkum olan şair bir müddətdir ki, ağır xəstəliklə mübarizədədir. Şaiq Vəliyə Allahdan rəhm diləyir, sağlamlığının bərpasını arzulayır və ona həsr olunmuş bir şeiri dərc edirik.***

***Ədalət NİCAT***

**Ağrılara çökdü Şaiq...**

Göylə yerin arasında,
Arzusuyla təkdi Şaiq.
Dünyanın ən gözəl gülün
Söz bağında əkdi Şaiq.

Öz qismətin özü dərdi,
Çiynində çəkir el dərdi,
Dağ da çəkməz belə dərdi,
Dərdi mərd tək çəkdi Şaiq.

Göydə gəzən söz köçünü,
Yerdə yığıb öz köçünü.
Eşq ilə dolu içini
Misra-misra sökdü Şaiq.

Qisası alır özündən,
Heç nə yayınmaz gözündən,
Bal kimi şirin sözündən,
Uca qala tikdi Şaiq.

Özün heç zaman öymədi,
Bir könülə də dəymədi,
Haqsızlara baş əymədi,
Ağrılara çökdü Şaiq.



# Yazıçılar cəbhə bölgəsində

Azərbaycan Respublikası Müdafiə Nazirliyi, Azərbaycan Dövlət Teleradio Verilişləri Qapalı Səhmdar cəmiyyəti, Azərbaycan Yazıçılar Birliyinin birgə layihəsi əsasında dekabr ayının 21-22-də şair və yazıçılarımızın Füzuli bölgəsinin N saylı hərbi hissəsində zabit və əsgərlərimizlə görüşü olub. Yazarlar hərbi hissələrin zabit və əsgər heyətinin hərbi hazırlıq səviyyəsi və onların şəraiti ilə tanış olublar. Qələm sahiblərindən Ədalət Əsgəroğlu, Oqtay Rza, Musa Ələkbərli, Məmməd İlqar, Ələmdar Quluzadə, Sabir Sarvan, Oqtay Əliyev, Asif Cəfərli vətənpərvərlik mövzusunda yazdıqları şeirləri ilə çıxış ediblər. Görüşün yekununda incəsənət ustalarından Əməkdar artist Zakir Əliyev, muğam müsabiqəsinin qalibləri çıxış ediblər. Sonda nümayəndə heyətinin rəhbəri, Azərbaycan Yazıçılar Birliyinin mətbuatla əlaqələr şöbəsinin rəhbəri, şair Ədalət Əsgəroğlu yazarlarımız adından əsgər və zabitlərimizi Dünya Azərbaycanlılarının Həmrəyliyi günü və Yeni il münasibəti ilə təbrik edib.



**Günel**

# Yeddi dünya hökmdarı – Fateh Teymur

Onun Böyük Çingiz xanın nəslindən olması bütün tarixə və tarix araşdıranlara məlumdur. Onu böyük türk tarixi salnamələrində sevənlər də var, sevməyənləri də az deyil. Tarix təzadlarla doludur, həmin təzadlardan biri də budur ki, bəzən Əmir Teymuru şəxsiyyəti ətrafında mübahisələrdə, onu olduğu kimi qiymətləndirə bilmirlər. Fateh Teymuru qınayanlara, bəzən "qanıçən" adlandıranlara isə üzümü tutub demək istəyirəm ki, hökmdarın bir əli tutub, bir əli kəsməsə, o zaman HÖKMDAR öz dövlətini idarə edə bilməz. 35 illik hakimiyyəti dövründə, elmin texnikanın bugünkü inkişafının olmadığı bir vaxtda, uzaq yolları, ölkələri yaxın edib, dünyanın 27 ölkəsini bir bayraq altında birləşdirə bildi. Bu tarixi şəxsiyyət, zamanında 7 dünya hökmdarı adlandırılan Əmir Teymur idi. Əmir Teymurun nəsli 488 il hakimiyyətdə oldu.




### "Şərqin incisi— SƏMƏRQƏND"

Əmir Teymurun yaratdığı Məvarənnəhr dövlətinin mədəniyyəti və ticarəti, iqtisadi həyatının inkişafında böyük yüksəliş, intibah dövrü, həm də Mərkəzi Asiyanın dövlət kimi tanınmasında rol oynayıb. Teymur dövründə böyük imperiyanın ticarət əlaqələrinin genişləndirilməsi, insanlar və dövlətlər arasında ünsiyyətin yaranması üçün yol quruluşuna xüsusi fikir verirdi.

"İpək yolu", bizim zəmanəmizdə isə "Azad İqtisadi zona" adlanan bir sistemi işlətməklə, o paytaxt etdiyi Səmərqənd şəhərini dünyanın incisinə çevirdi. Özünün məşhur "Mən dünyanı fəth edən Teymuram" əsərində yazır:

"... Tapşırdım ki, başlı-başına qalmış torpaqlarda kəhrizlər tiksinlər. Çayların və kanalların üzərində olan dağılmış körpüləri yenidən bərpa etsinlər. Yolçuların gecələməsi üçün qonaq evləri tiksinlər. Habelə yollarda gözətçi və nəzarətçi məntəqələri inşa etsinlər ki, nəzarətçi və mühafizəçilər vəziyyətə nəzarət edə bilsinlər. Və gəlib-gedən yolçuların, qonaqların təhlükəsizliyi qorunsun".

Paytaxt Səmərqəndə Yaxın və Uzaq Şərqdən, Avropanın İspaniya , Fransa, İngiltərə kimi ölkələrindən də tacirlər, çaparlar gəlirdi. Bu tacirlərin gediş- gəlişini asanlaşdırmaq üçün yollar tikilir, yollarda çox şəffaf vergi və gömrük sistemi işləyirdi. Yollarda olan Karvansaralar, gözətçi məntəqələri, istirahət yerləri, hətta çapar atlarının istirahəti üçün olan dayanacaqlar barədə o zamanın səyyahları, tarixçiləri ağız dolusu və heyranlıqla yazırlar. Yollarda karvanların dinc və rahat irəliləməsi üçün bütün təhlükəsizlik qaydalarına əməl olunmalıydı. Əgər kimsə öz işinin öhdəsindən gəlməsə, qanun yol vermədiyi halda yolçunu və ya qonağı incidərdisə, belə hallar dərhal yoxlanılır, günahkar cəzasını alırdı. Bu cəza tədbirlərinin içərisində diri-diri basdırılmaq, başı kəsilmək və asılmaq təhlükəsi də var idi.

Apardığı bütün döyüşlərdən qalib çıxan Əmir Teymur ilk əvvəl Məvarənnəhr dövlətini yaradaraq Səmərqəndi onun paytaxtı elan etdi. Yenə Əmir Teymurun öz kitabından sitat: "...Səmərqəndi dünyanın ən gözəl və gülşən şəhərlərindən biri etdim. Dünyanın gözü sayılan Şirazda 7 məcid məscid olduğu halda, mənim Səmərqəndimdə 200-dən artıq məscid var idi. Hər məscidin də iki, üç və ya 4 güldəstəsi ( müəllif: minarə nəzərdə tutulur) var idi. Hər məscidin başında isə qızıldan ay həkk olunmuşdu. Şəhərin girəcəyinə çatanda buradakı bağçalar və bağlardan gələn qızılgül ətirləri cənnəti xatırladırdı".

Tarixi mənbələrdən məlumdur ki, ömrünün 35 ilini istilalara və müharibələrə həsr etmiş Əmir Teymur, Səmərqəndə qayıdarkən, özü ilə həmin yerlərdən ən dəyərli alimləri, şairləri, ustaları, xəttatları da yığıb gətirirdi. Hətta zəbt edəcəyi şəhərə girməmişdən əvvəl , əsgərlərini həmin şəhərə və ya elata göndərərək, sənətkarlara, alimlərə, bacarıqlı ustalara və onların ailələrinə ziyan dəyməsin deyə, qapılarına işarələr qoydururdu. Döyüşlər başa çatandan sonra isə, həmin adamlar qoşun- ləşkərlə birlikdə Səmərqəndə gətirilirdilər. Səmərqənddə bu gün də göz bəbəyi kimi qorunub saxlanan Əmir Teymur dövrünün tarixi abidələrini – məscidləri, mavzoleyləri, mədrəsə, karvansarayları işğal etdiyi ölkələrdən gətirdiyi ustalara inşa etdirib.

Artıq hökmranlığı, siyasi əqidəsi və gücü ilə tanınan Əmir Teymurun İmperiyasından lərzəyə gələn bir çox Avropa ölkələrinin hökmdarları, gələcəkdə Teymurun qəzəbinə tuş gəlməsinlər deyə, özləri ona məktub göndərərək, ittifaqa girməyə üstünlük verirdilər. Dövlətinin əmin-amanlığını qorumaq üçün Kastiliya və Leoniyanın hökmdarı III Henrix de Trastamara elçisi Rui Qonsales de Klavixonu bu məqsədlə Səmərqəndə göndərmişdi. Elçi de Klavixo sonralar "Əmir Teymurun sarayına qədər səyahət gündəliyı"ndə yazırdı:

"... Böyük sərkərdənin xasiyyətinə bələd olmayan bəzi yabançı ölkələrin hökmdarları onun qəbuluna gələndə yerə əyilərək, Teymur bəyə baş əyirdilər. Teymur belə məqamlarda özünün etirazını bildirərək deyirdi ki, insanlar ancaq namaz vaxtı böyük Allahın qarşısında baş əyməlidirlər. Buna görə də, Teymurun iqamətgahına gələn elçi və qonaqlar, hər təbəqədən olan insanlar, ona yaxınlaşıb, diz üstə oturub, əlini öpərək ehtiramlarını bildirirdilər".

### Şimali Azərbaycan, Şirvanşahlar dövləti və "Dəmir qapı" Dərbənd

1399-1404-cü illərdə Əmir Teymurun 7 illik yürüşü məhz Qərbi İran, Azərbaycan, Kiçik Asiya və Suriyanı əhatə etdi. Rui Qonsales de Klavixo öz xatirələrində yazırdı ki, Qarabağda qış mülayım keçdiyindən Fateh Teymur adətən bütün qış aylarını yaz gələnə qədər qoşun-ləşkəri ilə burada keçirərdi. Tarixdən məlum olduğu kimi, gözəlliklər yaratmaqdan zövq alan Fateh Teymur, Qarabağı o qədər sevmişdi ki, burada iyirmi mindən artıq ev də tikdirmişdi. Bu evlərdə qoşun paytaxt Səmərqəndə qayıdanda yerli əhali sahib olurdu. Əlbəttə onların içərisində Əmir Teymurun qoşunu ilə gəlib, sonradan bu yerlərdən qayıtmayan elatlar da olurdu.

Tez-tez Qarabağda qışlasa da , dövlətinin siyasi durumunu qorumaq, daim güclü nəzarətdə saxlamaq üçün Şimali Azərbaycana və Dərbəndə nəzarəti Şirvanşah Şeyx İbrahimxəlilə vermişdi. Əmir Teymurun gücünə və əzəmətinə bələd olan Şirvanşah Şeyx İbrahimxəlil özünün uzaqgörənliyi ilə, Fateh Teymura baş əyməyən şahlardan fərqli olaraq (çünki bir qayda olaraq Əmir Teymurun qabağına qoşunu ilə çıxan, şəhərin darvazalarının açarını ona verməyən və ya müqavimət göstərən padşahlar döyüşlərdə məğlub olurdular ) onunla ittifaq yaratmağa üstünlük verir.

Teymurun hakimiyyəti dövründə onun sarayında işləmiş öz dövrünün tarixçi alimi Şərafəddin Əl Yəzdi "Zəfərnamə" əsərində yazır: "...Allahın köməkliyi ilə Teymur Sahibqiran Dərbənddən Bakıya gəldi (təqribən 1383-97-ci ili nəzərdə tutur –müəllif) və əmr etdi ki, buradakı qalanı möhkəmlətsinlər. İlk dəfə 1381-ci ildə Şirvana hücum edərkən Şirvanşah Şeyx İbrahimxəlil sərkərdə Teymurun qabağına 40 dəvə yükü ənamla və 39 qulla çıxdı. Dünyanın alimləri, filosofları ilə məclis quran Teymur tez bu məqamı tutdu və Şeyx İbrahimdən soruşdu: "Qulun biri hanı?" Şirvanşah Şeyx İbrahimxəlil ona baş əyərək dedi: "Şahım, məmləkətim və rəiyyətim qul olunca mənim qul olmağım daha əfzəldir". Teymur Şamaxıda bir neçə gün qaldıqdan sonra Kürün sahillərinə endi. Şeyx İbrahimxəlil burada da Əmir Teymura layiq şadyanalıq və qonaqpərvərliklə qəbul etdi. Teymurun qulluğunda bir etibarlı dost kimi dayandı. Hökmdar Teymur da onun bu xidmətlərini cavabsız qoymayaraq, Şeyx İbrahimxəlilə özünün şəxsi əbasını və əbanın üstündə olan qiymətli daş-qaşlarla bəzənmiş kəmərini bağışladı. Bundan əlavə isə ilk Azərbaycan dövlətini yaradan Şirvanşah Şeyx İbrahimxəlili Şirvanda və Dərbənddə öz vassalı elan etdi və dedi ki, bundan sonra Şeyx İbrahimxəlil öz ordusu ilə Dərbəndin sərhədlərini də qorumalıdır".

Bu yeni ittifaqla Şirvanşah İbrahimxəlil həm də Toxtamış xanın Şirvana etdiyi hücumdan sığortalanmış oldu. Həqiqətən də, Toxtamış xanın növbəti hücumu zamanı, Teymur özünün qələbə əzmli ordusu ilə Şirvanşahın köməyinə çataraq, onu Toxtamış xanın caynağından qurtara bildi. Teymurun Şirvanda olduğunu bilən Toxtamış xanın ordusu isə qaçaraq geri çəkildi.

Elə bu məqamda Fateh Teymurun "Dəmir Darvazası"ndan danışmaq da yerinə düşər. Səmərqəndi yadellilərin hücumundan qoruyan amillərdən biri də, Əmir Teymurun Səmərqəndin yaxınlığında olan Dəmir darvazası idi. Bu darvaza həm də dövlətə böyük xeyir gətirirdi. Böyük İpək yolu ilə hərəkət edən— Hindistandan, Kiçik Asiyadan gələn tacirlər, buradan keçəndə mütləq torpaq basdı (yəni gömrük haqqı) pulu verirdilər, bu da dövlətin xəzinəsinə böyük miqdarda gəlir gətirirdi. Çünki yuxarıda qeyd etdiyim kimi, Səmərqənd artıq dünyanın Ticarət Mərkəzinə— özüdə ki, Azad Ticarət Mərkəzinə çevrilmişdi. ƏmirTeymurun bu uğurundan xəbərdar olan Şirvanşah Şeyx İbrahimxəlil də Dərbəndin yaxınlığında belə darvazalar tikdirir. Elə "Dəmir qapı Dərbənd" sözü də bu günümüzə Şirvanşahdan gəlib çıxan bir deyimdir. Dərbənd qapısından isə taçirlər və səyahətçilər Bakıya və İrana səfər edirdilər. Bu qapı həm də Şirvanşahlar dövlətinin istehkamı idi.

### Fateh Teymurun dövlətçilik ənənəsi

Məlum olduğu kimi 7 dünya hökmdarı Teymur həm də cənubi Azərbaycanı öz nəzarəti altında saxlayırdı. Qara Yusifin və İran şahı Sultan Əhmədin zülmündən cana doymuş Cənubi azərbaycanlılar Teymurun qoşununu toy-bayramla qarşılayaraq, öz padşahlarına qarşı çıxmışdılar. Taleyinə ancaq uğurlar, qələbələr yazılmış böyük sərkərdənin yaşadığı dövrün tarixçiləri və şahidləri Şərafəddin əl Yəzdi və Nizaməddin Şamı "Zəfərnamə"lərində, İbn Ərəbşah "Teymurnamə" əsərlərində Əmir Teymurun yaşadığı dövrü və şəxsiyyətini ustalıqla qələmə almışlar. Bu müəlliflərin əsərlərini nəzərdən keçirəndə Sahibqıran Teymurun dövlət idarəçiliyi və hərbi taktikasına da heyran qalırsan. Tarixi mənbələrdəki məlumatlara görə, fəth etdiyi 27 dövlətin hər birində baş verən hadisələrdən, həmin dövlətlərdəki padşahların, şahların idarəçiliyindən vaxtlı vaxtında xəbər tuturdu. Bu xəbərlər ona yerlərdə təyin etdiyi şəxslərdən, elçilərindən, gizli xəfiyyələrindən, dünyanın hər yerinə göndərdiyi dərvişlərindən gəlirdi. Böyük bir imperiyanın saxlanmasında Əmir Teymurun qanunları saat mexanizmi kimi düz işləyirdi. Böyük sərkərdə "Tüzüklər"ində yazırdı: " Vicdanımın və ədalətin səsinə qulaq asaraq mən qulların da şikayətini təmkinlə dinləyib, haqqı nahaqdan ayırmışam. Mərhəmətli əməllərimlə insanların qəlbində qalmışam. Dövlətin qanunlarına söykənərək ordunu və rəiyyətimi ümid və qorxu içində saxlamışam. İmkansız və məzlumlara mərhəmət göstərib, əsgərlərimi mükafatlandırmışam. Mən deyirdim ki, hökmdar özü ədalətli və mənəviyyatca təmiz olmalıdır ki, onun ətrafında olanlar da, ona baxıb bu ədalət və mənəvi dəyərlərini qorusunlar. Əgər padşah özü zülmkardırsa, onda onun ətrafındakıların da əxlaqı pozulur və həmin adamlar hər vəchlə xalqı tapdamağa çalışırlar".

Həyatı təzadlarla dolu hökmdar, öz əsrində çox şəhərləri yerlə-yeksan edib, insan başlarından qalalar, divarlar yapıb. Hətta kitablarında yazır ki, "... mən zəbt etdiyim şəhərlərdə tabe olmayan əhalini qanına qəltan edirdim, şəhərin küçələrində, bazarlarında, meydanlarında qan su yerinə axırdı. Lakin mənə qarşı çıxmayan, sakitcə İslamın bayrağını və mənim hökmranlığımı qəbul edənləri isə mərhəmət göstərib, incitmirdim".

Bu fikirlər də ona aiddir: "Düşmənimi öz əlimlə öldürəndə, onun qanının axmasını zövqlə seyr edirdim. Düşmənimin qanını tökmək mənə xoş idi. Elə bu üsulla da dövləti idarə edirdim, bununla ətrafdakılara bildirmək istəyirdim ki, mənə qarşı çıxanların hər birini belə aqibət gözləyir".

+++

Yürüş etdiyi, zəbt etdiyi ölkələrdə çox vaxt yerli əhalinin arzu və istəklərini nəzərə aldığından, elin, obanın layiqli adamlarını hakimiyyət başına gətirər, onların məişət və adət ənənələrinə hörmətlə yanaşardı. Şəhərin qazisini və ya hakimini isə, mütləq həmin şəhərdə yaşayan, eli-obanı yaxşı tanıyan ,həmin mərtəbəyə layiq olan yerli şəxslərdən seçirdi ki, əhalinin adət-ənənəsinə, yaşayış tərzinə uyğun idarəçilik təmin olunsun. Bu mənada hətta başqa ölkələrdən Məvarənnəhr dövlətinə gətirdiyi insanların dini adət-ənənələrinin qorunması üçün onlara ibadət yerləri , kilsələr tikmələrinə də icazə verirdi. Bu da Əmir Teymurun tolerantlığından irəli gəlirdi. Fateh barmağında öz zəmanəsinin



görkəmli şeyxi olan Zainuddin Abu Bəkr Tabaydasinin 21 yaşında olarkən ona hədiyyə etdiyi, üzərində "Rosti-rost" sözü yazılmış mərcan qaşlı üzük gəzdirirdi. "Rosti-rost"-"Ədalətli olsan , xeyrə çatarsan" – demək idi. Buna görə də, həmişə vicdanının səsini dinləyib, ədalətlə hərəkət edərək, təbəəsində olan qullarına mərhəmət göstərirdi. Günahı olub və olmayanların da haqqını ədalətli şəkildə təmin edirdi. Bununla belə, dövlət işlərində verilən tapşırıqları layiqincə yerinə yetirənlərin də mükafatını verirdi. Fateh Teymurun dövlət idarəçiliyindəki uğurlarından biri də ondan ibarət idi ki, dövlət əhəmiyyətli hər hansı bir məsələnin həllində, qanun qəbul ediləndə, uzaq bir səfərə çıxanda üləmaları, müşavirlərini, vəzirlərini, alimləri, tarixçiləri başına toplayıb, onların rəyini fikrini öyrənər, xeyirli və xeyirsiz tərəflərini götür-qoy etdikdən sonra, hərtərəfli düşünüb qərar qəbul edərdi. O, uzunmüddətli uzaq səfərlərindən qayıtdıqdan sonra da, hakimləri, qaziləri, yerində qoyub getdiyi iş icraçılarını və rəiyyətin içərisində sözü keçən, ona dolğun həqiqətləri çatdıra bilən şəxsləri sarayına çağırıb, məşvərət edər, ölkəsində olmadığı müddətdə baş verən hadisələrdən xəbər tutar, rəiyyətin nahaqdan incidənləri isə ağır cəza ilə cəzalandırardı. Dövlətdə ali işlərdə çalışacaq şəxsləri seçəndə isə onların, nəsil-kökünə, insani keyfiyyətlərinə, xalq arasında hörmətinə fikir verirdi. Bir şəxsin nəslində və ya özündə satqınlıq, nadanlıq olurdusa, həmin şəxsləri dövləti-aliyə işə götürmürdülər. Əmir Teymur ətrafında ancaq etibarlı və sədaqətli insanları işlədirdi.

Bu gün bir çox məqamlarda bəzi insanlar belə fikir yürüdürlər ki, köhnə qəbirlər silinib getməlidir. Bəlkə də bu dünyada adi insan kimi ömür sürüb gedən insanlara daha çox aiddir. Əmir Teymurun isə özünün bir həqiqəti var idi. O, yürüş etdiyi şəhərlərdə Məhəmməd peyğəmbərin(S.Ə.S.) nəslindən olan dünyadan köçən insanların qəbrini tapır, onları abad edirdi. Hətta dövlət xəzinəsindən belə məzarların və xanakələrin saxlanması üçün vəsait ayırırdı. İmam Hüseynin, Şeyx Əbdülqədirin, imam Məhəmməd Haqqinin, imam Əli İbn Musanın, imam Musa Kazımın da məzarlarına bu diqqəti göstərmişdi. Tus şəhərinə gələrkən, burada böyük fars şairi Firdovsinin baş daşının sındırıldığını görür, və əsgərlərinə tez bir zamanda Firdovsinin məzarını abadlaşdırmağı əmr edir.

Təbrizdə hicri tarixinin 703-cü ilində dünyasını dəyişmiş, Çingiz xanın nəslindən olan Qazan xanın məzarını ziyarət edir. Əmir Teymurun ona savab qazandıran əməllərindən biri də o idi ki, mədrəsəsi və məscidləri olmayan şəhərlərdə də məscid və mədrəsələr tikdirirdi. Həmin mədrəsə və məscidlərin rəhbərinə isə şəhərin valiləri tərəfindən yüksək aylıq verməyi bir qanun kimi yazmışdı. Deyirdi ki, dərs öyrədən müəllimin əməyi və yeri ucadır. Elə buna görə də, yazdığı vəsiyyətnaməsində , məzarının müəllimi Mir Seyid Bərəkənin ayaqları altında basdırılmasını arzulamışdı.

### Sərkərdə Teymurun hərbi taktikaları

12 yaşından at belində olan, döyüş texnikasının bütün növlərinə bələd olan, hər iki əli ilə qılınc oynatmağı, qalxan tutmağı bacaran bu türk oğlu Fateh Teymur döyüşlərdə 72 dəfə yaralansa da, bir dəfə də olsun, aldığı yaralara görə səsini belə çıxarmayıb. Bu haqda özü yazır ki, "... dişlərimi bir-birinə qıcayıb səsimi çıxarmazdım, çünki əsgərlərim səsimi eşitsə, ya məni gücsüz sanar, ya da ki, ruhdan düşərdilər". Bəlkə elə bu dəmir idarəsinə görə də Teymur idi.

Sahibqıran Teymurun döyüş qanunlarından biri də belə idi ki, ordusu gərgin döyüşlərə hazırlanarkən, əsgərlərini şəhərdən və elatdan uzaq olan bir yerdə qərarlaşdırar, çadır-duracaq yerlərini də uzaqda qurdurardı. Və əsgərlərinə belə bir tapşırıq vermişdi ki, döyüşdən əvvəl heç bir qadın və qıza baxmaq olmazdı. Sərkərdə yazırdı ki, orduda olan əsgərlər, yüzbaşı, minbaşılar adətən cavanlar olur. Cavanlıqda isə insan görüb bəyəndiyini sevə bilər. Döyüşlər vaxtı, əsgərin fikri gözəlin yanında qalsa, o döyüş qabiliyyətini itirəcək.

Sərkərdə Teymur yazırdı ki, əgər ordu başçısı döyüşçülərinin gözündə güclü görünürsə, onda döyüşçülər də ona baxıb hər yerdə rəşadət göstərəcəklər. Buna görə də sərkərdə tez-tez döyüş təlimlərinə çıxır, ox atır, qalxanla, qılıncla məharətini nümayiş etdirirdi. Döyüşlərdə fərqlənən döyüşçüləri, bahadırları, əmirləri səxavətlə mükafatandırırdı. Ordunu hər zaman hazırlıq vəziyyətində saxlayırdı. Ruma və Azərbaycana 7 illik yürüş edərkən , döyüşlərin uzun və ağır keçəcəyini bildiyindən, sərkərdə əsgərlərə göstərdikləri xidmətin müqabilində 7 ilin əmək haqqını, döyüşə getməzdən əvvəl verir. Ailələrinin yüksək təminatına əmin olan döyüşçülər isə bütün varlıqları, canları ilə döyüşlərə qatılırdılar. Dünyanın 27 dövlətinə hökmranlıq edən Əmir Teymur xatirələrində qeyd edirdi ki, döyüşçülərinə verdiyi qiymət, dövlət tərəfindən orduya olan qayğı və nizam intizam əsgərləri sədaqətli və rəşadətli etmişdi. Onların gücünə görə də bu ölkələri fəth edə bilmişdi.

Əmir Teymurun İldırım Bəyazidlə döyüşü, Türkiyəyə yürüşü tarixdə həmişə təzadlı mübahisələr yaradıb. Bəli, bu gün tarixi saf-çürük edəndə, görürsən ki, Fateh Teymurun bu hərəkətində xarici qüvvələrin, əsasən də xristian ölkələrinin böyük təsiri olub.

Qarşısına dünyaya hökmdar olmağı məqsəd qoyan Fateh Teymur, təbii ki, Türkiyəni də özünə tabe etmək qərarından da vaz keçməyəcəkdi. Bu məqsədinin həyata keçirilməsinin sürətlənməsinə isə İldırım Bəyazidin ona yazdığı təhqir dolu məktubu olur. Teymur Bəyazidin 6 minlik ordusunu əsir götürür, Bəyazid döyüşü uduzduğunu görəndə, ailəsini başqa şəhərə göndərir, özü də gizlənmək məcburiyyətində qalır. Lakin az keçmir ki, Teymurun xəfiyyələri onu tapıb, qolları bağlı halda hüzuruna gətirirlər. Teymur İbrahim Bəyazidi saraya gətirən Mahmud ağanın üstünə çığırıb deyir ki, "Açın onun qollarını. Siz məgər bilmirsiniz ki, hüzuruma böyük bir imperiyanın hökmdarını gətirmisiniz?!". Daha sonra , Teymur ondan niyə üz-üzə gəlib vuruşmamağını soruşanda, Bəyazid ayaqlarında məfasil xətəliyinin olduğunu bəhanə gətirir, Fateh ona cavabında deyir ki, bu oynaq ağrısı sayılan xəstəlik zaman-zaman onu da narahat edir, lakin döyüşməyə mane olmur. Teymur Bəyazidi gözündən kənara qoymur, getdiyi bütün döyüşlərə onu da yanında aparır. Fikirləşir ki, Bəyazidi, iqamətgahda nəzarətsiz qoyarsa, bəzi zəif adamları özünə tərəf çəkib qiyam və ya xəyanət edə bilər. İldırım Bəyazidi tam zərərsizləşdirən Əmir Teymur bir gün, İbrahim Bəyaziddən yaxınlıqda yerləşən Bizansı niyə zəbt etmədiyini soruşur. Cavabında İldırım Bəyazid ona deyir ki, Bizansa girmək üçün güclü dəniz donanması lazımdır. Onun isə belə gəmiləri yoxdur. Bu məqsədə çatmaq üçün isə nə az-nə çox, 2000-ə qədər gəmi gərəkdir. Bundan əlavə isə, su yolu ilə bu şəhərə yadellilər gələndə, dənizdən alov qalxır. Əmir Teymur üçün həll olunmayan məsələ yox idi ki, Allah ona o qədər iti ağıl və uzaqgörənlik vermişdi ki, bütün çətin vəziyyətlərdən çıxmağın yolunu tez bir zamanda tapırdı. Belə olan təqdirdə Fateh Teymur Fransadakı səfirinə xəbər göndərir, tez bir zamanda Teymurun sifarişini yerinə yetirən elçi sərkərdəyə xəbər göndərir ki, Fransadan dəmirdən hazırlanmış gəmilər almaq olar. Gecələrin birində Rum ilə Bizans arasında olan dənizi seyr edərkən Teymur dənizin alovlandığını görür. Dənizin suyunun üstündəki odun haradan əmələ gəldiyini soruşduqda, İldırım Bəyazid deyir ki, elə bu odun-alovun qorxusundan, kimsə Bizansı zəbt edə bilmir. Dənizə girən gəmilər, yarı yola çatmamış od tutub yanırlar. Bu odun sirrini isə min illərdir ki, Bizans imperatoru saxlayır, ancaq taxta çıxan adam bilir. 1200 ildən çox yaşı olan bu sirri öyrənmək həvəsi Əmir Teymura güc gəlir. Dənizin ortasında yanan alovu görərkən, tabeliyində olan Badukubədə (Bakını nəzərdə tutur – müəllif.) dayanmadan yanan torpaqlar gördüyünü xatırlayır. Badukubədəki alovların isə tarixi çox qədimdir. Bu yanar alovları Adəmin nəslindən olan insanlardan bu yana su ilə deyil, torpaqla söndürürlər. Badukubənin yanar torpaqlarını xatırlayan, Teymur belə qərar gəlir ki, Bizansa da girmək üçün gəmiləri torpaqla doldurub, suyun üzərindəki odu- alovu ram edəcək.

Bizansa girməyə hazırlaşarkən isə İldırım Bəyazidin qohumu Meqnisiyanın hökmdarı Tuqul şahın Ruma hücumu barədə xəbər alır. Az keçmir ki, Teymur böyük ordusu ilə Tuqulun qarşısına çıxır, Tuqul Əmir Teymurun ordusu qarşısında tab gətirə bilməyəcəyini görüb , ordusunun üzünü İran Azərbaycanına döndərir. Teymur bilir ki, Azərbaycanda o, İran, Tehran və digər qonşu dövlətlərin hakimləri ilə birləşsə, səltənətinə qarşı çıxa bilər. Buna görə də Tuqulu Azərbaycana qədər qovub, orada haqlayır. Tuqulun ordusunu darmadağın edir. Bu döyüşdə yaralanaraq hüzuruna gətirilən Tuqulu da bağışlayır. Lakin bir neçə gün sonra Tuqul öz əcəli ilə ölür. Aradan bir neçə müddət keçəndən sonra , İldırım Bəyazid də vəfat edir. Vəfat etməzdən öncə Teymurdan oğlanlarına hər hansı bir ölkənin hakimliyini verməyi xahiş edir. Teymur onun iki oğlunu əyalətlərə başçı təyin edir. Azərbaycandakı sonuncu döyüşündə də İldırım Bəyazidin oğlunun ordusunun gücündən istifadə edir. O taylı-bu taylı Azərbaycanı özünə tabe etdikdən sonra, anadan olduğu Keş vilayətinə qayıdaraq, Keş şəhərinin yenidən tikilib abadlaşdırılması barədə əmr verir. Şəhər hazır olandan sonra isə, dünyanın hər yerində olan vassallarını və başqa ölkələrin hökmdarlarını Keşə qonaq çağırır. Dəvətlilərin hamısı dəvəti qəbul etsə də, Çin imperatoru Əmir Terymurun dəvət məktubuna təhqir dolu bir cavab yazır: "Özünü böyük hökmdar kimi elan etmək istəyən Teymur bəy, Sizə ərz etmək istəyirəm ki, mənim Ca Belkadan Ca Belasa qədər olan ərazimdə sənin səhralarındakı qumlarından çox və dənizlərdəki balıqlardan çox sayı olan ordum var. Sən özünə necə rəva görüb, mənim boyda bir padşahı beş-altı dənə kərpicdən tikdirdiyin yerə dəvət edirsən. Məni təzim etməyə gələnlər, əvvəlcə on dəfə torpağımı öpür, sonra bu şərəfə nail olurlar. Əcəba, birdən Çinə yolun düşsə, əcdadlarımın tikdirdiyi Böyük divarı görüb təəccüblənərsən. Mənim adi bir əyaləti idarə edən canişinim səndən hünərlidir. Əgər onların biri ilə var-dövlətin və ya gücün ölçüyə gələrsə, onda mənimlə görüşmək xoşbəxtliyi də sənə nəsib olar".

Bu məktubu alandan sonra, qarşıdakı iki il ərzində Əmir Teymur öz ordusunu Çinə yürüşə hazırlayır. 1404-cü ildə Teymur 200 minlik Ordusu ilə Çinə yürüşə çıxır. Lakin 1405-ci il fevralın 18-də Otrar aşırımında keçirdiyi növbəti iflic nəticəsində dünyasını dəyişir. Onu Səmərqənddə, əvvəlcədən inşa etdirdiyi Mavzoleyində, müəllimi Mir Seyid Bərəkənin ayaqları altında, ailə məzarlığında dəfn edirlər.

**Aida Eyvazova,**
**Azərbaycan Televiziya və Radio Verilişləri QSC-nin Özbəkistan Respublikası və Mərkəzi Asiya üzrə müxbir postunun rəhbəri**

## Messi Rusiyada oynamaqdan imtina edib




"Barselona"nın hücumçusu Lionel Messi Rusiya Premyer Liqasında oynamaqdan imtina edib. Bir müddət əvvəl Messinin qış fasiləsində Rusiya klublarından birindən dəvət gəlib. Həmin klub Messiyə görə "Barselona"ya 250 milyon təzminat ödəməyə, futbolçunun özünə isə ildə 30 milyon avro verməyə hazır olub. Lakin Messi Rusiyada oynamaq istəməyib.

Qeyd edək ki, Messiyə təklif göndərən klubun adı açıqlanmasa da, bu komandanın "Anji" olduğu istisna edilmir.

## Abramoviçdən fantastik transfer büdcəsi: 240 milyon dollar



İngiltərənin "Çelsi" klubunun sahibi Roman Abramoviç komandanın gücləndirilməsi naminə böyük məbləğdə pulundan keçməyə hazırdır. "Sunday Express"in verdiyi məlumata görə, "zadəganlar"a 2013-cü ildə oyunçu transferləri üçün 150 milyon funt (təxminən 240 milyon dollar) ayrılacaq. "Çelsi" ilk növbədə, İspaniya "Atletiko"sunun superforvardı Radamel Falkaonu almağa köklənib. 50 milyon funt qiyməti olan Falkao artıq Abramoviçin dəvəti ilə komandanın məşq düşərgəsində də olub. Kolumbiyalı hücumçu İspaniya çempionatında 50 oyuna 43 qol vurmaqla yanaşı, Avropa Superkubokunda "Çelsi"nin qapısından 3 top keçirib. "Zadəganlar" Ukrayna "Şaxtyor"undan 35 milyon funt dəyəri olan Villianı da almağa hazırlaşırlar. London klubu hazırda "Vest Bromviç"də çıxış edən Romela Lukakunu da qaytarmaq niyyətindədir. Paytaxt komandası bununla da kifayətlənmək fikrində deyil.

Qeyd edək ki, hazırda "Çelsi"yə Roberto Di Matteonu əvəzləmiş Rafael Benites rəhbərlik edir. Çempionlar Liqasında 1/8 finala vəsiqə qazana bilməyən komanda İngiltərə Premyer Liqasında lider "Mançester Yunayted"dən 11 xal geri qalır.

Rəşad Məcid, Yaşar Əliyev, Yusif Rzayev Elman Qədirliyə anası

**XAVƏR xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Kamran Nəzirli, Cavid Xaspoladov, Süleyman Əlisa Elman Qədirliyə anası

**XAVƏR xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Mehparə Axundova Elman Qədirliyə anası

**XAVƏR xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qəzet 1992-ci il noyabrın 17-dən çıxır.

**Baş redaktor:** Rəşad Məcid
**Redaktor:** Yaşar Əliyev
**Baş redaktor müavinləri:** Yusif Rzayev, Seyfəddin Hüseynli
**Redaktor müavinləri:** Aydın Bağırov, Mirhacib Məcid, İsgəndər Həsənov

Qəzet bazar və bazar ertəsindən başqa hər gün çıxır
**Ünvan:** AZ1033, Bakı, Ş.Mustafayev küçəsi-27/121
Telefon: 566-67-98, 566-93-40
Faks: 566-25-20
**İnternet ünvanı: www.525.az**
**E-mail: qezet525@mail.ru**
Qəzet "Azərbaycan" nəşriyyatının mətbəəsində çap olunub.
Təsisçi: "525" şirkəti
İndeks: 0046, tiraj: 2250, sifariş:4416
"TURAN", "TREND", AzərTAc, "AssA-İradə", APA və "OLAYLAR"ın informasiyalarından istifadə olunub.
Dərc olunan reklamların mətninə görə redaksiya məsuliyyət daşımır.
® işarəsi altında dərc olunan materiallar reklam xarakterlidir.